# Hz. İsa (ə.s)
# Allahın oğlu deyil,
# Allahın Peyğəmbəridir

Harun Yəhya

(Adnan Oktar)

# İçindəkilər

Giriş

Xristianların "təslis inancı" yanılmaları

Quranda təslis inancı rədd edilir

Təslis inancı hz. İsadan əsrlər sonra yaranmışdır

Hz. İsa Allahın oğlu deyil, Allahın peyğəmbəridir

İncildəki "həqiqi xristianlıq"

İncildə təsvir edilən "Allahın peyğəmbəri hz. İsa"

İncil müəllifləri hz. İsanın həyatına şahid olmayıblar

Xristianlar bu əsassız iddianı niyə ortaya atmış ola bilərlər?

İznikdən bu günədək təslis inancına qarşı çıxmış xristianlar

Nəticə

Təkamül yanılması

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən

insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Dünyanın ən böyük iki İlahi dini olan İslam və Xristianlığın bir çox inancları eynidir. Xristianlar da biz müsəlmanlar kimi, Allahın mütləq varlığına, əzəli və əbədi olduğuna, bütün kainatı yoxdan yaratdığına və bütün maddəyə sonsuz qüdrətiylə hakim olduğuna inanırlar. Müsəlmanların və xristianların qarşı çıxdıqları yanlış ideologiyalar da eynidir. Ateizmə, dinsizliyə, irqçiliyə, faşizmə və əxlaqi degenerasiyaya qarşı apardıqları fikri mübarizələri və ya Allahın varlığını təbliğ etmək mövzusundakı səyləri demək olar ki, tamamilə eynidir. Ortaq hədəfləri, bütün insanların Allahı tanıyacaqları, sülh, tolerantlıq və əmin-amanlıq içində yaşayacaqları ədalətli dünya meydana gətirməkdir. Hər iki dinin iman sahibləri də Allah qorxusu və Allah sevgisiylə hərəkət edir, Allahın elçilərinin yolundan gedir və Onun vəhyinə tabe olurlar.

Xristianlarla müsəlmanlar demək olar ki, eyni əxlaqi dəyərlərə sahibdirlər. Yalnız öz mənfəətlərini düşünən, sevgisiz, mərhəmətsiz, eqoist, mənfəətpərəst və nadürüst insan modeli, müsəlmanlar kimi xristianların da müdafiə etdikləri din əxlaqıyla ziddiyyət təşkil edir. Xristianlar da sevginin, dürüstlüyün, mərhəmətin, fədakarlığın, ədalətin, təvazökarlığın və qardaşlığın hakim olduğu bir dünyanın həsrətini çəkirlər və belə bir dünya meydana gətirmək üçün səy göstərirlər. Xristianlar da fahişəlik, homoseksuallıq, narkotik istifadəsi, zorakılıq, istismarçılıq kimi Rəbbimizin haram etdiyi əxlaqsız hərəkətlərin qarşısının alınması üçün mübarizə aparırlar.

Xristianlar və müsəlmanlar Allahın seçilmiş qulu hz. İsaya dərin sevgi və hörmət bəsləyirlər. Hz. İsa, Allahın Quran ayələriylə bizə tanıtdığı və aləmlərdən üstün etdiyi mübarək elçisidir. Quranda hz. İsanın; "dünyada və axirətdə seçilmiş, şərəfli, hörmətli və (Allaha) yaxınlaşdırılanlardan" (Ali İmran surəsi, 45) olduğu bildirilir. O, Allahın müxtəlif möcüzələr və üstün əxlaqla şərəfləndirdiyi dəyərli quludur.

Bu kitabın yazılma məqsədi isə, həqiqi xristianlıqda (həqiqi xristianlıq deyildikdə, xristianlığın hz. İsaya ilk vəhy edildiyi halı nəzərdə tutulur) olmayan, lakin hz. İsanın Allah Qatına alınmasından xeyli sonra ortaya çıxan "təslis" inancının yanlış olduğu üzərində dayanmaqdır. Kitabda həm xristian qaynaqları, həm də Quran ayələri əsasında həqiqi xristianlığın tövhid inancını əsas götürən, hənif (Allahı vahid qəbul edib, ona iman edən) bir din olduğunu göstərəcəyik. Həmçinin hz. İsanın "Allahın oğlu" olduğu təməli üzərində yaradılan (Allahı tənzih edirik) təslis inancının hansı səbəblərdən ötrü yaradılmış ola biləcəyini araşdıracağıq. Kitabda həmin bu inanc araşdırılarkən, onu müdafiə edən müxtəlif görüşlərə və təməl iddialara da yer veriləcək. Lakin bu inancın incəlikləri üzərində dayanmadan əvvəl, sonsuz güc və qüdrət sahibi olan Rəbbimizi (təslis inancını bildirmək üçün işlədəcəyimiz) bütün ifadələrdən ötrü tənzih edir və Onun müqəddəs peyğəmbəri olan hz. İsanın bu cür sifətlərdən uzaq olduğunu ifadə etmək istəyirik (kitabda işlədilən Bibliya

ayələrindəki bəzi ifadələrdə dəyişikliklər edilmiş, "Ata" ifadələri "Allah-Rəbb", "Oğul" ifadələri isə "peyğəmbər-elçi" olaraq dəyişdirilmişdir. Yerli və xarici əsərlərdə Allahın mübarək elçisi hz. İsanın adının işləndiyi hər yerə, bu müqəddəs insana hörmət olaraq "həzrət" ifadəsi əlavə olunmuşdur).

Vurğulanması lazım olan digər bir əhəmiyyətli xüsus isə, Allahın göndərdiyi bütün elçilərə və kitablara iman edən müsəlmanların, həm xristianların, həm də yəhudilərin inanclarına və dəyərlərinə hörmət etdikləridir. İslam dinində, yəhudiliyin müqəddəs kitabı olan Əhdi-Ətiqdəki Tövrat və Zəburla xristianların müqəddəs kitabı olan Əhdi-Cədid (İncil) İlahi kitablar kimi tanınır, bu dinlərin mənsubları isə "Kitab əhli" adlandırılırlar. Rəbbimiz Bəqərə surəsində müsəlmanları belə təsvir edir:

**O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir... (Bəqərə surəsi, 4)**

Ayələrdə bildirilən bu kitablar hz. İbrahimin səhifələri, hz. Musaya endirilən Tövrat, hz. Davuda endirilən Zəbur və hz. İsaya endirilən İncildir. Allahın hz. İbrahimə vəhyi bu günə qədər gəlib çatmamışdır. Digər kitablar isə zamanla orijinal hallarından uzaqlaşmış, bəzi insanlar tərəfindən müxtəlif səbəblərdən ötrü təhrif edilmişdir. Dolayısilə bəzi hissələrində Allahın haqq dinindən kənar şərhlər və açıqlamalar işlədilir. Bununla yanaşı, Allaha və elçilərinə iman, Allah sevgisi və Allah qorxusu, gözəl əxlaq kimi Quran ayələrinə uyğun hissələr də dövrümüzə qədər gəlib çatmışdır (doğrusunu Allah bilər.) Allah bu kitabların, göndərildikləri cəmiyyətlər üçün rəhbər olduqlarını bildirir. Rəbbimiz Ali İmran surəsinin 3-4-cü ayələrində: "O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi - daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün..." deyə buyurur. Allah, digər bir ayədə isə Tövrat barədə bunu bildirir:

**Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır. Allaha təslim olan peyğəmbərlər yəhudilər üçün bununla hökm verirdilər. Rəbbanilər və əhbarlar da, Allahın Kitabını qorumaqla məsul tutulduqlarından və ona şahid olduqlarından bununla (Tövrat) hökm verirdilər... (Maidə surəsi, 44)**

Bəzi yəhudi din xadimləri üçün Quranda "kəlmələrin yerlərini dəyişdirib deyirlər" (Maidə surəsi, 41) deyə buyurulur. Allah digər bir ayədə isə bəzi yəhudilərin; "cüzi miqdarda pul əldə etmək üçün, öz əlləri ilə kitab yazıb, sonra da: “Bu, Allah tərəfindəndir!” dediklərini bildirir (Bəqərə surəsi, 79). Yəni onlar Rəbbimizin hz. Musaya vəhy etdiyi müqəddəs kitabını təhrif ediblər. Xristianlar isə, təslis inancından ötrü xeyli yanılıblar. (Nisa surəsi, 171)

Allah Quranda Kitab əhli barədə bir çox əhəmiyyətli məlumat verir. Bunlardan bəziləri, Kitab əhlindən olan bəzi insanların yanlış inanc və ya əxlaqi dəyərlərə sahib olmalarıdır. Lakin bu, bütün Kitab əhlinin qəflət və yanılma içində olduğu demək deyil. Ayələrdə yəhudi və xristianlar arasında səmimi dindarların da olduğu bildirilir:

**Hamısı eyni cür deyillər. Kitab əhli içərisində bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allahın ayələrini oxuyurlar. Beləlləri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməkdə yarışırlar. Məhz onlar əməlisalehlərdəndirlər. Onların etdiyi yaxşılıqlar əvəzsiz qalmayacaqdır. Allah müttəqiləri tanıyır. (Ali İmran surəsi, 113-115)**

**Həqiqətən, Kitab əhlindən elələri də var ki, Allaha dərindən hörmət göstərənlər olaraq həm Allaha, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Ali İmran surəsi, 199)**

Nümunəvi müsəlmanlar bütün həyatları boyunca Quran ayələrinə görə yaşayarlar. Dəyər mühakimələri, əxlaq xüsusiyyətləri, həyata və insanlara baxış prizmaları tamamilə Allahın Quran ayələriylə müəyyənləşdiridiyi kimidir. Bu müsəlmanların Kitab əhlinə yanaşma tərzlərində də hakimdir. Əsas məsələ, onlara həmişə tolerantlıqla, ədalətlə, sevgiylə yaxınlaşmalarıdır. Bundan ötrü də, onları "əks tərəf" kimi deyil, Allaha bağlı, inanclı insanlar kimi görərlər. Bunun əksini etmək, Quran əxlaqına zidd davranış olar. Kitab əhli arasında da Allaha səmimi şəkildə iman edən və dolayısilə nicat tapacağı ümid edilən bir çox insan ola biləcəyi əsla unudulmamalıdır. Dolayısilə kitab boyunca edəcəyimiz bütün xatırlatmalar da bu şüurla yazılmış və Allahın bir çox Quran ayəsində bildirdiyi "yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan etmək" əmrinin tələbini yerinə yetirmək hədəflənmişdir. Məqsədimiz təslis inancının yanlış olduğunu göstərmək və sağlamfikirli İsəvilərin həqiqətləri görmələrinə kömək olmaqdır. Təmənnamız bütün İsəvilərin bu yanılmanı görmələri və tövhid inancına uyğun olmayan bütün yanlış inanclardan tamamilə imtina etmələridir.

# Xristianların "təslis inancı" yanılmaları

Allah, insanları doğru yola yönəltmək və etdikləri səhvləri onlara bildirmək üçün, tarix boyunca peyğəmbərlər göndərmişdir. Hər peyğəmbər göndərildiyi cəmiyyəti doğru yola çağırmış, Rəbbimizdən aldığı vəhyi öz cəmiyyətinə bildirmişdir. Hər dinin hökmlərində, ibadətlərində və tətbiqlərində bəzi fərqlər olmuş olsa da, bütün peyğəmbərlərin təbliğlərinin əsasını eyni tövhid inancı təşkil etmişdir. Tövhid, "Allaha, Onu tək ilah qəbul edərək iman etmək" deməkdir. Tövhid inancına sahib bir insan, yeganə güc və qüdrət sahibinin aləmlərin Rəbbi olan Allah olduğunu bilər. Bütün insanların Allaha möhtac, aciz qullar olduğundan və bütün varlıqların Allaha boyun əydiyindən xəbərdar olar. Digər bir sözlə, İslam dini xaricindəki iki böyük haqq din olan Yəhudilik və Xristianlıq, pozulmamış halları ilə Allaha heç bir varlığı şərik qoşmamaq təməli əsasında yaradılmışdır.

Allahın varlığına və təkliyinə inanan hər üç İlahi dinin mənsubları da əslində Rəbbimizin hz. İbrahimə endirmiş olduğu haqq dinə tabe olurlar. Quranda hz. İbrahimin dininin "hənif" din olduğu bildirilmiş və Peyğəmbərimiz (s.ə.v)-ə bu dinə tabe olması əmr edilmişdir:

**Sonra sənə vəhy etdik: “Hənif olan İbrahimin dininə tabe ol. O, müşriklərdən deyildi”. (Nəhl surəsi, 123)**

Hənif sözü, "təkcə Allaha inanıb, təkcə Ona qulluq edən insan" mənasındadır. Hz. İbrahimin hənif olaraq vurğulanan xüsusiyyəti, yalnız Allahı tək ilah qəbul edib, Ona iman etməsi və təslim olmasıdır. O bütpərəst qövmünün batil inanclarından uzaqlaşmış, yalnız Allaha üz tutmuş, hənif quldur. Qövmünü də bütpərəst inanclarını tərk etmələri və bütlərə ibadət etməkdən imtina etmələri üçün xəbərdar etmişdir (ətraflı məlumat üçün baxın: Hz. İbrahim və hz. Lut, Harun Yəhya, araştırma nəşriyyatı, fevral 2003)

Allahın hz. İbrahimə vəhy etdiyi haqq din, onun nəslindən gələn digər saleh möminlər tərəfindən ayaqda saxlanılmışdır:

**Özünü alçaldanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Biz onu dünyada seçdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdən olacaqdır. Rəbbi ona: “Təslim ol!” dedikdə, o: “Aləmlərin Rəbbinə təslim oldum!” demişdi. İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: “Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!” Yoxsa siz Yaquba ölüm gəldikdə onun yanında idiniz? O zaman o, öz oğullarına dedi: “Məndən sonra nəyə ibadət edəcəksiniz?” Onlar**

**dedilər: “Sənin İlahına, atalarının – İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!” (Bəqərə surəsi, 130-133)**

Görüldüyü kimi hz. İbrahimin "hənif" dini, yəhudilər, xristianlar və müsəlmanlar arasında ortaq bir dindir. Yəhudilər hz. İbrahimi bütün yəhudilərin peyğəmbəri kimi qəbul edir və hz. İbrahimin yolundan getdiklərini söyləyirlər. Xristianlar da hz. İbrahimin, yəhudilərin olduğu kimi özlərinin də peyğəmbəri olduğunu qəbul edirlər. Hz. İbrahimə iman, ona bəslənilən sevgi və hörmət yəhudilər və xristianlar üçün olduğu kimi, müsəlmanlar üçün də olduqca əhəmiyyətlidir. Rəbbimiz Nisa surəsində belə bildirir:

**Yaxşı işlər görərək Allaha təslim olan və hənif olaraq İbrahim dininin ardınca gedən şəxsdən din baxımından daha gözəl kim ola bilər? Allah İbrahimi dost tutmuşdur. (Nisa surəsi, 125)**

Müsəlmanlar, Rəbbimizin Quranda əmr etdiyi kimi, bütün peyğəmbərlərə endirilənlərə, "aralarında heç bir fərq qoymadan" iman edərlər:

**Deyin: “Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!” (Bəqərə surəsi, 136)**

Ancaq unutmamaq lazımdır ki, Allaha olan şövqlü imanı, dərin sevgisi, Rəbbimizin bütün əmrlərinə könüllü surətdə itaət etməsi, itaətkarlığı və üstün əxlaqıyla bütün iman edənlərə nümunə olan hz. İbrahimə ən yaxın olanlar, şübhəsiz ki, onun əxlaqına sahib olanlar və tövhid inancına sahib olanlardır. Rəbbimiz Quranda belə buyurur:

**Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər və iman gətirənlərdir. Allah möminlərin Himayədarıdır. (Ali İmran surəsi, 68)**

Dolayısilə Allaha könüllü şəkildə iman gətirən xristianlar və yəhudilər də, hz. İbrahim və ona tabe olan saleh möminlər kimi, yalnız Allaha üz tutmalı, hz. İbrahimin göstərdiyi gözəl əxlaqı, səmimiyyəti və imani dərinliyi nümunə götürməlidirlər. Onlar da hz. İbrahimin hənif dininə tabe olan həniflər kimi, Allahın təkliyinə iman edən və Ona heç nəyi şərik

qoşmayan səmimi qullar olmalıdırlar. Lakin indiki vaxtda təslis inancından ötrü xristianlar bundan uzaqlaşıblar. Hz. İsanın Allah Qatına alınmasından sonra yaradılan təslis inancından ötrü yanlış bir yol tutulmuş, tövhid inancı dəyişdirilib fərqli bir inanc yaradılmışdır.

## Təslis inancı yanılması xristianlar üçün nə ifadə edir?

Xristianlıq Fələstində yaşayan yəhudilər arasında yarandı. Hz. İsanın ətrafında toplanmış və ona iman gətirmiş bütün insanların demək olar ki, hamısı yəhudi idi və hz. Musanın şəriətinə görə yaşayırdılar. Yəhudiliyin ən təməl xüsusiyyəti isə, Allaha, Onu tək ilah qəbul edərək iman gətirməkdi.

Lakin sonrakı hissələrdə daha ətraflı şəkildə görəcəyimiz kimi xristianlıq, hz. İsanın Allah Qatına alınmasından və yəhudilərin onun yolundan dönüb bütpərəst aləmə daxil olmasından sonra dəyişməyə başladı. Hz. Musanın şəriətinin təməli olan tövhid inancı böyük dəyişikliyə uğradı. Hz. İsa təslis inancından ötrü ilah kimi görülməyə başlandı (Allahı, bu başlıq boyunca təslis inancını bildirmək üçün işlədəcəyimiz bütün batil ifadələrdən tənzih edirik).

"Təslis" inancı bu müddətin sonunda yarandı. Bu anlayış, "Ata, Oğul və Müqəddəs Ruh"dan ibarət üçlü Allah inancı mənasında işlədilir. Təslis, ənənəvi xristianlığın ən əhəmiyyətli iman şərtlərindəndir. Sonsuz güc və qüdrət sahibi olan Rəbbimizə, Onu tək ilah qəbul edib iman etməyi əsas götürən tövhid inancına tamamilə zidd olan bu yanlış inancı, aşağıdakı maddələr halında xarakterizə etmək mümkündür:

- Təslis inancına görə Allah, "üç üqnum" anlayışıyla Özünü üç şəxsiyyət kimi təqdim etmişdir və Ata-Oğul-Müqəddəs Ruh eyni şeydir. Bu inanc bu cümlələrlə yekunlaşdırılır: "Ata, oğul, müqəddəs ruh, tək olan Allahın Özüdür", "Allah; ata, oğul və müqəddəs ruh olaraq mövcuddur"... Ağıl və məntiqlə ziddiyyət təşkil edən bu yanlış inanca görə təslis inancındakı üç şəxsin hər biri Allahdır, dolayısilə eyni güc və səlahiyyətlərə malikdirlər (Allahı tənzih edirik).
- Hz. İsanın guya Allahın oğlu olduğuna inanılar. Bu yanlış inanca görə hz. İsa Allahla eyni kökdən gəlir. Bu inancı homoousios adlandırırlar və "ata ilə oğul eyni kökdən, cövhərdən meydana gəlmişdir" kimi yekunlaşdırırlar.
- Hz. İsanın yaradılmadığına, Allahın oğlu olaraq əzəldən bəri mövcud olduğuna inanılır. Bu yanlış inanca görə hz. İsa insanların nicat tapması üçün göydən enmiş, bədən sahibi olub insan olmuşdur. Bu inanc təcəssüm adlandırılır.

Təslis inancı, sonsuz güc və qüdrət sahibi olan Rəbbimizə yanlış dünyagörüşüylə baxan, Allahın insanlara peyğəmbər kimi göndərdiyi hz. İsanı ilah qəbul edən yanlış inancdır. Lakin öz daxilində bir çox ziddiyyət olmasına və tövhid inancına tamamilə əks olmasına baxmayaraq, xristianların inanclarında çox əhəmiyyətli yerə malikdir. Bundan ötrü

də, təslis inancına, yəni hz. İsanın Allahın oğlu olduğuna inanmayan bir insan, təslis inancını müdafiə edənlər tərəfindən həqiqi xristian qəbul edilməz.

Maraqlı bir xüsus isə, tarix boyunca təslis inancına qarşı çıxıb, hz. İsanın yalnız Allahın peyğəmbəri olan bir insan olduğunu müdafiə edən müxtəlif insanların və cəmiyyətlərin güclü təzyiqlərə məruz qalmış olmalarıdır. Bu insanların İncildən və hz. İsanın həyatından gətirdikləri dəlillər həmişə görməzlikdən gəlinmiş və insanlara bu mövzular barəsində danışmaq qadağan edilmişdir. Sonrakı hissələrdə daha ətraflı şəkildə araşdıracağımız tövhid inancı sahibləri, hz. İsanın Allahın oğlu olduğunu söyləyənlərə kəskin şəkildə qarşı çıxmış, bunun açıq şəkildə "Allaha şirk qoşmaq" olduğunu söyləmişdirlər. Bundan ötrü də, əsrlər boyunca "kafir", "azğın" və hətta "din düşməni" olaraq tanıdılmış, onlara dəstək verənlər də eyni reaksiyalarla qarşılaşmışdırlar. Bəziləri yurdlarından sürgün edilmiş, bəziləri də inkvizisiya məhkəmələrinin verdiyi hökmə əsasən yandırılaraq öldürülmüş və ya asılmışdırlar. Verilən bu cavablar, təslis inancı əleyhdarlarının sayca artmalarının və fikirlərini yaymalarının qarşısını almayıb. Lakin təslis inancı müdafiəçiləri həmişə çoxluq təşkil ediblər.

Mövzunu bitərəf şəkildə araşdıranlar belə, həqiqi xristianlığın tarix boyunca təzyiqə məruz qalmış hənif (tövhid inancına əsaslanan) xristianlıq dini olduğunu müəyyənləşdirirlər. Xüsusilə də 18-ci əsrdə başlayan bir çox müstəqil Bibliya tədqiqatları nəticəsində, təslis, kəffarə və bənzəri inancların xristianların müqəddəs kitablarında qeyd olunmadığı nəticəsinə gəlinmişdir.

Bu tarixi dəlillərin də təsirindən ötrü, hazırkı vaxtda bəzi xristian məzhəblər təslis inancını rədd edirlər. Məsələn, dünyanın hər yerində kilsələri olan Unitarian Kilsəsi, təslis inancını qəbul etməyən çox böyük xristian camaatıdır. Belə camaatlar (aralarında müxtəlif görüş fərqləri olsa da) hz. İsanın Allahın oğlu olduğunu qəbul etmir, həqiqi xristianlığın Allaha, Onu tək ilah qəbul edərək iman etməyi əmr etdiyini söyləyirlər. Böyük hissəsi də hz. İsanın bütün insanların günahlarına kəffarə olaraq çarmıxa çəkildiyi iddiasının yanlış olduğunu vurğulayırlar. Hazırkı dövrdə təslis inancına qarşı çıxan xristianlarla, müxtəlif adlar altında və müxtəlif kilsə formasiyaları halında qarşılaşmaq mümkündür. Xüsusilə də ABŞ-da "təslis inancı əleyhdarları" hər keçən gün daha da güclənir və xristian aləmində həqiqətləri açıq şəkildə dilə gətirənlərin sayı xeyli artır. Bunlar arasında "The Worldwide Church Of God" xüsusilə diqqət çəkir. Bu kilsənin qurucusu Herbert V. Armstronq (Herbert W. Armstrong), təslis inancının bütpərəst mədəniyyətlərin təsiri nəticəsində ortaya çıxan yanlış inanc olduğunu müdafiə edir.

Digər tərəfdən bəzi xristian kilsələri arasında təslis inancına əks görüşlərin yarandığı, lakin bunların ört-basdır edildiyi də məlum bir həqiqətdir. Məsələn, Şimali Amerikada 19-cu əsrdə yaranan və hz. İsanın qayıtmasının çox yaxın olmasına diqqət çəkən “Yeddinci günün adventistləri” hərəkatı əslində "arianlıq" təməli əsasında qurulmuş və hərəkatın baniləri təslis

inancını rədd etmişdirlər (Arius, kitabın sonrakı hissəsində araşdıracağımız kimi, təslis inancı və hz. İsaya isnad edilən ilahlıq iddiasını rədd edən, 3-cü əsrdə yaşamış mühüm xristian din xadimidir). Lakin digər xristian kilsələrinin "Yeddinci günün adventistləri" məzhəbinə atdıqları "xristianlıqdan azanlar" böhtanı, arianlıq inancının tərk edilməsinə və bunun əvəzinə təslis inancının qəbul edilməsinə gətirib çıxartmışdır. Bu qəribə dəyişiklik, hazırkı dövrdə həmin bu kilsənin mənsubları tərəfindən də qəbul edilir.(1)

Bu mövzuda ən çox diqqət yetirilməli xüsuslardan biri isə, təslis inancına Bibliyanın heç bir yerində rast gəlinə bilməməsidir. Nə yəhudilərin müqəddəs kitabları olan Əhdi-Ətiqdə, nə də xristianların müqəddəs kitabları olan İncildə bu inanc yoxdur. Üç üqnum (təslis inancı) İncildəki bəzi ifadələrin yanlış şərh olunmasına əsaslanır və bu ifadə ilk dəfə 2-ci əsrin sonlarında Antakyalı Teofilos tərəfindən işlədilmiş və xeyli müddət sonrasa qəbul edilmişdir. Bundan ötrü də, Bibliya tədqiqatçıları və təslis inancı əleyhdarları xüsusilə də; "əgər bu inanc həqiqətən doğru olsaydı, hz. İsa bunu tam açıq şəkildə insanlara bildirmiş olmalı deyildimi? Təslis inancı Bibliyada açıq ifadələrlə işlədilməli deyildimi?" sualları üzərində cəmləşirlər. Bu suallara özlərinin verdikləri cavab isə açıqdır: İncildə tam açıq şəkildə bəhs edilməyən, dolayısilə ilk xristianlar tərəfindən bilinməyən bir inanc, xristianlığın təməli ola bilməz. Bu, həm hz. İsadan sonra, həm də kök salmış Yunan mədəniyyətinin təsiri nəticəsində meydana gətirilən yanılmadır.

# Quranda təslis inancı rədd edilir

İncil tam şəkildə araşdırıldıqda, Allahın sonsuz gücünün və qüdrətinin tez-tez vurğulandığı, hz. İsanın insani xüsusiyyətlərə sahib mübarək elçi kimi təsvir edildiyi görülər. Təslis inancını dəstəklədiyi irəli sürülən bir neçə ifadənin isə, bütöv İncillə çox açıq şəkildə ziddiyyət təşkil etdiyi aydın olar. Kitabın sonrakı hissələrində ətraflı şəkildə nəzərdən keçirəcəyimiz bütün bu dəlillər, təslis inancının hz. İsanın Allah Qatına alınmasından xeyli sonra yarandığını tam açıq şəkildə göstərir. Lakin bu hissələrə keçmədən əvvəl təslis inancının, insanların xristianlıq və hz. İsa haqqında ən doğru məlumatı əldə edə biləcəkləri yeganə qaynaq olan Quranda necə xəbər verilməsi üzərində dayanılmalıdır.

Quranda, İncilin Tövratı təsdiqləyici kimi göndərildiyi bildirilir:

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. (Maidə surəsi, 46)**

Hz. İsa özünə vəhy edilən İncil hökmləriylə, təhrif edilmiş Tövratın inanclarını düzəltmişdir. Allahın Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə vəhy etdiyi Quran isə, həm İncili və Tövratı təsdiqləyir, həm də bu iki İlahi kitabın sonradan təhrif edilmiş hissələrini insanlara xəbər verir. Ayədə Quranın "şahid və gözətləyici" olduğu bildirilir:

**Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onlara “bir şahid, gözətləyici” olaraq Kitabı nazil etdik. Elə isə onların arasında Allahın sənə nazil etdiyi Kitabla hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma. Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin başqa-başqa olmanız sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir. (Maidə surəsi, 48)**

Quranın yuxarıdakı ayədə bildirilən xüsusiyyəti çox əhəmiyyətlidir. Quran ayələri İncil və Tövratın Allahdan endirilmiş ilk hallarını təsdiqləməklə yanaşı, eyni zamanda onlar üzərində şahid və gözətləyicidir. Hz. Musaya və hz. İsaya vəhy edildikləri ilk hallarından uzaqlaşan bu İlahi kitablardakı təhrifləri bildirmək, yəhudiləri və xristianları haqq yola dəvət etmək də bu xüsusiyyətin bir təcəllisidir.

Bu mərhələdə xristianlıq dininin yeri çox fərqlidir. Çünki Rəbbimiz Quranda, müsəlmanlara ən yaxın olanların "biz xristianlarıq" deyənlər olduğunu bildirir:

**...“Biz xristianlarıq!” deyənləri isə dostluq baxımından iman gətirənlərə ən yaxın olduğunu görəcəksən. Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər. (Maidə surəsi, 82)**

İslam tarixi boyunca bu ayənin təcəllilləri görülmüşdür. Xristianlarla müsəlmanlar arasındakı yaxın əlaqə, İslamın ilk dövrlərində başlamış, Həbəşistandakı Xristian Krallığın, bütpərəstlərin təzyiqindən qaçan müsəlmanların qorunmasını təmin etməsi bu əlaqəni daha da gücləndirmişdir. İslam torpaqlarında yaşayan xristianlar həmişə tolerant, rahat, ədalətli həyat yaşamışdırlar (ətraflı məlumat üçün baxın: Gəlin Birlik Olaq, Harun Yəhya, araştırma nəşriyyatı, 2003)

Rəbbimiz Quranda İncilin; "hidayət və nur, müttəqilər üçün yol göstərici və öyüd-nəsihət" (Maidə surəsi, 46) və hz. İsa dövründəki insanlar üçün "hidayət" (Ali İmran surəsi, 3-4) kimi göndərildiyini bildirir. Xristianları İncildəki haqqa tabe olmağa dəvət edən bəzi Quran ayələri isə belədir:

**Qoy İncil əhli Allahın onda nazil etdiyi şəriət qanunları əsasında hökm versinlər. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar fasiqlərdir. (Maidə surəsi, 47)**

**De: “Ey Kitab əhli! Nə qədər ki, Tövrata, İncilə və Rəbbinizdən sizə nazil edilənə düzgün əməl etmirsiniz, siz doğru yolda deyilsiniz”... (Maidə surəsi, 68)**

Ayələrdə də görüldüyü kimi İslam dini xristianlara çox mehriban yanaşır, Quranda xristianların əxlaqı təriflənir və onlar daha dindar olmağa dəvət edilirlər. Bir çox Quran ayəsində isə, bizə təslis inancının yanlış olduğu bildirilir. Məsələn, Rəbbimiz Nisa surəsində belə buyurur:

**Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi “Ol!” kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur. Allaha və elçisinə iman gətirin və: “Tanrı üçdür!” deməyin. Buna son qoyun! Bu sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər.**

**Nə İsa Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də Allaha yaxın olan mələklər. Allah Ona ibadət etməyi özlərinə ar bilənlərin və təkəbbürlük göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır. (Nisa surəsi, 171-172)**

Yuxarıdakı ayələrdə görüldüyü kimi Rəbbimiz təslis inancının nə qədər böyük yanılma olduğunu bildirir və bu inancı müdafiə edənləri haqq-hesab günüylə xəbərdar edir.

Ayələrdə hz. İsanın Allah olduğuna dair yanlış inanclar açıq şəkildə rədd edilir (Allahı tənzih edirik.) Rəbbimiz hz. İsaya bu əsassız yaraşdırmanı edənlərin kafir olduqlarını bildirir:

**"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir" deyənlər artıq kafir oldular. Məsih isə demişdir: "Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır". (Maidə surəsi, 72)**

Ayədə də bildirildiyi kimi hz. İsa onların bu yaraşdırmalarından uzaqdır. O, Allahın yaratdığı bir quldur. Rəbbimizə təslim olmuş, böyük əxlaq sahibi, aləmlərdən üstün edilmiş, çox mübarək bir peyğəmbərdir. İnsanlara haqq dindən danışarkən də həmişə Rəbbimizin üstün güc və qüdrətini dilə gətirmiş, özünün də Allahın qulu olduğunu bildirmişdir. Ayədə hz. İsaya ilahlıq isnad edərək kafir olanların, Allahı da lazımınca qiymətləndirmədikləri bildirilmişdir:

**"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir!" deyənlər artıq kafir oldular. De: "Əgər Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanlarını hamısını məhv etmək istəsə, kim Ona bir şeylə mane ola bilər?" Göylərin, yerin və onların arasında olanların mülkü Allaha məxsusdur. Allah istədiyini yaradır. Allah hər şeyə qadirdir. (Maidə surəsi, 17)**

Ayədə bildirildiyi kimi bütün insanlar Rəbbimiz qarşısında aciz və möhtacdırlar. Allah bütün kainatı yoxdan yaradan, bütün varlıqlar üzərində mütləq güc və hakimiyyət sahibi olandır. Canlı-cansız hər şeyə Allah nəzarət edir. Hz. İsa da Allahın yaratdığı və Ona boyun əymiş bir qul və Allahın elçisidir.

Maidə surəsində hz. İsanın özü barədə ortaya atılan əsassız iddiaları rədd etdiyi isə, belə bildirilir:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahı qoyub məni və anamı iki məbud qəbul edin!" demişdin?" İsa deyəcək: "Sən tənzih edirəm! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən! (Maidə surəsi, 116)**

Digər ayələrdə isə hz. İsanın, insanlara verdiyi həqiqi mesaj belə bildirilir:

**(İsa) dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. (Məryəm surəsi, 30-31)**

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim. Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin. Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Ona ibadət edin! Çünki bu, düz yoldur". (Ali İmran surəsi, 50-51)**

Allahın Quran ayələrində bildirdiyi digər bir həqiqət isə peyğəmbərlərin etdikləri təbliğlə əlaqədardır. Ali İmran surəsində belə buyurulur:

**Heç kimin, Allah ona Kitab, hökm və peyğəmbərlik verdikdən sonra insanlara: "Allaha yox, mənə qul olun!" demək (haqqı, səlahiyyəti) yoxdur. Əksinə, o deyər: "Öyrətdiyiniz Kitabın sayəsində din xadimləri olun!" (Ali İmran surəsi, 79)**

Rəbbimiz bu yanlış inanclardan uzaqdır. İxlas surəsində Allahın sifətləri belə bildirilir:

**De: "O Allah Təkdir! Allah Səməddir (əbədi yaşayandır, hər şey Ona möhtacdır, O isə, heç nəyə möhtac deyildir). O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur". (İxlas surəsi, 1-4)**

Həqiqət budur ki, Allah təkdir və hz. İsa Onun qulu və peyğəmbəridir. Eynilə də, hz. İbrahim, hz. Musa, hz. Məhəmməd (s.ə.v) və digər peyğəmbərlər kimi.

Kitabın sonrakı hissələrində təslis inancının bütün yanlış cəhətlərindən, Quran ayələri və xristian qaynaqlarından istifadə edilərək ətraflı şəkildə danışılacaq.

# Təslis inancı hz. İsadan əsrlər sonra yaranmışdır

Xristianlar Əhdi-Cədidə (yəni İncilə) olduğu kimi, Əhdi-Ətiqə də iman edirlər. Dolayısilə xristianların müqəddəs kitabı, həm Əhdi-Cədidi, həm də Əhdi-Ətiqi özündə birləşdirən Bibliyadır. Bu kitablar təhrif edilmiş olmaqla yanaşı, xristianlıq dininin tələblərini, bir xristianın ömrü boyunca yerinə yetirməli olduğu əmrləri və pozmamalı olduğu qadağaları, göstərməli olduğu gözəl əxlaq xüsusiyyətlərini Bibliyada tapmaq mümkündür. Lakin "təslis" inancını, bu və buna bənzər bir sözü tapmaqsa qeyri-mümkündür. Yeni Katolik Ensiklopediyası (The New Catholic Encyclopedia) da təslis inancının ilk xristianlara naməlum olduğunu və ancaq 4-cü əsrdə bu halına gətirildiyini bildirir:

İyirminci əsrin yaşadığımız bu ikinci yarısında "təslis" sirrinin açıq, obyektiv, tam düzgün, eləcə də, teoloji izahını vermək həqiqətən çox çətindir. Roma katolisizmi və xristianlığın müxtəlif qollarının apardığı təslis mübahisəsi, ortaya xəyali görünüşdən başqa heç nə qoymur. İki şey baş verdi: Birincisi, aralarında getdikcə artan sayda Roma katoliklərinin də olduğu İncil şərhçisi, bu mövzuda mühüm səlahiyyətə sahib olmadan insanların Əhdi-Cədiddəki təslis anlayışından bəhs etməməli olduqlarını qəbul etdi, ikincisi isə, tarixçi və xristian teoloqların, təslis inancından bəhs edən birinin ancaq hz. İsadan sonrakı dördüncü əsrin son rübündə yaşamış ola biləcəyi etirafı. Həqiqətən də “üç şəxsiyyətli ilah” inancı, xristian inanc və düşüncəsinə dördüncü əsrin son rübündə daxil olmuşdur".(2)

Təslis inancı 4-cü əsrdə kilsənin gündəminə gəlmiş, lakin bu dövrədək onu müdafiə edənlərlə tövhid inancına sahib xristianlar arasında çox uzunmüddətli mübahisələr yaşanmışdır. Bu mübahisələrin pik nöqtəsi isə, çağırılan “Birinci İznik Kilsə Məclisi” oldu.

325-ci ildə çağırılan Birinci İznik Kilsə Məclisi, o dövrə qədər xristian kilsəsi tərəfindən təşkil edilən ən böyük yığıncaq idi. Romadan, Anadoludan, Suriyadan, Finikiyadan, Fələstindən və Misirdən 300-dən artıq din xadimini bir yerə toplayan məclis, Roma İmperatoru I Konstantinin çağırışından ötrü toplandı. Konstantinin məqsədi, imperatorluğunun gələcəyi və təhlükəsizliyi baxımından bu mübahisələrə son qoymaqdı. Bu məclisdə, xristianlığın təməlini meydana gətirən inanc, "imperatorluğun təhlükəsizliyi üçün", "insanların verəcəkləri bir qərara görə" müəyyənləşdiriləcəkdi. Nissalı Qriqori (Saint Gregory of Nyssa), bu məclis əsnasında xristianlar arasında yaşanan mübahisələri belə təsvir edir (Allahı bu sitatda işlədilən ifadələrdən tənzih edirik):

Konstantinopolun hər yerini onların mübahisələri bürümüşdü: küçələr, bazarlar, sərrafların dükanları və sair. Bir əsnafdan dükanındakı bəzi əşyalar üçün neçə gümüş sikkə istədiyini soruşun. Sizə yaradılmış və yaradılmamış varlıq haqqında ətraflı araşdırma ilə cavab verəcək. Bu gün bir çörək bişirəndən çörəyin qiymətini soruşduğunuz vaxt: "Oğul

atanın əmrinə tabedir" cavabını alarsınız. Vanna otağınızı yuyunmağınız üçün hazır vəziyyətə gətirən xidmətçiyə vanna otağınızın hazır olub olmadığını soruşun. Cavabı: "Oğul yoxluqdan yaranmışdır" olacaq... Katoliklər: "Özünə tək övlad gətirən Ucadır" dedilər, arianlar isə: "Yaradan, hər şeydən ulu olandır" dedi.(3)

Konstantin imperiya torpaqlarında yaşayan xristianlara geniş inanc və ibadət azadlığı vermişdi, amma özü xristian deyildi. Romanın ənənəvi bütpərəst inanclarını qorumağa davam edirdi. O, mənfəətlərini qoruyan bir dövlət başçısı idi və istədiyi, sərhədləri daxilində yaşayan bütün dinlərlə, xüsusilə də Günəşə tapınmağa əsaslanan batil "Məğlubedilməz Günəş" (lat. Sol Invictus) dininin xristianlıqla uzlaşmasını, hətta qaynaşmasını təmin etməkdi. Konstantin, tam bu qaynaşmanı təmin etməyə çalışdığı əsnada xristianların öz aralarında teoloji mübahisəyə girmələrindən çox narahat olmuş və qeyd olunan məclisi çağıraraq, imperatorluq sərhədlərindəki bütün sözü keçən rahibləri İznikə dəvət etmişdi. İznikdə iki qrup yaranmışdı. Bunlardan birincisi, hz. İsanın Allahın yer üzündəki bədən sahibi olmuş halı olduğuna dair batil təcəssüm inancına sahib olan qrup idi (Allahı tənzih edirik). Bu qrupun lideri İskəndəriyə yepiskopu Afanasi (Athanasius) idi. Afanasinin qarşısında isə, tanınmış Misirli rahib Arius dayanırdı.

Liviya mənşəli Misirli bir ailənin oğlu olan Arius, dövrün əhəmiyyətli şəhəri olan İskəndəriyədə böyümüş və 312-ci ildə də kilsəyə qoşularaq rahib olmuşdu. Arius, Allahın təkliyinə iman etmiş və o vaxtlar Roma kilsəsi tərəfindən qəbul edilmiş və hz. İsanı guya tanrı hesab edən təlimin yanlış olduğu barədə vəz vermişdi. Arius hz. İsa üçün işlədilən "Allahın Oğlu" sifətinin tamamilə məcazi anlayış olduğunu və onu ilahlaşdırmaq mənasını daşımadığını söyləyirdi. Bunu sübut etmək üçün Matta İncilindəki: "Böyük xoşbəxtlik sülhü təmin edənlərədir! Onlara Tanrı oğulları deyiləcək" (Matta, 5/9) ayəsini göstərir və bu sifətin Allahın istəklərinə uyğun davranan hər kəsə aid olduğunu, bunun hz. İsa üçün işlədilmiş xüsusi ifadə olmadığını vurğulayırdı. Arius bir əsərində: "Əslində biz də Tanrının oğulları ola bilərik" deyə yazmışdı.(4) Bu düşüncəsini dəstəkləmək üçün hz. İsanın İncildə qeyd olunan və "Tanrım" deyə başlayan dualarını nümunə göstərirdi. Bu duaların hz. İsanın Allaha bağlı və digər insanlar kimi aciz bir qul olduğunu göstərdiyini söyləyirdi. Arius hz. İsanın Əhdi-Cədiddə özündən tez-tez "insan övladı" deyə bəhs etməsinə də diqqət çəkir və bunun hz. İsanın insan olduğunu göstərdiyini vurğulayırdı.

Arius, İskəndəriyənin bir mahalı olan Banealisin rəsmi rahibi olaraq bu düşüncələrini geniş kütləyə çatdırdı. Onu dinləyən xalq, həm söylədiklərinin tutarlı və inandırıcı olması, həm də təvazökar olub, göstərişdən uzaq olmasından ötrü fikirlərini rahatlıqla qəbul etdi. Lakin İskəndəriyə yepiskopu Aleksandr (Alexander) "arianlıq" cərəyanından çox narahat oldu. Aleksandr, hz. İsanı məcazi deyil, "həqiqi mənada Allahın Oğlu" hesab edən, yəni ilah qəbul edən Roma kilsəsinə bağlı idi (Allahı tənzih edirik). Əvvəlcə Ariusu fikirlərini dəyişdirməsi üçün razılığa gətirməyə çalışdı. Bunu bacara bilməyincə də arianlığa qarşı kəskin hücum başlatdı. Bunu öz yazılarında belə qeyd edirdi:

Bu cərəyan getdikcə hər yerə, bütün Misirə, Liviyaya və Yuxarı Tebenə yayıldı. Bundan sonra biz də, Misir və Liviyanın yepiskoplarıyla bir yerə toplandıq və təxminən yüz insandan ibarət məclisdə bu cərəyanı və bütün ardıcıllllarını lənətlədik.(5)

Arius və ardıcılları təkcə lənətlənmədilər, eyni zamanda 318-ci ildə kilsədən qovuldular. Arius və onun ən yaxın köməkçiləri olan yepiskop Fiona (Theonas) və Sekundla (Secundus) on iki rahib sürgün edildi. Arius sürgün olunmadan əvvəl düşüncələrini Taliya adlı lirik bir kitabda topladı. Sürgün olunma yeri isə Fələstin idi.

Lakin Arius bu bölgədə də özünə yeni tərəfdaşlar tapdı. Beləliklə də, Roma kilsəsinin bəzi inanclarına kəskin şəkildə qarşı çıxan bir cərəyan, hər cür maneəyə baxmayaraq, yayılmağa davam etdi. Bu xəbər Roma kilsəsini himayəsi altına almış imperator Konstantinə çatdıqda, o ciddi bir problemlə üzləşdiyini gördü. Romada dini həmrəylik yaratmağa çalışmış, bu məqsədlə də kilsəni qanadlarının altına almışdı. Lakin kilsə öz daxilində parçalanmaq təhlükəsiylə üzləşmişdi. Bundan ötrü də, heç vaxt itirmədən bu problemi həll etməyə və birliyi yenidən təmin etməyə qərar verdi.

Xristian tarixinin ən əhəmiyyətli dönüş nöqtələrindən biri olan Birinci İznik Kilsə Məclisi bu məqsədlə çağırıldı.

## Birinci İznik Kilsə Məclisi

İmperator Konstantin, arianlıqla onun müxalifləri arasındakı qarşıdurmanı əvvəlcə hər iki tərəfə məktublar göndərərək və "birliyin hər şeydən daha əhəmiyyətli" olduğunu qeyd edərək aradan qaldırmağa çalışmışdı. Lakin bu cür cəhdlərin fayda vermədiyini gördükdə, yepiskop Osiyin (Hosius) məsləhəti əsasında, böyük "Dünya Kilsə Məclisi" və ya digər adıyla "Kilsə Məclisi" çağırmağa qərar verdi. İznikdə çağırılan bu məclisdə, bu günə qədər gəlib çatacaq təslis inancı müəyyənləşdirildi. Bu inancı qəbul etməyənlərsə "azğın" elan edildilər.

"Demokratik" bir forum kimi göstərilməyə çalışılan Birinci İznik Kilsə Məclisində əslində imperator Konstantinin böyük üstünlüyü vardı və çıxan qərar da onun dəstəklədiyi tərəfin lehinə oldu. Konstantinin tutduğu tərəfsə, öz himayəsi altına daxil olmuş Roma kilsəsi idi. Məclisdə iştirak edən üç yüzdən artıq rahib arasında yalnız iyirmisi Ariusa yaxın adlardan təşkil olunurdu. Bunda Konstantinin əvvəlcə Ankarada çağırılması planlaşdırılan məclisi, daha şimal-qərbdə yerləşən İznikdə çağırmasının və beləliklə də, arianlığın öz təsirini göstərdiyi Şərq kilsələrinə bağlı rahiblərin məclisdə iştirak etmələrini çətinləşdirməsinin də rolu vardı.(6) İznikin digər bir xüsusiyyəti isə, imperatorun burada yay aylarında qaldığı bir sarayının olması və məclis çağırılan vaxtı şəhərdə olması idi. Bundan ötrü də, imperator, məclisin bütün yığıncaqlarında iştirak etdi və onun nüfuzu da normal olaraq alınan qərarlarda əks olundu.

Hz. İsanın ilahlaşdırılmasının o vaxtadək bağlanmış ən açıq və ən konkret ifadəsi olan İznik andında belə deyilirdi (Allahı aşağıda işlədilən bütün ifadələrdən tənzih edirik):

İnanırıq ki... Rəbb İsa Məsih, Tanrının Oğludur, Ata Tanrıdan meydana gəlmişdir, Ata Tanrı ilə eyni kökdəndir. Tanrıdan Tanrıdır, İşıqdan İşıqdır. Tanrıyla eyni kökdən olub Tanrıdan meydana gəlmişdir, yaradılmamışdır. Onun (hz. İsanın) vasitəsilə göylərdə və yerdə mövcud olan hər şey yaradılmışdır. O, biz insanlar üçün və nicat tapmağımız üçün yer üzünə enmiş və bədən sahibi olmuş və insana çevrilmişdir. Əzab çəkmiş, üçüncü gündə dirilmiş və göyə yüksəlmişdir. Eləcə də, ölüləri və diriləri mühakimə etmək üçün yenidən gələcəkdir və inanırıq ki, Müqəddəs Ruh (da Tanrıdandır).

Eləcə də, kim: "Tanrının Oğlunun olmadığı bir vaxt vardı", "yaranmadan əvvəl yoxdu", "əvvəllər mövcud olmayan şeylər yaradıldı", "Atanın kökündən gəlmir", "yaradılmışdır" və ya "çevrilə bilər" kimi sözlərdən hər hansı birini işlətsə, katolik kilsəsi bütün bu sözləri söyləyənləri lənətləyər.(7)

Görüldüyü kimi, ilk abzasda arianların qarşı çıxdığı təlim təsdiq edilirdi. İkinci abzasda isə, hədəf alınan və özünü katolik (universal) kilsə adlandıran Roma kilsəsi tərəfindən lənətlənən insanlar isə, hz. İsanın Allahın elçisi və yaratdığı bir qul olduğunu söyləyən insanlardı, yəni arianlar və bu düşüncəyə sahib olan digərləri.

İznik andı, elan olunduğu tarixdən sonra xristian inancının təməlinə çevrildi və bu andı pozan hər kəs azğın sayıldı. Roma katolik kilsəsi "Tanrının əmrinin bu məclisdə təcəlli etdiyini" elan etdi, dolayısilə İznik andı da, sanki bir vəhy kimi müqəddəs və xətasız bir mətn sayıldı. Halbuki təcəlli edən əmr əslində Roma imperatorluğunun əmri idi.

Arianlara isə məclisdən sonra daha böyük təzyiq göstərilməyə başlandı. İznik Şurasında imza atmağı rədd edən Arius tərəfdarları aforoz edildilər. Lakin yenə də, təxminən yarım əsr müddətində müqavimət göstərməyə davam etdilər. Ancaq kilsənin fasiləsiz təzyiqləri qarşısında 4-cü əsrin sonlarına doğru yavaş-yavaş tarix səhnəsindən geri çəkildilər. Lakin təslis inancının kilsə tərəfindən rəsmi şəkildə qəbul edilməsi belə, ixtilaflara son qoymadı. Yeni məclislər çağırıldı, yeni görüşlər ortaya atıldı, mübahisələr yaşandı. Amma bütün mübahisələrə baxmayaraq, "üçdə bir, birdə üç" şəklində ifadə edilən batil inanc həmişə qorunub saxlanıldı (bu batil inanc, Allahın üç fərqli şəxsiyyətə sahib olması və bu üç şəxsiyyətin də bərabər, sonsuz və müştərək dəyərə malik olmaları mənasını daşıyırdı). Konstantinin dövründə həm İznik andı kimi inanclar yaradıldı, həm də bu gün əlimizdə olan Əhdi-Cədid son halını aldı. Bu gün əlimizdəki heç bir Əhdi-Cədid nüsxəsi Konstantinin dövründən əvvələ aid deyil.(8)

Birinci İznik Kilsə Məclisindən keçən yarım əsr ərzində Afanasi, İznik üsulunu müdafiə etdi və getdikcə daha da inkişaf etdirdi. Çünki Birinci İznik Kilsə Məclisi çağırılanda, təslis inancı hələ də son halını almamış, yalnız təməli yaradılmışdı. Təslis inancının üçüncü ünsürü olan müqəddəs ruh mövzusu naməlum buraxılmışdı. 4-cü əsrdə İstanbul patriarxı

Makedoniasın (Makedonius) başçılığı altında ikinci beynəlxalq məclis İstanbulda çağırıldı və "müqəddəs ruhun təslis inancının üçüncü hissəsi olduğu, üçünün də Allahlıq sifəti baxımından eyni səviyyədə olduğu" elan edildi (Allahı tənzih edirik).(9) Beləliklə də, təslis inancı hz. İsanın Allah Qatına alınmasından təxminən 4 əsr sonra son halını aldı. Bu məclisdə Bibliyada olmayan daha bir inanc olan, homoousios inancı ortaya atıldı. Bu sözlə, təslisi meydana gətirən üç şəxsiyyətin də eyni cövhərə və bərabər səlahiyyətlərə sahib olduqları ifadə edilirdi (Allahı tənzih edirik).

Bu məqamda vurğulanmalı digər bir əhəmiyyətli məsələ isə, təslis inancının insanlara göstərilmə formasıdır. Xristianlar arasında təslis inancı ümumiyyətlə "başa düşülməsi çətin, qavranması qeyri-mümkün, lakin mütləq qəbul edilməli" bir inanc kimi görülür. Bunun səbəbi təslis inancını müdafiə edənlərin eyni zamanda tövhid inancını qəbul etdiklərini də söyləmələridir. Halbuki təslis inancı ilə tövhid inancının bir yerdə ola bilməyəcəkləri aydındır. İnsanların beynində yaranan sual işarələrini ağlabatan və aydın şəkildə cavablandırmaları heç vaxt mümkün olmamışdır. Bunu edə bilmələri də, qeyri-mümkündür. Bundan ötrü də, təslis inancının iman məsələsi olduğunu, üzərində düşünmək və ya anlamaq lazım olmadığını, yalnız olduğu kimi inanılmalı bir inanc olduğunu müdafiə edirlər.(10) Bu vəziyyət əsrlərdir ki, təslis inancının yanlışlığı və ziddiyyətləri haqqında danışılmasının qarşısını alır. Yekunlaşdırmaq lazımdırsa, təslis inancı, barəsində danışmağın və müzakirə aparmağın qadağan edildiyi bir inancdır.

Hz. İsanın Allah qatına alınmasıyla, Kalkedon kilsə məclisində təslis inancının hazırkı halıyla ortaya çıxması arasında gedən proses, hazırda bir çox tədqiqatçı tərəfindən: "Allahın elçisi olan hz. İsanın ilahlaşdırılması" prosesi kimi xarakterizə olunur. Bu proses müəyyən mərhələlərdən keçmiş, ən sonunda isə, hz. İsanın özünün də bir ilah olduğu istiqamətindəki yanlış bir inanc formasını almışdır (Allahı tənzih edirik). Sonrakı hissələrdə bu mövzu ətraflı şəkildə araşdırılacaq.

# Hz. İsa Allahın oğlu deyil, Allahın peyğəmbəridir

Tövhid inancını insanlara təbliğ etmiş bütün peyğəmbərlər, üstün əxlaqları və səmimi imanlarıyla tanınan çox mübarək insanlardır. Allah Nəhl surəsində elçilərinə yaşadıqları cəmiyyətdə tövhid inancını təbliğ etmək vəzifəsini verdiyini belə bildirir:

**Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun" deyə, elçi göndərdik... (Nəhl surəsi, 36)**

Lakin peyğəmbərlərdən sonra tövhid inancı zamanla insanlar tərəfindən təhrif edilərək dəyişdirilmişdir. Hər təhrif və dəyişdirmə nəticəsində Allah cəmiyyətlərə ayələrini oxuyacaq və onları axirət günü barədə xəbərdar edəcək yeni bir elçi göndərmiş, insanları yenidən tövhid inancında birləşdirmişdir. Hz. İsa da hz. Musanın gətirdiyi vəhyin təhrif edilməsindən sonra, insanları tövhid inancına çağırmaq, Ondan başqa ilah olmadığını təbliğ etmək üçün göndərilmişdir. O, hz. Musanın gətirdiyi haqq dini təhrif edib pozan İsrailoğullarını, mövhumatçı ənənələrindən uzaqlaşıb, batil inanclarını tərk etməyə və yalnız Allaha təslim olmağa çağırmışdır. Ayələrdə hz. İsanın İsrailoğullarına təbliği belə bildirilir:

**İsa aydın dəlillərlə gəldiyi zaman dedi: "Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur düz yol!" (Zuxruf surəsi, 63-64)**

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim. Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin. Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Ona ibadət edin! Çünki bu, düz yoldur". (Ali İmran surəsi, 50-51)**

Hz. İsa təbliğ vəzifəsini yerinə yetirməyə başladığı vaxt, hz. Musanın hökmlərindən uzaqlaşan yəhudi din liderləri öz şərhləriylə, yeni haram və halallar ortaya çıxartmış, formal və fanatik bir din meydana gətirmişdilər. Belə ki, Allahın elçisi hz. İsa insanları iman etməyə və batil ənənələrini tərk etməyə çağırdıqda, ona lağ xarakterli sözlərlə və düşməncəsinə münasibətlə cavab verdilər:

**Məryəm oğlu örnək göstərilincə sənin xalqın dərhal onun barəsində (keflə) danışıb qəhqəhələr çəkdi. Onlar dedilər: “Bizim məbudlarımız yaxşıdır, yoxsa o?” Onlar bunu yalnız höcət etmək üçün dedilər. Doğrusu, onlar höcətləşən və düşmən bir xalqdır. (Zuxruf surəsi, 57-58)**

Lakin çoxalan maneələrə baxmayaraq, xüsusilə də kasıb camaat arasında hz. İsaya inananların sayı sürətlə artmışdır. Hz. İsaya və təbliğinə mane olmaq üçün Roma imperatorluğunun zalım rəhbərləriylə bəzi yəhudi din xadimləri tələ qurmuş və ən sonunda isə, hz. İsanı çarmıxa çəkərək öldürməyə qərar vermişdirlər. Rəbbimizin onların bu təşəbbüslərinə verdiyi qarşılıq isə, Quranda belə bildirilir:

**Onlar (imansızlar) hiylə qurdular, Allah da (buna qarşı bir) hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali İmran surəsi, 54)**

Rəbbimiz hz. İbrahimi oddan xilas etdiyi kimi hz. İsanı da düşmənlərinin tələsindən xilas etmişdir. Onu öldürmək istəyənlərin gizli tələlərini pozmuş və bu müqəddəs insana zərər vermələrinin qarşısını almışdır. Ayələrdə bu həqiqət belə bildirilir:

**Bir də: “Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!” dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onu qətiyyən öldürmədilər. (Nisa surəsi, 157)**

Ayələrdə bildirilən həqiqət çox aydındır. Yəhudilərin təhriki ilə hz. İsanı öldürməyə çalışanlar bunda müvəffəqiyyət qazanmamışdırlar. Quranın digər ayələrində də bildirildiyi kimi hz. İsa ölməmişdir və Allah Qatında diridir. Allahın Quranda hz. İsaya qurulan tələlərin pozulduğunu bildirmiş olması da, hz. İsanın Allah Qatında diri olduğunun əhəmiyyətli dəlillərindən biridir. Qurulan tələ hz. İsanı öldürməkdi, Rəbbimiz isə, bu tələni pozmuşdur. Hz. İsanı öldürdüklərini iddia edənlərin bu mövzudakı iddiaları yalnız zənndən ibarətdir. Onlar hz. İsanı çarmıxa çəkdiklərini zənn etdikləri vaxt, əslində başqa bir insanı çarmıxa çəkmişdirlər. (Hz. İsanın həyatı və Allah Qatına alınmasıyla əlaqədar ətraflı məlumat üçün baxın: Hz. İsa Ölmədi, Harun Yəhya, mart 2004)

Lakin hz. İsanın Allah Qatına alınmasından sonra xristianlıq zamanla təslis inancıyla təhrif olunmuşdur. Hz. İsanın gətirdiyi hənif dinin xüsusiyyətlərini, onun dünyada olduğu

müddətcə yaşadıqlarının bir hissəsini və Allah Qatına alınmasını, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) vasitəsilə bütün insanlara göndərilən və qiyamətə qədər etibarlı olan Qurandan öyrənə bilərik. Unudulmamalıdır ki, Quran, içindəki sözlərin dəyişdirilməsinin (Allahın diləməsi istisna olmaqla) qeyri-mümkün olduğu haqq kitabdır. Allah Quranın bu xüsusiyyətini; “Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Biləndir" (Ənam surəsi, 115) ayəsiylə bildirir.

Quranda hz. İsanın Allahın oğlu deyil, (Allahı tənzih edirik) Allahın peyğəmbəri olmasıyla əlaqədar bir çox açıqlama mövcuddur. Bu açıqlamalardan bəziləri belədir:

## Uca Rəbbimiz Özünə övlad götürməmişdir

Təslis inancının ən təməl məntiqi hz. İsanın "Allahın oğlu" olduğu iddiasıdır. Allahın sifətləri onların bu iddialarını tamamilə qüvvədən salır. Aləmlərin Rəbbi olan Allah insanların cahilcəsinə ortaya atdıqları bu cür bənzətmələrdən çox uzaqdır, O hər cür nöqsan və çatışmazlıqdan da uzaqdır. Quran ayələrində bu həqiqət belə bildirilir:

**Allaha övlad götürmək yaraşmaz. O ucadır! O, bir işin olmasını istədikdə ona ancaq “Ol!” deyər, o da dərhal olar. (Məryəm surəsi, 35)**

**Onlar: “Allah Özünə övlad götürmüşdür!” dedilər. O bundan uzaqdır! O, heç nəyə möhtac deyildir. Göylərdə və yerdə nə varsa, Onundur. Buna aid sizdə heç bir dəlil yoxdur. Niyə Allaha qarşı bilmədiklərinizi söyləyirsiniz? (Yunis surəsi, 68)**

Rəbbimizin bir şeyi yaratması üçün ona "ol" deməsi kifayətdir. Göylərdə və yerdə nə varsa hamısı Onundur. Bütün varlıqlar Onun mülkü, Onun yaratdıqlarıdır. Hər şey Onun əmrinə boyun əymişdir, Onun sonsuz güc və qüdrətinə təslim olmuşdur:

**...Halbuki göylərdə və yerdə olan hər bir şey istər-istəməz Ona təslim olmuşdur... (Ali İmran surəsi, 83)**

Allah heç bir səbəbdən asılı deyil, çünki baş verən bütün hadisələri və bu hadisələrin baş vermə səbəblərini də yaradan Özüdür. Dünyadakı hər şey müəyyən səbəblər əsasında baş verir. Doğum, böyümə, öyrənmə və ya yaşlanma, zaman, məkan kimi müəyyən səbəblər əsasında baş verər. İnsanlar zamandan və məkandan asılı yaşayırlar. Halbuki Rəbbimiz

zamandan və məkandan asılı deyil, zamanı da, məkanı da Özü yaratmışdır. Atalıq, oğulluq, övlad sahibi olmaq kimi insana məxsus xüsusiyyətləri də Rəbbimiz yaratmışdır. Dolayısilə "Allahın övladı var" (Allahı tənzih edirik) deyənlər Rəbbimizin bənzərsiz sifətlərini unudaraq öz məhdud anlayışları istiqamətində düşünürlər. Halbuki bu söylədikləri Allah Qatında çox böyük yalandır. Kəhf surəsində belə bildirilir:

**Kitabı (Quranı) həm də: "Allah Özünə övlad götürmüşdür!" deyənləri qorxutmaq üçün nazil etdi. Bu haqda nə onların, nə də atalarının heç bir biliyi yoxdur. Ağızlarından çıxan söz necə də ağırdır. Onlar yalandan başqa bir şey danışmırlar. (Kəhf surəsi, 4-5)**

Rəbbimiz digər bir ayədə isə: "Allah övlad götürmək istəsəydi, xəlq etdiklərindən hər hansı birini seçərdi. O, Ucadır. O, Tək olan, Qəhhar olan Allahdır" (Zumər surəsi, 4) deyə buyurur. Bu ayə ilə sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin hər şeyi istədiyi şəkildə yarada biləcəyi bildirilir. Allahın təslis inancını müdafiə edən və əsassız yaraşdırmalar edən insanlara verdiyi cavab, digər ayələrdə belə vurğulanır:

**Onlar dedilər: "Allah Özünə övlad götürmüşdür!" Halbuki O, bundan (bu yaraşdırman) uzaqdır! Həqiqətən, göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Hər şey Ona könüllü surətdə baş əyir. Göyləri və yeri (nümunəsiz olaraq) yaradan Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" deyər, o da olar. (Bəqərə surəsi, 116-117)**

**Kafirlər: "Mərhəmətli Allah özünə övlad götürmüşdür!" dedilər. Siz olduqca çirkin cəsarət göstərdiniz. Bundan az qaldı göylər parçalansın, yer yarılsın və dağlar yerindən qopub uçsun - Mərhəmətli Allaha övlad isnad etdiklərinə görə. Mərhəmətli Allaha özünə övlad götürmək yaraşmaz. Göylərdə və yerdə olanların hamısı Mərhəmətli Allahın hüzuruna ancaq bir qul kimi gələcək. Allah onları əhatə etmiş və bir-bir saymışdır. Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. (Məryəm surəsi, 88-95)**

Ayələrdə də ifadə edildiyi kimi bu yaraşdırma "çox çirkin cəsarətdir". Göylərdə və yerdə olan hər şeyin sahibi olan Rəbbimiz bu yaraşdırmalardan uzaqdır.

Təslis inancını müdafiə edənlər hz. İsanın Allahla eyni səlahiyyətlərə sahib olduğu istiqamətində çox yanlış bir açıqlama da verirlər. Halbuki Rəbbimiz Quranda bildirilən; "...Ona mülkündə şərik yoxdur, O hər şeyi yaratmış, nizam və müəyyən ölçüylə meydana gətirmişdir" (Furqan surəsi, 2) ayəsiylə bu iddiaların əsassızlığını çatdırır. Çünki O, bütün

kainatın mütləq hakimidir, Onun heç bir şəriyə və yaköməkçiyə ehtiyacı yoxdur. İsra surəsində belə bildirilir:

**De: "Tərif (Həmd), Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, aciz qalmamaqdan ötrü Özünə kömək edəcək heç bir dosta möhtac olmayan Allaha məxsusdur!" və Onu təkbir etdikcə, təkbir et. (İsra surəsi, 111)**

Allah Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə, bu iddia ilə ortaya çıxan insanlara belə söyləməsini vəhy etmişdir:

**De: "Əgər Mərhəmətli Allahın övladı olsaydı, ona ilk ibadət edən mən olardım". (Zuxruf surəsi, 81)**

Ayədə verilən bu cavab təslis inancının müdafiəçilərinə böyük yanılma içində olduqlarını göstərir. Yuxarıdakı ayənin davamında isə, Allah belə bildirir:

**Göylərin və yerin Rəbbi, Ərşin Rəbbi olan Allah, onların Ona aid etdikləri sifətlərdən uzaqdır! Onları burax, qoy vəd olunduqları günə qovuşanadək dalsınlar və bir müddət əylənsinlər. Göydə də məbud, yerdə də məbud yalnız Odur. O, hökm və hikmət sahibidir, Biləndir. (Zuxruf Surəsi, 82-84)**

Ayənin açıq ifadəsindən aydın olduğu kimi Allah bu çirkin iddiaları ortaya atan insanların Özünü (yəni Allahı) lazımınca qiymətləndirməkdən məhrum olmalarına diqqət çəkir. Onları, axirətin varlığından xəbərsiz qəflətə qapılıb əylənən insanlar kimi tanıtmışdır.

## Göydə və yerdə nə varsa Allahındır, bütün varlıqlar Ona möhtacdır

Daha əvvəl də bildirdiyimiz kimi, təslis inancında hz. İsa yaradılmamış və Allahla bərabər səlahiyyətlərə malik bir güc kimi təsvir edilir (Allahı tənzih edirik). Halbuki bu yanlış düşüncə tərzi, Rəbbimizin peyğəmbərlərə vəhy etdiyi tövhid inancına tamamilə zidd olan çirkin bir böhtandır. Bəqərə surəsində belə bildirilir:

**Allah, Ondan başqa İlah yoxdur, əbədi Yaşayandır, Qaimdir. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında**

**kim şəfaət edə bilər? O, onların gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, çox Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

Rəbbimiz yeganə haqq və hökm sahibidir. Bütün kainat, göylərdə və yerdə olan canlı-cansız hər şey - bütün insanlar, heyvanlar, bitkilər, əşyalar Allaha məxsusdur. Hamısını yaradan aləmlərin Rəbbi olan Allahdır. Hər şey Onun əmri ilə hərəkət edər və o istədiyi müddətcə mövcudluğunu davam etdirə bilər. Bütün canlı varlıqları bəsləyən, onlara göydən və yerdən ruzi verən, yeri yaşıllaşdıran, gecəni qaraldan, Günəşi parlaq işıq edən, fəsilləri yaradan Allahdır. Dünyanın yaradılmasından etibarən yaşamış bütün insanları yaradan da Allahdır. İstisnasız hər insan varlığını Allaha borcludur və tamamilə Ona möhtacdır. Allahın seçib insanların Özünə iman etmələri üçün elçilik vəzifəsini verdiyi peyğəmbərləri də Allahın yaratdığı qullardır. Bütün peyğəmbərlər Onun əmri ilə hərəkət edən mübarək insanlardır. Hz. İsa da eynilə bu elçilər kimi Allahın yaratdığı bir quldur. Seçilmiş, şərəfli və hörmətli etdiyi (Ali İmran surəsi, 45) dəyərli bir elçisidir. Necə ki, Allah hz. İsa üçün belə buyurur:

**Nə İsa Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də Allaha yaxın olan mələklər. Allah Ona ibadət etməyi özlərinə ar bilənlərin və təkəbbürlük göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır. (Nisa surəsi, 172)**

Ayədə də bildirildiyi kimi hz. İsa Allaha qulluq vəzifəsini yerinə yetirməkdən böyük həzz alan, Rəbbimizə təslim olmuş çox səmimi bir insandır. Onun guya ilahlıq iddia etdiyinə dair bütün deyilənlər sonradan ortaya atılmış cəfəngiyatdır. Uca Rəbbimiz bütün varlıqlar üzərində mütləq hakimiyyət sahibidir. Ondan başqa hər şey, yaranmaq və mövcudluğunu davam etdirə bilmək üçün Rəbbimizə möhtacdır.

Allah kainatı yoxdan yaratmışdır. Dünyadakı bütün canlılar doğular və ölərlər, hər şeyin ömrü, sayılı günü var. Kainatda, yox olmayacaq heç bir əşya və ya əbədi yaşayacaq heç bir canlı yoxdur. Halbuki Quranda bildirildiyi kimi, Allah Əvvəldir, Axırdır. (Hədid surəsi, 3) Yəni başlanğıcı olmadığı kimi sonu da yoxdur. Allah sonsuzluğun sahibidir, zamandan və məkandan uzaqdır. O, hər şeydən əvvəl də mövcud olub, sonra da mövcud olacaq. Kainatın, canlıların, planetlərin və qalaktikaların hələ yaradılmadığı, zamanın hələ mövcud olmadığı bir vaxtda təkcə Allah vardı. O, hər şey yox olduqdan sonra da, əbədiyyən mövcud olacaq. Ömrü və zamanı yaradan Allah, maddəyə məxsus bütün xüsusiyyətlərdən uzaqdır.

Allah, bu anlayışları yaradan və insanların zamandan və məkandan asılı şəkildə yaşamasını uyğun görəndir. İnsan heç vaxt bir gün sonra, hətta bir saat sonra nələr yaşayacağını bilə bilməz. O isə, bir işin olmasına hökm verdiyi təqdirdə bir gün sonra, illər

sonra və qiyamətə qədər o işin nə ilə nəticələnəcəyini bilər. Dolayısilə verdiyi hökm həmişə ən doğru, ən yaxşı və ən hikmətli olandır.

Kainatdakı bütün varlıqların sonu var. Bir insan doğular, yaşayar və dünyadakı məhdud ömrünün sonunda mütləq həqiqət olan ölümlə qarşılaşar. İnsanların yox olması kimi, bitkilər və heyvanlar aləminin yox olması da normaldır. Onlar da yarandıqdan bir müddət sonra bir-bir yox olacaq. Canlı olan hər şey ömrünü başa vurub torpağın altına girəcək. Ancaq Rəbbimiz əbədi yaşayan və həmişə mütləq varlığını davam etdirəcək olandır. Sonsuzluq yalnız Ona məxsusdur.

İnsan acizdir, ömrü boyu həmişə qayğıya və baxıma möhtacdır. Həyatının böyük hissəsini öz bədəninə baxmaqla, onu təmiz saxlamaqla, qida və yuxu rejimini nizamlamaqla keçər. Canlı-cansız bütün kainatın yaradıcısı olan Allah isə Həyydir. Həmişə diridir, hər an hər şeyə hakimdir, hər şeyi bilər, hər şeyə qadirdir, Onu yuxu və mürgü tutmaz, hər cür acizlikdən də uzaqdır. O, yaratdıqlarına müxtəlif acizliklər vermiş və bu acizlikləri görüb yalnız Özünə üz tutaraq qulluq etmələrini, hər şeyi Özündən istəmələrini əmr etmişdir. İnsana düşənsə, Allah istəmədikcə heç nəyə qadir olmadığını, tək bir saniyə belə yaşaya bilməyəcəyini bilərək Rəbbimizə üz tutub qayıtmaqdır. Allah Özündən başqa heç bir ilah olmadığını Quran ayələrindəki hikmətli nümunələrlə bizə belə bildirir:

**Göylərdə və yerdə kimlər varsa, hamısı Onundur. Onun yanında olanlar Ona ibadət etməyə təşəxxüs göstərmir və bundan yorulmurlar. Onlar gecə-gündüz, usanmadan Onun şəninə təriflər deyirlər. Yoxsa özlərinə yerdə ölüləri diriltməyə qadir olan tanrılarmı qəbul etdilər? Əgər göydə və yerdə Allahdan başqa məbudlar olsaydı, onların hər ikisi fəsada uğrayardı. Ərşin sahibi olan Allah, Ona aid etdikləri sifətlərdən uzaqdır! Allah gördüyü işlər üçün sorğu-sual olunmaz; onlar isə sorğu-sual olunacaqlar. Yoxsa Ondan başqa tanrılarmı qəbul etdilər? De: "Qəti sübutunuzu göstərin! Budur mənimlə olanların zikri və məndən öncəkilərin zikri". Lakin onların çoxu haqqı bilmir və bundan ötrü ondan üz çevirirlər. (Ənbiya surəsi, 19-24)**

**Xeyr, Biz onlara haqqı gətirdik. Onlar isə yalançıdırlar! Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı heç bir məbud yoxdur. Əks təqdirdə hər bir məbud öz yaratdıqlarını özü idarə etmək istəyər və onların bir qismi digərinə üstün gəlməyə can atardı. Allah onların Ona aid etdikləri sifətlərdən uzaqdır. O, qeybi və aşkarı Biləndir. Allah Ona qoşduqları şəriklərdən çox ucadır. (Muminun surəsi, 90-92)**

Hz. İsa, Rəbbimizə Onun bütün bu sifətləriylə könüllü iman edən səmimi bir insandır. O Allahın sonsuz güc sahibi olduğuna iman etmiş, Ona heç nəyi şərik qoşmamışdır. Quranda hz. İsanın Allahın qulu olduğu belə bildirilir:

**(İsa) dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. (Məryəm surəsi, 30)**

Başqa bir ayədə isə hz. İsanın bir gün öləcəyi, hər insan kimi öldükdən sonra axirətdə yenidən dirildiləcəyi bildirilmişdir:

**Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!" (Məryəm surəsi, 33)**

Onu Allah yaratmış və dünyada tövhid inancından bəhs etməsi üçün möhlət vermişdir. Sonra isə, ona tələ quranların məkrli planlarını puç edərək hz. İsanı Öz Qatına almışdır. Hz. İsa Allahın özü üçün müəyyənləşdirdiyi vaxt gəlib çatanda yenidən dünyaya gələcək və Allahın əmr etdiyi şəkildə elçilik vəzifəsini tamamlayacaq. Onun taleyindəki hər şeyi; həyatı boyunca qarşılaşdığı hər hadisəni yaradan, müəyyənləşdirən və vaxtı gəldikdə bütün bunları gerçəkləşdirən Allahdır. Göstərdiyi bütün möcüzələri yaradan Allahdır. Hz. İsa bunları öz-özünə deyil, Allahın özünə olan rəhməti sayəsində gerçəkləşdirmişdir. Hz. İsa, dünya həyatı müddətində Allaha olan güclü imanını dilə gətirmiş və insanları Allahın dosdoğru yoluna çağırmışdır. Məryəm surəsində hz. İsanın insanları Allaha iman etməyə çağırması belə bildirilir:

**İsa dedi: "Həqiqətən, Allah həm mənim Rəbbim, həm də sizin Rəbbinizdir. Elə isə yalnız Ona ibadət edin! Dosdoğru yol da budur". (Məryəm surəsi, 36)**

## Hz. Yəhyanın dünyaya gəlməsi də Allahın bir möcüzəsidir

Təslis inancının əsassız dayaqlarından biri də hz. İsanın həyatındakı möcüzələrdir. Həqiqətən də Rəbbimiz hz. İsaya fövqəladə möcüzələr verərək lütf etmişdir. Bu müqəddəs insanın doğumundan Allah Qatına alınmasına qədər keçən müddət həmişə möcüzələrlə dolu olmuşdur. Bunlardan biri də, hz. İsanın atasız dünyaya gəlməsidir. Hz. İsanın doğumu həqiqətən də Rəbbimizin çox böyük möcüzəsidir. Cəbrayılın hz. Məryəmə "insan" şəklində görünməsi və ona Allahın bir möcüzəsini göstərməsi Quran ayələrində ətraflı şəkildə təsvir

edilir. Hz. Məryəm özünə heç bir insan toxunmadığı halda, Allahın diləməsi nəticəsində hz. İsaya hamilə qalmışdır. Onun hamilə qalması dünyadakı bütün səbəblərdən uzaq və möcüzəvi şəkildə baş vermişdir:

**Məryəm dedi: "Mənə bir insan toxunmadığı və özüm də zinakar olmadığım halda, necə mənim övladım ola bilər?" Mələk dedi: "Bu belədir, lakin Rəbbin buyurdu: "Bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik. Nəhayət olan oldu". Məryəm uşağa qaldı və bətnindəki ilə birlikdə gedib uzaq bir yerə çəkildi. (Məryəm surəsi, 20-22)**

Ayənin açıq ifadəsindən aydın olduğu kimi hz. İsa, məlum səbəblərdən uzaq bir yaradılmışla, belə ki, atasız dünyaya gəlmişdir. Allah, o doğulmadan əvvəl, bir çox xüsusiyyətini və onu insanlar üçün rəhmət olaraq göndərdiyini mələkləri vasitəsilə anası hz. Məryəmə bildirmişdir.

**Mələk dedi: "Mən sənə ancaq pak bir oğlan bəxş etmək üçün Rəbbinin elçisiyəm". ...Biz onu insanlar üçün bir möcüzə və Öz tərəfimizdən bir mərhəmət edəcəyik. Bu, hökmü verilmiş bir işdir.... (Məryəm surəsi, 19, 21)**

Məhz bu möcüzəvi yaradılış təslis inancının əsassız dəlillərindən birini təşkil edir. Hz. İsanın dünyaya gəlməsindəki qeyri-adilik açıq-aydın bir həqiqətdir. Lakin Quranda hz. Yəhyanın da yenə möcüzəvi şəkildə dünyaya gəldiyi bildirilir. Ayələrdə özünə bir varis verməsi üçün Allaha dua edən hz. Zəkəriyyanın duaları belə bildirilir:

**Bu sənin Rəbbinin Öz qulu Zəkəriyyaya göstərdiyi mərhəmətinin yada salınmasıdır. Bir zaman Zəkəriyya Rəbbinə gizlicə dua edib demişdi: "Ey Rəbbim! Artıq sümüklərim zəifləmiş, başım da ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə etdiyim dua sayəsində heç vaxt bədbəxt olmamışam. Mən özümdən sonra gələn qohumlarımdan ötrü qorxuram. Zövcəm də sonsuzdur. Mənə Öz tərəfindən elə bir köməkçi (övlad) bəxş et ki, o mənə varis olsun. Ey Rəbbim! Elə et ki, o Sənin razılığını qazanmış olsun!" (Məryəm surəsi, 2-6)**

**Elə oradaca Zəkəriyya Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları Eşidənsən". (Ali İmran surəsi, 38)**

Ayələrdə də bildirildiyi kimi, normalda hz. Zəkəriyyanın uşaq sahibi olması qeyri-mümkün idi. Amma o özünə bir köməkçi və varis verməsi üçün Rəbbimizə səmimi-qəlbdən dua etmişdir. Rəbbimizin, bu dəyərli insanın duasına verdiyi cavab ayələrdə belə bildirilir:

**Ona belə vəhy olundu: "Ey Zəkəriyya! Səni Yəhya adlı bir oğulla müjdələyirik. Biz bu adı ondan öncə kimsəyə qoymamışıq!" (Məryəm surəsi, 7)**

**O, mehrabda durub namaz qılarkən mələklər onu çağırdılar: "Allah səni, Allah tərəfindən olan Kəlməni (İsa) təsdiq edən, alicənab, nəfsinə hakim və əməlisalehlərdən bir peyğəmbər olacaq Yəhya ilə müjdələyir". (Ali İmran surəsi, 39)**

Rəbbimiz hz. Zəkəriyyanı adı Yəhya olan bir uşaqla müjdələmişdir. Bu da hz. İsanın doğumu kimi möcüzəvi haldır. Çünki həm yaşları etibarilə, həm də sağlamlıq vəziyyətlərindən ötrü hz. Zəkəriyya və yoldaşının uşaq sahibi olmaları qeyri-mümkün görünür. Necə ki, hz. Zəkəriyya da bu müjdəni eşitdiyi vaxt: "Ey Rəbbim! Zövcəm sonsuz bir qadın ikən, özüm də qocalığın son həddində olduğum halda necə mənim övladım ola bilər?" (Məryəm surəsi, 8) cavabını verdi. Lakin bütün kainatı yoxdan yaradan Rəbbimiz hər şeyə qadirdir, O, sonsuz qüdrətiylə, istədiyi hər şeyi "ol" deməsiylə yaratma gücünə sahibdir. Ayələrdə belə bildirilir:

**Mələk dedi: «Bu, belədir, lakin Rəbbin buyurdu: "Bu Mənim üçün asandır. Axı əvvəlcə sənin özünü də sən heç bir şey deyilkən xəlq etmişdim!"» (Məryəm surəsi, 9)**

**O dedi: "Ey Rəbbim! Qocalıq məni haqladığı vaxt, zövcəm də sonsuz ikən mənim necə oğlum ola bilər?" Allah dedi: "Allah beləcə istədiyini edər". (Ali İmran surəsi, 40)**

İncildə də hz. Yəhyanın doğumuyla əlaqədar bənzər bir açıqlama yer alır:

Bu əsnada Rəbbin bir mələyi buxur qurbangahının sağında dayanıb Zəkəriyyaya göründü. Zəkəriyya onu gördükdə təəccübləndi və qorxdu. Mələk ona: "Qorxma Zəkəriyya, duan qəbul edildi. Arvadın Elizabet sənin üçün bir oğul doğuracaq, onun adını Yəhya qoyacaqsan. Sevinib coşacaqsan. Bir çox insan da onun doğumuna sevinəcək. O, Rəbbin gözündə böyük olacaq. Qətiyyən şərab və içki içməyəcək, hələ anasının bətnində olarkən müqəddəs ruhla dolacaq. İsrailoğullarının əksəriyyətinin, Tanrıları olan Rəbbə üz tutmasını

təmin edəcək. Ataların qəlbini övladlarına döndərmək, söz dinləməyənləri doğru insanların anlayışına yönəltmək və Rəbb üçün hazırlanmış bir xalq yetişdirmək üçün, İlyasın ruhu və gücüylə Rəbbin önündən gedəcək" dedi Zəkəriyya isə mələyə: "Bundan necə əmin ola bilərəm?, çünki mən də yaşlandım, arvadım da" dedi. (Luka, 1/11-18)

Rəbbimiz hz. Zəkəriyyaya Öz Qatından bir möcüzə göndərərək hz. Yəhyanı bəxş etmiş, bu mübarək insana uşaq yaşında itaətkarlığı sevdirmiş, hikmət, sevgi həssaslığı və təmizlik bəxş etmişdir. Ayələrdə hz. Yəhya üçün belə buyurulur:

**...O, çox təqvalı idi. Həm də ata-anasına qarşı itaətkar idi; zalım və asi deyildi. Doğulduğu gün də, öləcəyi gün də, yenidən dirildiləcəyi gün də ona salam olsun! (Məryəm surəsi, 13-15)**

Ayələrdə də görüldüyü kimi, hz. Yəhyanın doğumu böyük möcüzədir. Allah dünyəvi səbəblərdən uzaq şəkildə hz. Zəkəriyyaya bir oğul bəxş etmiş, duasını qəbul edərək ona hz. Yəhyanı varis kimi vermişdir. Bu müjdəni hz. Məryəmə olduğu kimi hz. Zəkəriyyaya da bir mələk vasitəsilə bildirmişdir. Hz. Zəkəriyyanın həyat yoldaşının hamilə qalmasını tələb edən şərtlər yoxdur. Dolayısilə hz. Məryəmin hz. İsanı dünyaya gətirməsiylə hz. Yəhyanın dünyaya gəlməsi arasında böyük bənzərlik var. Bu vəziyyət təslis inancının saxta dayaqlarından birinin daha əsassızlığını göstərir.

## Hz. Adəmin torpaqdan yaradılması

Hz. Yəhya və hz. Adəmin dünyaya gəlişinin də qeyri-adi olması, hz. İsanın möcüzəvi şəkildə dünyaya gəlişinin, təslis inancının təməl dayaqlarından biri kimi işlədilməsini qeyri-mümkün edən dəlillərdəndir. Quran ayələrində, hz. Adəmin də möcüzəvi şəkildə yaradıldığı bildirilir. Hicr surəsində belə bildirilir:

**Bir zaman Rəbbin mələklərə dedi: “Mən başqa şəklə düşmüş palçıqdan, toxunduqda saxsı kimi səs çıxaran quru gildən insan yaradacağam! Mən ona biçim verib Öz ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!” (Hicr surəsi, 28-29)**

Ayədə bildirilən həqiqət, çox qeyri-adi bir yaradılışa işarə edir. Hz. Adəm anası və atası olmadan, "quru gildən, başqa şəklə düşmüş palçıqdan" yaradılmışdır. Torpaqdan yaradılışla əlaqədar digər ayələr belədir:

**Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, bilin ki, həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, qüdrətimizi sizə bəyan edək... (Həcc surəsi, 5)**

**Allahın sizi torpaqdan xəlq etməsi, Onun dəlillərindəndir. Sonra da siz bir insan kimi yer üzünə yayıldınız. (Rum surəsi, 20)**

**Allah sizi torpaqdan, sonra nütfədən yaratmış, sonra da sizi cütləşdirmişdir. Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq Yazıda (Lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır. (Fatır surəsi, 11)**

Quranda hz. Adəmlə əlaqədar verilən digər bir əhəmiyyətli məlumat isə, hz. İsanın yaradılışıyla olan bənzərlikdir:

**Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. Allah onu torpaqdan yaratdı, sonra isə ona "Ol!" dedi, o da oldu. Haqq sənin Rəbbindəndir. Elə isə heç vaxt şübhə edənlərdən olma. (Ali İmran surəsi, 59-60)**

Yuxarıdakı ayədə Allah hz. Adəmlə hz. İsanın bənzər şəkildə yaradıldıqlarını bildirir. Daha əvvəl də vurğuladığımız kimi hz. Adəm, atası olmadan təkcə Allahın "ol" deməsiylə torpaqdan yaradılmışdır. Hz. İsa da atası olmadan, Allahın təkcə bir dəfə "ol" əmriylə yaradılmışdır. Eyni ayənin davamında isə insanlara bu həqiqətin Rəbbimizdən olduğu bildirilir, bu barədə şübhəyə qapılmamağın lazım olduğu xatırladılır. Dolayısilə bu böyük həqiqət görülməli və hz. İsanın da eynilə hz. Adəm kimi Allahın yaratdığı bir qul, Allaha möhtac bir insan olduğu qəbul edilməlidir.

## Quranda bildirildiyi kimi, hz. İsa bir insandır

Rəbbimiz Quranın Furqan surəsində Peyğəmbərimiz (s.ə.v)-ə özündən əvvəlki peyğəmbərlərin də insan olduqlarını bildirir:

**Səndən öncəki elçilərimiz də yemək yeyər, bazarları gəzib dolanardılar. Sizin bəzilərinizi digərlərinizlə sınaqdan keçirtdik ki, görək səbir edə biləcəksinizmi? Sənin Rəbbin Görəndir. Bizimlə qarşılaşacaqlarını güman etməyənlər dedilər: "Nə üçün bizə mələklər göndərilmədi? Niyə biz Rəbbimizi görmürük?" Onlar özləri haqqında yüksək fikirdə oldular və böyük üsyankarlıq etdilər. (Furqan surəsi, 20-21)**

Rəbbimiz digər ayələrdə isə, belə buyurur:

**Biz səndən əvvəl də özlərinə vəhy nazil etdiyimiz ancaq kişi elçilər göndərmişdik. Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun. Biz onları yemək yeməyən bir vücud etmədik. Onlar əbədi də deyillər. Sonra isə, onlara verdiyimiz vədi yerinə yetirdik. Biz həm onları, həm də istədiyimiz kəsləri xilas edib, həddi aşanları məhvə uğratdıq. (Ənbiya surəsi, 7-9)**

Quran ayələrində peyğəmbərlərin və hz. İsanın insan xüsusiyyətləri bir çox nümunə ilə təsvir edilmişdir. Hz. Məryəm hz. İsaya möcüzəvi şəkildə hamilə qalmışdır. Lakin hz. İsanın doğum mərhələləri, doğum əsnasında anası hz. Məryəmin yaşadıqları, hz. İsanın hər insan kimi eyni çətin mərhələlərdən keçərək dünyaya gəldiyini açıq şəkildə göstərir. Bu müddət boyunca yaşananların fərqli şərh olunması və ya bu vəziyyətdən fərqli bir məna çıxardılması Allahın icazəsi ilə qeyri-mümkündür.

**Məryəm uşağa qaldı və bətnindəki ilə birlikdə gedib tənha bir yerə çəkildi.**

**Doğuş sancıları onu bir xurma ağacının gövdəsinə söykənməyə vadar etdi. O dedi: "Kaş bundan əvvəl öləydim və bir dəfəlik unudulaydım!"**

**Məryəmin aşağı tərəfindən onu səsləyib dedi: "Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı.**

**Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün.**

**Ye, iç, gözün aydın olsun! Əgər insanlardan kimisə görsən, de: "Mən Mərhəmətli Allaha oruc tutmağı nəzir etmişəm. Odur ki, bu gün heç kimlə danışmayacağam".**

**Məryəm körpəni qucağına alıb öz tayfasının yanına gətirdi. Onlar dedilər: "Ey Məryəm! Sən görünməmiş bir iş tutmusan.**

**Ey Harunun bacısı! Atan pis kişi, anan da pozğun deyildi". (Məryəm surəsi, 22-28)**

Hz. İsanı Allah yaratmış və ona müxtəlif möcüzələr verərək lütf etmişdir. Ölüləri diriltmək, palçıqdan quşa bənzər bir şey düzəldib ona can vermək, anadangəlmə kor olanı və cüzam xəstəliyinə tutulanı sağaltmaq kimi gerçəkləşdirdiyi bəzi möcüzələr, eləcə də, atasız dünyaya gəlməsi kimi qəribəliklər isə, dünya həyatında asılı olduğumuz məlum qanunlardan kənar hadisələrdir. Rəbbimiz Quranın bir çox ayəsində, peyğəmbərlərin göndərildikləri qövmlərə göstərdikləri möcüzələrdən bəhs etmişdir. Məsələn, hz. Adəmin atasız şəkildə torpaqdan yaradıldığını, hz. Saleh, hz. İbrahim və hz. Musa kimi peyğəmbərlər tərəfindən də insanlara bir çox möcüzələr göstərildiyini xəbər vermişdir. Hz. Musa sehrbazlarla qarşılaşdığında, Rəbbimiz onun əsasını ilana çevirərək ona çox böyük möcüzəylə kömək etmişdir. (Taha surəsi, 69) Eynilə, Firon və ordusunun təqibi nəticəsində dəniz kənarına gələn hz. Musa və İsrailoğulları dənizdə yol açılması sayəsində qarşı tərəfə keçə bilmişdirlər, Firon və ordusu isə su altında qalmışdır. (Taha surəsi, 77-78) Quran ayələrində də Peyğəmbərimiz (s.ə.v)-in bir çox möcüzələri, qeyb barədə verdikləri xəbərlər bildirilir. Allah İsra surəsində Peyğəmbərimiz (s.ə.v)-i bir gecə Məscidi-Əqsaya apardığını və oranı ona göstərdiyini bildirir. (İsra surəsi, 1) Bu Rəbbimizin çox böyük möcüzəsidir. Həmin bu möcüzələrin gerçəkləşməsini təmin edən aləmlərin Rəbbi olan Allahdır. Bu möcüzələrin meydana gəlməsi Peyğəmbərimiz (s.ə.v)-ə, hz. Musaya və digər peyğəmbərlərə ilahlıq isnad edildiyi mənasını daşımır (Allahı tənzih edirik). Çünki bu mübarək insanlar həmişə, göstərdikləri möcüzələrin ancaq Allahın diləməsi nəticəsində gerçəkləşdiyini bilmişdirlər. Maidə surəsində də hz. İsanın bu möcüzələri "Allahın icazəsiylə" gerçəkləşdirdiyi bildirilir:

**Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə koru və cüzam xəstəliyinə tutulanı sağaldır və Mənim iznimlə ölüləri dirildirdin. Sən İsrail oğullarının yanına açıq-aydın dəlillərlə gəldikdə Mən onları səndən dəf etmişdim. Onlardan inkar edənlər isə demişdilər: “Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir”. (Maidə surəsi, 110)**

Quran ayələriylə hz. Məryəm və hz. İsaya ilahlıq isnad edən bütün iddialar ortadan qaldırılır. Bunlardan biri də Maidə surəsindədir:

**Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə dosdoğru insandır. Hər ikisi də yemək yeyirdi. Bax gör ayələrimizi onlara necə bəyan edirik, sonra da gör onlar necə döndərilirlər. (Maidə surəsi, 75)**

Ayədə xüsusilə yemək yemələrindən danışılması çox hikmətlidir. Çünki yemək yemək, acmaq, susamaq, yatmaq ehtiyacı hiss etmək canlılara məxsus xüsusiyyətlərdir və acizliyi ifadə edir. Bütün insani xüsusiyyətlərə sahib olan hz. İsa üçün ilahlıq isnad etməksə çox yanlış olar. Mülkün sahibi olan Rəbbimiz Rəzzaq sifətiylə bütün canlılara ruzi verir, onlara nemətlər bəxş edir. O heç nəyə və heç kimə möhtac deyil. Lakin bütün canlılar yarana bilmək və mövcudluqlarını davam etdirə bilmək üçün Rəbbimizə möhtacdırlar.

Hz. Məryəm və hz. İsanın yemək yemələrinə diqqət çəkilməsinin digər bir hikməti də ayələrdə hz. İbrahimə insan surətində gələn mələk elçilər haqqında verilən məlumat ola bilər (doğrusunu Allah bilər). Ayələrdə bu elçilərin "yemək yemədiklərinə" diqqət çəkilmişdir:

**İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı? Onlar onun yanına daxil olub: "Sənə salam olsun!" dedilər. İbrahim: "Sizə də salam olsun! Siz yad adamlara oxşayırsınız!" dedi. O, onlara hiss etdirmədən dərhal ailəsinin yanına getdi və kök bir buzov qızardıb gətirdi. Onu qabaqlarına qoyub: "Yemək yeməyəcəksinizmi?" dedi. O, qonaqların yemədiklərini görüb onlardan qorxuya düşdü. Onlar: "Qorxma!" dedilər və ona elmli bir oğlan uşağı ilə müjdə verdilər (Zəriyət surəsi, 24-28)**

**Elçilərimiz İbrahimə müjdə gətirdilər və: "Salam!" dedilər. O da: "Salam!" dedi və dərhal gedib qızardılmış bir buzov gətirdi. İbrahim mələklərin yeməyə əl vurmadıqlarını gördükdə bu vəziyyət onun xoşuna gəlmədi və onların yanında canına qorxu düşdü. Onlar dedilər: "Qorxma! Həqiqətən, biz Lut qövmünə göndərilmişik". (Hud surəsi, 69-70)**

Allah, hz. İsaya ilahlıq isnad edən təslis inancı müdafiəçilərini ayələrdə çox müxtəlif formalarda xəbərdar edir. Bu ayələrdən bəziləri belədir:

**"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir!" deyənlər artıq küfrə sapdılar. De: "Əgər Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanlarını hamısını məhv etmək istəsə, kim Ona bir şeylə mane ola bilər?" Göylərin, yerin və onların arasında olanların mülkü Allaha məxsusdur. Allah istədiyini yaradır. Allah hər şeyə qadirdir. (Maidə surəsi, 17)**

Hz. İsa da Allahın yaratdığı aciz və möhtac qullardan biridir. Allahın çox sevdiyi, şərəfləndirdiyi, seçdiyi bir insandır, amma nəticədə bir quldur. Quranda hz. İsanı ilahlaşdıranlar üçün belə buyurulur:

**“Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir” deyənlər artıq küfrə sapdılar. Məsih isə demişdir: “Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır”. “Allah üçlüyün üçüncüsüdür!” deyənlər artıq küfrə sapdılar. Halbuki Tək İlahdan başqa heç bir məbud yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, onlardan küfrə sapanlara mütləq ağrılı-acılı bir əzab toxunacaqdır. Onlar Allaha tövbə edib Ondan bağışlanma diləməyəcəklər? Allah ki Bağışlayandır, Rəhmlidir. (Maidə surəsi, 72-74)**

Ayədə də bildirildiyi kimi Rəbbimiz bütün varlıqlar üzərində yeganə hökm sahibidir. O bir şeyin olmasını istədiyi vaxt bunu təxirə sala biləcək və ya olmasının qarşısını ala biləcək başqa bir güc yoxdur. Allahdan başqa ilahlar olduğunu söyləyən: "Allahın övladı var" deyənlər üçün Quranda belə buyurulur:

**Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!” deyə vəhy etməyək. Kafirlər: “Mərhəmətli Allah Özünə övlad götürdü!” dedilər. O, bundan uzaqdır! Əksinə, onlar (mələklər) möhtərəm qullardır. Onlar Ondan qabaq danışmazlar; ancaq Onun əmrini yerinə yetirərlər. Allah onların keçmişini və gələcəyini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər. Onlardan kimsə: “Mən Ondan başqa bir məbudam!” desə, ona Cəhənnəmi qismət edərik. Biz zalımları belə cəzalandırırıq. (Ənbiya surəsi, 25-29)**

## Hz. İsa Allahın oğlu deyil, Allahın peyğəmbəridir

Quranda, hz. İsanın doğumu, həyatı boyu qarşılaşdığı bəzi hadisələr, ailəsi, ətrafındakı insanların vəziyyəti kimi bir çox mövzudan bəhs edilmişdir. Quranda hz. İsa bizə: "Allahın peyğəmbəri Məryəm oğlu İsa Məsih" kimi tanıdılır. Məsələn, Ali İmran surəsində hz. İsanın öz göndərilmə səbəbini İsrailoğullarına belə bildirdiyi xəbər verilir:

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün göndərildim. Mən sizə Rəbbinizdən bir dəlil gətirdim. Allahdan qorxun və mənə itaət edin. Həqiqətən, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Ona ibadət edin! Çünki bu, düz yoldur”. (Ali İmran surəsi, 50-51)**

Hz. İsanın bu dəvətini az sayda həvari qəbul etmişdir. Quranda bu səmimi insanlardan belə bəhs edilir:

**...Həvarilər dedilər: "Bizik Allahın dininin yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!" (Ali İmran surəsi, 52-53)**

Qarışıqlıq içindəki bir cəmiyyətə hidayət öndəri kimi göndərilən hz. İsa, həyatı boyu ətrafındakı insanları Allaha səmimi şəkildə iman etməyə və təslim olmağa çağırmışdır. Bununla yanaşı, Quran ayələrindən hz. İsanın, dinləri barədə ixtilafa düşənlərə yol göstərdiyi aydın olur. İncildə deyilənlərdən, hz. İsanın əvvəlcə ikiüzlü, səmimiyyətsiz din xadimlərini, dindar görünərək xalqı aldadanları etdiklərindən imtina etməyə, Allaha iman etməyə dəvət etdiyi aydın olur. Allah Quranda bu şəkildə bildirir:

**İsa aydın dəlillərlə gəldiyi zaman dedi: "Mən sizə hikmət gətirmişəm və barəsində ziddiyyətə düşdüyünüz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! (Zuxruf surəsi, 63)**

Hz. İsa, bütün peyğəmbərlər kimi əxlaqi pozulmanı və dinsizliyi hədəf aldı. İnsanlardan etdikləri bütün ədalətsizlikləri, haqsızlıqları, əxlaqsızlıqları və batil dinlərini tərk etmələrini, Allahın istədiyi əxlaqla və yalnız Allah rizası üçün yaşamalarını istədi.

Hz. İsa insanlara Allah qorxusunu, Allahı sevməyi, Allaha təslim olmağı nəsihət edirdi. Batil qanunlardan, cəfəng ənənələrdən uzaqlaşmalarını, yalnız Allaha ibadət edib, etdikləri hər işdə Allaha yönəlmələrini əmr edirdi. Göstərdiyi möcüzələrsə onun, Allahın seçib bəyəndiyi, elm və qüvvət verdiyi çox dəyərli bir elçisi olduğunu açıq şəkildə göstərirdi. Onun imani dərinliyi, böyük əxlaqı, üstün qavrayışı və hikmətli açıqlamaları insanlarda böyük heyranlıq oyadırdı.

Hz. İsa özünə qurulan bütün tələlər, atılan böhtanlar və hücumlar qarşısında çox böyük səbir göstərdi, Allaha təvəkkül edib təbliğinə davam etdi. Bu əsnada isə, yanında az sayda köməkçisi oldu. Dini əslinə qaytarmaq, xurafatlardan və batil tətbiqlərdən təmizləmək üçün səy göstərdi. Rəbbimizin özünə bəxş etdiyi üstün qavrayış və hikmət sayəsində İsrailoğullarıyla çox təsirli danışıqlar apardı, çox hikmətli nümunələr verdi.

Hz. İsa Tövratı təsdiqləmiş, Allahın insanlara bir rəhbər və öyüd-nəsihət olması üçün göndərdiyi İncillə hökm vermişdir:

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün rəhbər və öyüd-nəsihət olan İncili verdik. Qoy İncil əhli Allahın onda nazil etdiyi şəriət qanunları əsasında hökm versinlər. Allahın nazil etdiyi ilə hökm verməyənlər məhz onlar fasiqlərdir. (Maidə surəsi, 46-47)**

Hz. İsanın dəvətinə cavab verənlərin sayı başlanğıcda çox az idi. Çünki bu dəvət, həm xurafat və batil ənənələr hesabına dolanan rahib zümrəsinin, həm də Allahın hakimiyyətini qəbul etməyən idarəçi zümrənin imtiyazlarını ortadan qaldırırdı. Hz. İsanın apardığı təbliğ genişlənməyə və onun ardınca gedənlərin sayı artmağa başladıqca, bu zümrələrin qurduqları hiyləgər tələlər, hz. İsaya mane olmaq üçün qurduqları planlar da çoxalmışdır. Bütün peyğəmbərlərə tarix boyu belə tələlər qurulmuşdur. Quranda müşriklərin elçilərə göstərdikləri bu qeyri-insani davranış forması belə bildirilmişdir:

**...Deməli, hər dəfə sizə ürəyinizə yatmayan bir şey gətirən elçi göndəriləndə təkəbbür göstərərək bəziləriniz onu yalançı hesab edib, bəziləriniz də öldürəcəksiniz mi? (Bəqərə surəsi, 87)**

Cəmiyyət içində hz. İsanı dinləyib iman edənlərlə inkar edənlər ayrılmağa başlamış, iki zümrə arasındakı fərq nəzərə çarpan şəkildə ortaya çıxmışdır. Bir tərəfdə həqiqi dindən danışan və insanları vahid Allaha iman etməyə çağıran Allahın elçisi, digər tərəfdə isə hansı möcüzəni, hansı dəlili görürsə görsün, inanmamağa qərar vermiş bir zümrə olmuşdur. Hz. İsanın qarşısındakı düşmənlər özlərini açıq şəkildə büruzə vermişdirlər. Onu dinləyən, yanında olan insanlardan sonradan onu inkar edənlərin olması mümkün ehtimaldır. Necə ki, Allah: "Sonra aralarından bəzi firqələr ixtilafa düşdü..." (Zuxruf surəsi, 65) ayəsiylə bu vəziyyəti bizə xəbər verir. Bundan ötrü də, hz. İsa, qövmün içindən iman edən və etibar edə biləcəyi insanları müəyyənləşdirmişdir.

Bu vəziyyət Quranda belə bildirilmişdir:

**İsa onlardakı inkarı hiss etdikdə dedi: “Allah yolunda kimlər mənə yardımçı olacaq?” Həvarilər dedilər: “Bizik Allahın dininin yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! (Ali İmran surəsi, 52)**

Quranda inkar edənlərin hz. İsanı öldürmək məqsədiylə tələ qurduqları bildirilir. İncilə görə, hz. İsanın yanındakılardan birinin xəyanət etməsinə imkan yaradan bəzi fanatik din xadimləri, Allahın elçisini ələ keçirib Romalılara təslim etmək istəmişdirlər. Yenə eyni mənbəyə görə öldürmə cəzasını tətbiq etmək haqqı olmayan rahiblər, Roma rəhbərliyini qızışdırmaq üçün bir tələ qurmuşdurlar. Romalıların bu mövzuda çox həssas və mərhəmətsiz olduqlarını bildiklərindən, hz. İsanı romalı rəhbərlərə qarşı çıxan biri kimi tanıtmışdırlar. Bu tələnin aqibəti isə Quranda belə bildirilmişdir.

**Onlar (imansızlar) hiylə qurdular, Allah da (bunun əvəzində) hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali İmran surəsi, 54)**

Ayələrdə də bildirildiyi kimi, hz. İsanı öldürmək üçün hərəkətə keçilmiş, tələ qurulmuşdur. Lakin bu insanlar hz. İsanı öldürməyi bacara bilməmiş, onun bir bənzərini, hz. İsa hesab edərək öldürmüşdürlər. Allah, hz. İsanı Öz Qatına qaldıraraq, qurulan tələni puç etmişdir. Halbuki Romalıların hz. İsanı çarmıxa çəkərək öldürdükləri inancı, xristianlığın təməlini təşkil edir. Bu yanlış inanca görə, hz. İsanı ələ keçirən romalılar və yəhudi din xadimləri onu çarmıxa çəkmiş və beləliklə də, onu öldürmüşdürlər. Xristian aləminin çox böyük hissəsi də hadisəni belə qəbul edir, lakin hz. İsanın öldükdən sonra dirilərək göyə ucaldığına inanır. Lakin Qurana baxdığımız vaxt, hadisənin əslində belə olmadığını görərik:

**Bir də: “Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!” dediklərinə görə lənətə düçar edildilər. Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu qətiyyən öldürmədilər. (Nisa surəsi, 157)**

Növbəti ayədə hz. İsanın vəziyyəti barədə belə bildirilir:

**Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah üstün və güclüdür, hökm və hikmət sahibidir. (Nisa surəsi, 158)**

Ayədə bildirilən həqiqət aydındır. Yəhudilərin təhrikiylə hz. İsanı öldürməyə cəhd edən romalılar bunda müvəffəqiyyət qazana bilməmişdirlər. Ayədə keçən: "...Onlara ancaq İsanın

bənzəri göstərildi..." ifadəsi bu vəziyyəti açıq şəkildə bildirir. Allah insanlara hz. İsanın bənzərini göstərmiş və hz. İsanı da Öz Qatına qaldırmışdır. Həmçinin Rəbbimiz bu iddianı irəli sürənlərin həqiqətə dair bir məlumatları olmadığını da bildirir (ətraflı məlumat üçün baxın: Hz. İsa Ölmədi, Harun Yəhya, Araşdırma nəşriyyatı, aprel 2004).

Hz. İsanın çarmıxa çəkilmiş olması mövzusunda ilk əsrlərdə müxtəlif düşüncələr ortaya çıxmışdır. Bəzi xristian məzhəblərinin, eynilə Quranda bildirildiyi kimi, hz. İsanın çarmıxa çəkilmədiyinə inandıqları məlumdur.

Hz. İsanın Quran ayələrində bildirilən həyatından, təbliğindən, dualarından onun Allahın peyğəmbəri olduğu tam açıq şəkildə aydın olur. Hz. İsa Allahın insanlara xəbərdarlıq edən biri kimi göndərdiyi, hidayət öndəridir. Necə ki, Məryəm surəsində bildirilən: "(İsa) dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi" (Məryəm surəsi, 30) ayəsi də, bu vəziyyəti açıq şəkildə göstərir. Saff surəsində belə bildirilir:

**Bir zaman Məryəm oğlu İsa demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl nazil edilmiş Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı peyğəmbərlə sizi müjdələyən bir elçisiyəm!" Allahın elçisi onlara açıq-aydın dəlillər gətirdikdə onlar: "Bu, aşkar bir sehrdir!" dedilər. (Saff surəsi, 6)**

Digər bir Quran ayəsində isə belə bildirilir:

**Heç kimin, Allah ona Kitab, hökm və peyğəmbərlik verdikdən sonra insanlara: "Allaha yox, mənə qul olun!" demək (haqqı, səlahiyyəti) yoxdur. Əksinə, o deyər: "Öyrətdiyiniz Kitabın sayəsində din xadimləri olun!" (Ali İmran surəsi, 79)**

Quran ayələrində və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. İsanın ölmədiyi və öldürülmədiyi, Allah Qatına ucaldığı və yer üzünə ikinci dəfə gələcəyi çox açıq şəkildə bildirilmişdir. Peyğəmbərimiz (s.ə.v) hədislərində hz. İsanın gəlməsiylə əlaqədar bir çox əlamət bildirmişdir (hz. İsanın yer üzünə ikinci dəfə gəlməsiylə əlaqədar ətraflı məlumat üçün baxın: Hz. İsanın zühur əlamətləri, Harun Yəhya).

# İncildəki “həqiqi xristianlıq”

İncildə təslis inancına heç bir dayaq saxlamayan, əksinə Allaha, Onu tək ilah qəbul edərək iman etməyi əsas götürən, tövhid inancını müdafiə edən bir çox açıqlama var. Necə ki, tarix boyu təslis inancına qarşı çıxan qruplar da buna diqqət çəkmiş, təslis inancını müdafiə edənlərin dəlilsiz açıqlamalar verdiklərini bildirmişdirlər.

Təslis inancı hz. İsaya Allahla eyni dərəcədə ilahlıq isnad etdiyi halda (Allahı tənzih edirik), İncildə Allahın vahidliyi, hər şey üzərində sonsuz hakimiyyət sahibi olduğu çox ətraflı şəkildə bildirilir. Həm hz. İsanın qövmünə və tələbələrinə etdiyi təbliğdə, həm də həvarilərin danışıqlarında insanlar həmişə tövhid inancına dəvət edilib. Hz. İsa etdiyi hər şeyi əslində Allahın sonsuz güc və qüdrəti sayəsində etdiyini, söylədiyi hər şeyi Allahın özünə söylətdiyini, möcüzələri Allahın diləməsiylə gerçəkləşdirdiyini həmişə dilə gətirib. Özünü ucaldan insanları Allahı ucaltmağa, Allahın sonsuz gücünü xatırlamağa və Ona təslim olmağa dəvət edib. Bu mövzunu sonrakı səhifələrdə araşdıracağıq.

Hz. İsanın necə təbliğ etdiyini göstərən bir çox Quran ayəsi var. Maidə surəsində bu mövzuda belə buyurulur:

**Allah deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Allahı qoyub məni və anamı iki məbud qəbul edin!” demişdin?” İsa deyəcək: “Səni tənzih edirəm Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən! Mən onlara ancaq Sənin mənə əmr etdiyini: “Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!” demişəm. Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni onların arasından götürdükdən sonra isə onlara nəzarət edən Özün oldun. Sən hər şeyə Şahidsən. Əgər onlara əzab versən, sözsüz ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, şübhəsiz ki, Sən Əzizsən, Hakimsən!” (Maidə surəsi, 116-118)**

Ayələrdə də bildirildiyi kimi hz. İsa insanları yalnız Allaha iman edib, Onun üçün yaşamağa dəvət etmişdir. Tövhid inancı eynilə İslam dinində olduğu kimi "həqiqi xristianlığın" da təməlini meydana gətirir (bu hissədə İncildən götürülmüş ayələrdə işlədilən "ata" sözü "Allah və ya Rəbb", "oğul" ifadəsi "peyğəmbər-elçi", hz. İsaya xitab məqsədiylə işlədilən "Rəbb" sifəti isə, "müəllim" olaraq dəyişdirilmişdir).

## Əhdi-Ətiqdəki tövhid inancı

Hz. İsanın Allah Qatına alınmasından 30-40 il sonra ortaya çıxan və batil bir anlayış olan "Allahın oğlu" anlayışı, zaman keçdikcə insanlar arasında yayıldı. Lakin bu anlayışın nəyi ifadə etdiyi xeyli uzun müddət naməlum qaldı. Bəziləri bu ifadəni yalnız hz. İsanın Allah Qatındakı seçilmiş mövqeyini ifadə edən məcazi anlayış kimi şərh etdilər və Allahın vahidliyinə inanmağa davam etdilər. Bəziləri isə, bu anlayışa əsaslanaraq hz. İsanı saxta şəkildə ilahlaşdırdılar və onu öz aləmlərində "Oğul Tanrı" saydılar.

Məlum olduğu kimi hz. İsa, İsrail nəslindəndi və təbliğini də İsrailoğullarına çatdırdı. İsrailoğulları, yəni yəhudilər, hz. İsa gəldikdə, iki min ildir ki, Allaha, Onu tək ilah qəbul edib iman edən bir cəmiyyətdi. Hz. İbrahimlə başlayan və sonra da bir-biri ardınca gələn bir çox peyğəmbərlə Rəbbimiz yəhudilərə vəhyini çatdırmışdı. Elçiləri onları bu vəhyə tam tabe olmaları üçün xəbərdar etmişdilər. Allahın, Quranda bildirilən ifadəylə: "İçində hidayət və nur olaraq" endirdiyi Tövratı (Maidə surəsi, 44) hz. Musadan etibarən bilirdilər. Hz. İsa isə, xristianların da qəbul etdiyi kimi, Tövratı təsdiqləyici olaraq gəlmişdi. Tövratda və Əhdi-Ətiqin digər kitablarında hz. İsanın gələcəyinə işarə edən müjdə xəbərləri vardı.

Məhz bu həqiqət Birinci İznik Kilsə Məclisində səs çoxluğuyla qəbul edilən təslis inancının nə qədər böyük yanılma olduğunu göstərirdi. Çünki nə Tövratın, nə də Əhdi-Ətiqi meydana gətirən digər kitabların hər hansı bir yerində, təslis inancından bəhs edilmirdi. İsrail peyğəmbərləri xalqlarını iki min il ərzində Onu tək ilah qəbul edərək Allaha iman etməyə dəvət etmişdilər, lakin təslis inancını xatırladacaq ən kiçik bir açıqlama belə verməmişdilər. Nə hz. İbrahimdən, nə hz. Musadan, nə də başqa bir peyğəmbərdən belə bir açıqlama eşidilməmişdi. Hamısının öyrətdiyi dinin tək təməli vardı: Allahı vahid olaraq tanımaq və Ondan başqa ilah qəbul etməmək. Yəhudilərin ən sıx təkrarladıqları Tövrat ayəsində belə deyilirdi: "Dinlə! Ey İsrail: Allahımız olan Rəbb tək olan Rəbbdir". (Tesniye, 6/4)

Əhdi-Ətiqdən götürülmüş digər bir çox ayədə də eyni həqiqət vurğulanır:

Rəbb, Özü Allahdır, Ondan başqası yoxdur... Bu gün bil və qəlbinə qoy ki, yuxarıda, göylərdə və aşağıda, yerdə Rəbb, O Allahdır, başqası yoxdur. (Tesniye, 4/35-39)

...Məndən əvvəl Allah olmadı və Məndən sonra olmayacaq. Mən Rəbbəm və Məndən başqa xilasedici yoxdur... (İşaya, 43/10-11)

Çünki göyləri yaradan Rəbb, dünyaya şəkil verən və onu yaradan, onu möhkəmləndirən və onu boşuna yaratmayan, üzərində oturulsun deyə ona şəkil verən Allah belə deyir: Rəbb Mənəm və başqası yoxdur. (İşaya, 45/18)

Və Məndən başqa Allah, haqq Allah və xilasedici yoxdur. Məndən başqası yoxdur. (İşaya, 45/22)

...Allahımız Rəbb tək olan Rəbbdir və Allahın olan Rəbbi bütün qəlbinlə, bütün canınla və bütün gücünlə sevməlisən. (Tesniye, 6/4-5)

Yuxarıdakı Tövrat ayələrində də görüldüyü kimi Rəbbimizin sonsuz güc və qüdrəti, bütün kainatın tək sahibi olduğu Yəhudiliyin təməl həqiqətidir.

Əhdi-Ətiqi oxuyan hər kəs, içindəki bütün kitablarda tək bir İlahdan, aləmlərin Rəbbi olan Allahdan bəhs edildiyini açıq şəkildə görər. Əhdi-Ətiqdə təslis inancından təkcə bir dəfə belə bəhs edilməməsi olduqca mənalıdır.

Bu mənanın açıq nəticəsi, təslis inancının İlahi dinə sonradan daxil olmuş batil bir inanc olmasıdır.

## İncildə "Allaha, Onu tək ilah qəbul edərək iman etmək" əsasdır

Quranda hz. İsanın yəhudilərə belə təbliğ etdiyi bildirilir:

**...Ey İsrailoğulları, mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin... (Maidə surəsi, 72)**

Hz. İsanın insanları tövhidə çağıran ifadələri, təhrifə məruz qalmış Əhdi-Cədidin İncillərində də bu gün hələ də mövcuddur. Məsələn, hz. İsa, Markos İncilinə görə, özünə gələrək: "bütün buyruqların ən əhəmiyyətlisi hansıdır?" sualını verən bir yəhudi din aliminə belə cavab vermişdir:

Ən əhəmiyyətlisi budur: “Dinlə, ey İsrail! Allahımız olan Rəbb tək Rəbbdir. Allahın olan Rəbbi bütün qəlbinlə, bütün canınla, bütün ağlınla və bütün gücünlə sev”. (Markos, 12/29-30)

Yenə Markos İncilində yer alan aşağıdakı ayə isə, hz. İsanın özünün, nəinki ilahlaşdırılmasına, hətta təriflənməsinə belə mane olduğunu göstərir:

İsa yola çıxarkən, biri qaçaraq yanına gəldi. Qarşısında diz çöküb ondan: "Yaxşı (yaxşı insan mənasında) müəllimim, əbədi həyata qovuşmaq üçün nə etməliyəm?" deyə soruşdu. İsa ona: "Mənə niyə yaxşı deyirsən?" dedi, "yaxşı olan tək biri var, O da Allahdır". (Markos, 10/17-18)

Əslində təkcə bu ayə belə, təslis inancının həqiqi xristianlığa zidd inanc olduğunu göstərmək üçün kifayətdir. Hz. İsa tərif qəbul etməyib təriflənməyə layiq olanın yalnız Allah olduğunu vurğulayaraq, özünün Allahın qulu olduğunu çox açıq şəkildə ifadə edir.

Hz. İsanın İsrailoğullarına bildirdiyi həqiqət, tarixin əvvəlindən indiyə qədər bütün peyğəmbərlərin bildirdiyi həqiqətdir: Rəbbimiz hər şeyi yoxdan yaradan, ən gözəl və mükəmməl şəkildə meydana gətirən, çox böyük və üstün olan, hər şeyin iç üzündən və gizli tərəflərindən xəbərdar olan, əzəli və əbədi olan, doğulmamış və doğmamış olan, hər cür nöqsandan uzaq, diri, hər şeyi bilən və hər şeyə qadir olan, şəni böyük olan, hökm edən, kərəmi bol olan, mərhəmətli və bağışlayan uca Allahdır. Göylərdə və yerdə olanların hamısı Allaha təslim olmuşdur.

Necə ki, Əhdi-Cədiddə də "Allahın vahid" olduğuna inanmaq çox əhəmiyyətli iman şərti kimi göstərilir. İstənilən çox tanrılı, üç tanrılı inanclar və ya istənilən bütpərəstlik Tövratda olduğu kimi İncildə də (həm dörd İncildə, həm də elçilərin yazı və məktublarında) kəskin şəkildə qınanılır. Bir çox İncil ayəsində Allahdan başqa ilah qəbul edənlər tövhid inancına dəvət edilirlər. Bunlardan bəziləri belədir:

İsa ona dedi... "Allahımız Bir olan Rəbbdir"... Katib ona dedi: "Çox yaxşı müəllim, həqiqəti bildirmək məqsədiylə dedin ki, O Birdir; Ondan başqası yoxdur". (Markos, 12/29-32)

...Allah birdir. (Galatyalılara Mektup, 3/20)

Ölümsüz Allahın ucalığı əvəzinə ölümlü insana, quşlara, dörd ayaqlılara və sürünənlərə bənzəyən bütləri üstün tutdular. Onlar Allahla əlaqəli həqiqətin yerinə yalanı qoydular. Yaradan əvəzinə, yaradılana tapınıb qulluq etdilər. Halbuki Allah əbədiyyən təriflənməyə layiqdir. (Pavlus'un Romalılara Mektubu, 1/23-25)

...Bizim üçün tək Allah var: Hər şeyin Özündən ibarət olduğu Allah. Biz də Onun üçün yaşayırıq... (Korintoslulara 1. Mektup, 8/6)

...Bilirik ki, büt, dünyada əslində olmayan bir şeydir və birdən çox Allah yoxdur. (Pavlusun Korintlilere Birinci Mektubu, 8/4)

...Taxtları üzərində oturan iyirmi dörd qoca, üzüstə yerə qapandı. Allaha tapınaraq belə dedilər: "Hər şeyə qadir olan, var olan və var olmuş Rəbb Allah! Sənə şükür edirik..." (Yuhanna'ya Gelen Esinleme, 11/16-17)

Əbədi əsrlərin hökmranı, ölümsüz, gözə görünməz tək Allaha həmişə şərəf və ucalıq olsun. (Timoteos'a 1. Mektup, 1/17)

Tək bir Allah var... (Timoteos'a 1. Mektup, 2/5)

Sən Allahın bir olduğuna inanırsansa yaxşı edirsən... (Yakup'un Mektubu, 2/19)

Xilasedicimiz Tək Allaha ucalıq olsun... (Yahuda'nın Mektubu, 24)

Ey bir-birinizi ucaldan və tək olan Allahdən gələn ucalığı axtarmayanlar, siz mənə necə iman edə bilərsiniz? (Yuhanna, 5/44)

Allahın edə bilməyəcəyi heç nə yoxdur. (Luka, 1/37)

Yuxarıdakı ayələrdən başqa İncildə Allahı tək ilah kimi təsvir edən bir çox başqa ayə də var. Bu mövzuya digər bir nümunə isə, hz. İsanın tələbələrinin etdikləri təbliğdir. Hz. İsanın Allah Qatına alınmasından sonra xristianlar kəndbəkənd, qəsəbə-qəsəbə dolanıb insanlara hz. İsanın söylədiklərini çatdırmış və onları Allaha təslim olmağa çağırmışdırlar. İncildə onların, təbliğ etdikləri insanları Allaha, Onu tək ilah qəbul edərək iman edən xristianlar olmağa çağırdıqları belə nəql olunur:

Belə ki, elçilər, Barnaba və Pavel (Pavlus), bunu eşitdikdən sonra paltarlarını yırtıb izdihamlı insan kütləsinin içinə daxil oldular. Onlar: "Əfəndilər, niyə belə şeylər edirsiniz?" deyə qışqırdılar. "Biz də sizin kimi insanıq, eyni yaradılışa sahibik. Sizə müjdə gətiririk. Sizi bu boş şeylərdən imtina etməyə, göyü, yeri, dənizi və bunların içindəkilərin hamısını yaratmış olan... Allaha qayıtmağa çağırırıq... belə ki, O, sizə yaxşılıq edir, göydən yağış yağdırır, müxtəlif məhsullar verən fəsilləri qaydaya salır, sizi yeməklə doyurub qəlblərinizi sevinclə doldurur". (Elçilerin İşleri, 14/14-17)

Dünyanı və içindəkilərin hamısını yaradan, göyün və yerin Rəbbi olan Allah, əllə düzəldilmiş məbədlərdə oturmaz. Hər kəsə həyat, nəfəs və hər şeyi verən Özü olduğuna görə, bir şeyə ehtiyac duyurmuş kimi Ona insan əliylə xidmət edilməz. Allah, bütün xalqları təkcə bir insandan meydana gətirdi və onları dünyanın hər yerinə yerləşdirdi. Xalqların mövcud olacağı müəyyən müddətləri və yerləşəcəkləri ərazilərin sərhədlərini əvvəlcədən müəyyənləşdirdi. Bunu, Özünü axtarsınlar... deyə etdi. Əslində Allah heç birimizdən uzaq deyil. Necə ki, Onda yaşayır və hərəkət edirik, Onda mövcuduq... (Elçilerin İşleri, 17/24-28)

## Allah sonsuz güc və qüdrət sahibidir

Təslis inancına görə hz. İsa yaradılmamışdır, əzəldən bəri vardır və Allahla bərabər gücə və bərabər səlahiyyətlərə malikdir (Allahı tənzih edirik). Halbuki bu çox böyük yanılmadır. Hazırkı dövrdə təslis inancına inananlar hz. İsanın özlərini xilas edəcəyinə, dualarını qəbul edəcəyinə, onun sayəsində bütün günahlarından xilas olduqlarına inanırlar (kəffarə yanılması, kitabın sonrakı hissəsində ətraflı şəkildə araşdırılacaq). Bu yanlış inanc forması, Quran ayələrində tərif edilən çox böyük aldanışdır. Üstəlik, İncil ayələrində də bu inanc qətiyyən təsdiq olunmur, tam əksinə təkzib edilir.

Bu yanlış inanca İncildən bəzi dəlillər gətirilir. Bu dəlillərin başında isə hz. İsanın göstərdiyi möcüzələr gəlir. Halbuki hz. İsanın insanlara bir çox möcüzə göstərməsi, onu ilahlaşdıran inanca dəlil meydana gətirməz. Bu möcüzələr Quranda da bildirilən açıq həqiqətdir. Hz. İsanın atasız doğulması, beşikdə olarkən danışması, anadangəlmə korları, cüzam xəstələrini sağaltması kimi həyatı boyu göstərdiyi bir çox möcüzəsi olmuşdur. Lakin bu möcüzələr sonsuz güc və qüdrət sahibi olan, bütün kainat üzərində hakim olan

Rəbbimizin lütfü ilə gerçəkləşmişdir. Allah hz. İsadan başqa, hz. Musaya, hz. Süleymana, hz. İbrahimə, hz. Zəkəriyyaya, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə və daha bir çox peyğəmbərə də möcüzələrlə kömək etmişdir. Lakin təslis inancını müdafiə edənlər bu möcüzələri öz ağıllarınca dəlil göstərərək hz. İsa barədə ilahlıq iddia edirlər. Halbuki bu da digərləri kimi İncildə qeyd olunan ayələrlə ziddiyyət təşkil edən bir iddiadır.

Sonrakı hissələrdə daha ətraflı şəkildə araşdıracağımız kimi hz. İsa, danışıqlarında həmişə Allahın şənini ucaltmış: "Allahın mənə verdiyi buyuruğa görə iş görürəm" (Yuhanna, 14/31) "sizə dediyim sözləri özümdən demirəm" (Yuhanna, 14/10) və "sizə qəti şəkildə bildirirəm ki, elçi təkbaşına heç nə edə bilməz" (Yuhanna, 5/19) kimi ifadələrlə bütün gücün Allaha məxsus olduğunu ifadə etmişdir.

Allahın sonsuz güc və qüdrətinin ifadə edildiyi bəzi İncil ayələri belədir:

Hər şeyin qaynağı Odur; hər şey Onun vasitəsilə və Onun üçün mövcud oldu. Əbədiyyən Ona ucalıq olsun. (Pavlus'un Romalılara Mektubu, 11/36)

Beş sərçə iki qəpiyə satılmırmı? Amma bunların biri belə Allah Qatında unudulmamışdır. Necə ki, başınızdakı saçlar belə tək-tək sayılmışdır... (Luka, 12/6-7)

İsa onlara baxaraq: "Bu insanlar üçün qeyri-mümkündür, lakin Allah üçün hər şey mümkündür" dedi. (Matta, 19/26)

Allahın zənginliyi, müdrikliyi və məlumatı necə dərindir!.. (Pavlus'un Romalılara Mektubu, 11/33)

Allahdan qorxun! Onu ucaldın! Çünki Onun mühakimə etmə vaxtı gəldi. Göyü, yeri, dənizi və su mənbələrini yaradana tapının! (Vahiy, 14/7)

...Hər şeyə qadir olan Rəbb Allah, sənin işlərin böyük və heyrətamizdir. Ey xalqların padşahı, sənin yolların doğru və ədalətlidir. Rəbb, Səndən qorxmayıb adını ucaltmayacaq kim var? Çünki müqəddəs olan təkcə Sənsən. Bütün xalqlar gəlib sənin qarşında tapınacaqlar. Çünki sənin ədalətli işlərin açıq şəkildə görüldü. (Vahiy, 15/3-4)

...Hər şey Allahdandır. (Pavlus'un Korintlilere Birinci Mektubu, 11/12)

...Xilas etmək, ucalıq və güc Allahımıza məxsusdur. Çünki Onun mühakimələri doğru və ədalətlidir... Çünki hər şeyə qadir olan Rəbbimiz Allah hökmranlıq edir. (Vahiy, 19/1-6)

...Allah tərəfindən yaradılmamış rəhbərlik yoxdur. Mövcud rəhbərliklər Allah tərəfindən yaradılmışdır. (Pavlus'un Romalılara Mektubu, 13/1)

...Rəbb belə deyir: "Varlığım haqqı üçün, hər diz önümdə çökəcək və hər dil Allah olduğumu açıqca söyləyəcək" (Pavlus'un Romalılara Mektubu, 14/11)

...Allah, Məsihi müəyyənləşdirilmiş vaxtda ortaya çıxardacaq. Şərəf və qüdrət əbədiyyən Onun olsun. (Pavlus'un Timoteus'a Birinci Mektubu, 6/15-16)

Diqqət yetirin! Görməyiniz lazım olan düzgün işləri nümayiş (göstəriş) üçün insanların gözü qarşısında görməyin. Belə etsəniz, göylərdəki Rəbbinizdən mükafat ala bilməzsiniz. Dua edəcəyiniz vaxt otağınıza girib qapını örtün və qeybdə olan Rəbbinizə dua edin. Gizli şəkildə ediləni görən Rəbbiniz sizi mükafatlandıracaq. Dua etdiyiniz vaxt, bütpərəstlər kimi boş sözləri təkrarlamayın. Onlar, çoxlu söz işlətməklə səslərini eşitdirə biləcəklərini zənn edərlər. Siz onlara bənzəməyin! Çünki Rəbbiniz nələrə ehtiyacınız olduğunu hələ siz Ondan istəmədən əvvəl bilir. Yoldan çıxarılmağımıza icazə vermə. Pis olandan bizi xilas et. Çünki hakimiyyət, güc və ucalıq əbədiyyən Sənindir. (Matta 6/1-8, 13)

İncildə bildirilən bu həqiqətlər, Quranda bildirilənlərlə uyğunluq təşkil edir. Onsuz da bunlar, tarixin əvvəlindən indiyə qədər bütün peyğəmbərlərin öyrətdiyi mütləq həqiqətlərdir: Zamanı, məkanı, insanı, bütün aləmləri və varlıqları Allah yaratmışdır. Rəbbimiz, hər cür nöqsan və çatışmazlıqdan uzaqdır. O, Üstün və Ucadır. Hər hadisə Rəbbimizin icazəsiylə və təqdiriylə gerçəkləşər. Quranda bildirilən ifadəylə, Allah istəmədən, yer üzündə bir yarpaq belə düşməz, bir dişi hamilə qalmaz və heç bir canlı Onun məlumatı olmadan doğura bilməz. Allah, gizlini və açıqda olan hər şeyi bilən və hər şeyə qadir olandır. Allah istədiyini etməyə qadirdir, sonsuz güc və qüdrət sahibidir. Bir şeyin olmasını istədiyi vaxt, ona yalnız "ol" deməsi kifayətdir. Onun üçün heç nə qeyri-mümkün deyil. Kainatdakı bütün hakimiyyət və qüdrətin yeganə sahibi Allahdır.

İncildə Allahın bütün kainat üzərindəki bu mütləq hakimiyyəti çox açıq ifadələrlə göstərilir. İnsanlara bütün güc və səlahiyyətlərini verənin aləmlərin Rəbbi olan Allah olduğu müxtəlif nümunələrlə açıqlanır. Yer üzündəki bütün hadisələri meydana gətirən, bütün varlıqlara həyat verən uca Rəbbimizdir.

Bədəni öldürə bilən, lakin canı öldürə bilməyənlərdən qorxmayın. Canı da, bədəni də cəhənnəmdə məhv edə billəndən qorxun. İki sərçə bir qəpiyə satılar, elə deyilmi? Belə olduğu halda, biri belə Rəbbinizin məlumatı olmadan yerə enməz. (Matta, 10/28-29)

Əgər özünə göydən verilməsə heç kim təkbaşına nəsə ala bilməz. (Yuhanna, 3/27)

...Çörəyi göydən Musa vermədi. Sizə göydən həqiqi çörəyi verən Rəbbimdir. (Yuhanna, 6/32)

Sizi məhkəməyə verdikləri vaxt, nəyi necə söyləyəcəyinizi düşünərək narahat olmayın. Nə söyləyəcəyiniz o anda sizə bildiriləcək. Çünki siz danışmayacaqsınız, Rəbbinizin Ruhu sizin vasitənizlə danışacaq. (Matta, 10/19-20)

Xilasedicimiz təkcə Allahdır, sizi düşməkdən qoruyacaq, O sizi Öz uca hüzuruna böyük sevinc içində ləkəsiz halda çıxardacaq gücdədir... (Yahudanın Mektubu, 24-25)

O günü və saatı, nə göydəki mələklər, nə də elçi bilər; Allahdan başqa heç kəs bilməz. (Matta, 24/36)

Ölümsüzlük təkcə Ona məxsusdur... Onu nə görən olmuşdur, nə də kimsə görə bilər... (Timoteus'a 1. Mektup, 6/16)

İçimizdə ölümə məhkum olduğumuzu hiss etdik. Amma bu, özümüzə deyil, ölüləri diriIdən Allaha güvənməyimiz üçün oldu. (Pavlus'un Korintlilere İkinci Mektubu, 1/9)

Bütün bu Əhdi-Cədid ayələri, həqiqət xristianlıqda Allaha istiqamətli səmimi və sidq-ürəkdən bir iman olduğunu açıq şəkildə göstərir. Lakin bu doğru inanclar sırasına, təslis kimi batil bir inanc əlavə olunmuş və bu da xristianlığı dəyişdirmişdir.

# İncildə təsvir edilən "Allahın peyğəmbəri hz. İsa"

Xristianlıq müxtəlif məzhəblərə, bu məzhəblər də öz aralarında müxtəlif təriqətlərə ayrılır. İncili müxtəlif şəkillərdə şərh edən, müxtəlif tətbiqlərə sahib çox müxtəlif dini cərəyanlar, kilsələr var. Lakin bu fərqli təriqətlərin çox böyük hissəsinin həmrəy şəkildə qəbul etdikləri iman təməli "təslis" inancıdır.

Tarix boyu təslis inancını rədd edən müxtəlif cərəyanlar ortaya çıxmış, lakin bu cərəyanların böyüyüb güclənmələrinin qarşısı, çoxluğu meydana gətirən təslis inancı müdafiəçiləri tərəfindən alınmışdır. Bu cərəyanlar dərhal "azğın" elan edilmiş, təzyiqə məruz qalmış və müəyyən şəkildə yox edilmişdirlər. Kitabın sonrakı hissələrində görəcəyimiz azlıq təşkil edən bəzi qruplar istisna olmaqla, təslis inancı, xristian aləmində əsasən qəbul edilmiş və ya qəbul edilməyə məcbur edilmişdir.

Kitabın başından bəri ifadə etdiyimiz kimi təslis inancı Qurana tamamilə zidd bir inancdır və İncildəki ayələr hz. İsanın həyatının heç bir anında belə bir iddia etmədiyini, belə bir şeyi eyham yoluyla belə vurğulamadığını, hətta bu kimi təşəbbüslərin qarşısını bilavasitə özünün aldığını, hər danşığında Allahı təriflədiyini və ucaltdığını göstərir. Hazırkı dövrdə təslis inancına qarşı çıxan ətrafların ən çox üzərində dayandıqları mövzulardan biri də onsuz da budur: Hz. İsanın insan kimliyi.

## Hz. İsanın həyatı təslis iddiasını yalanlayır

İncildə hz. İsanın həyatı və bu dəyərli elçinin təbliği ilə əlaqədar verilən məlumatlar və hz. İsanın hikmətli öyüdləri təslis inancından ötrü əsrlərdən bəri görməzlikdən gəlinir. Təslis inancı başları o qədər qarışdırır ki, bunun nəticəsində hz. İsa ilahlaşdırılır və sanki özündən mədət umulacaq hala gətirilir.

Qurana görə hz. İsa, Allahın insanlara xəbərdar edici və qorxuducu kimi göndərdiyi, dünyaya gəlməsindən Öz Qatına alınmasına qədər həyatının hər anında bənzərsiz möcüzələr yaradaraq kömək edən mübarək peyğəmbəridir. Onun doğumu Allahın çox böyük möcüzəsidir. Lakin doğumundan sonra o da bütün insanlar kimi bir həyat yaşamışdır. Hz. İsa da digər insanlar kimi Allahın "ol" deməsiylə yaranmışdır və Allah qarşısındakı acizliyindən xəbərdar olan, Allaha möhtac bir insandır. İstər Quran ayələrində, istərsə də İncildə hz. İsanın bəşər xüsusiyyətləri çox müxtəlif nümunələrlə təsvir edilir. Məsələn, əvvəlki hissələrdə də ifadə etdiyimiz kimi, Rəbbimiz Maidə surəsinin 75-ci ayəsində hz. İsa və hz. Məryəm barədə: "...ikisi də yemək yeyərdilər..." deyə buyurmuş, onların bir mələk olmadıqlarını, digər insanlar kimi olduqlarını ifadə etmişdir.

İncildə qeyd olunan bir çox nümunədə hz. İsanın insan xüsusiyyətlərindən bəhs edilir. Bunlardan bəziləri belədir:

## Hz. İsanın doğumu, nəsli, yaxınları

İncildə hz. İsanın nəsli və dünyaya gəlməsiylə əlaqədar müxtəlif açıqlamalar var. Bu məlumatlara görə hz. İsa, hz. Davudun nəslindən gəlir. Hz. İsa xalq arasında tanınan biridir. Xalq onun kimin nəslindən gəldiyini, harada doğulub böyüdüyünü bilir. Hz. İsanın ailəsi xalq tərəfindən yaxından tanınır:

Keçmiş əsrlərdən bəri müqəddəs peyğəmbərlərinin ağzından bildirdiyi kimi, qulu Davudun nəslindən bizim üçün güclü xilasedici yaratdı; düşmənlərimizdən, bizdən nifrət edənlərin hamısının əlindən xilas olmağımızı təmin etdi. (Luka, 1/69-71)

İbrahim oğlu, Davud oğlu İsa Məsihin nəsliylə əlaqədar qeyd belədir... (Matta, 1/1-2)

Daha sonra İsanın anası və qardaşları gəldi. Çöldə dayandılar, xəbər göndərib onu çağırdılar. (Markos, 3/31)

Öndən gedən və arxadan gələn izdihamlı kütlələr belə qışqırırdılar: "Davud oğluna şükürlər olsun! Rəbbin adıyla gələnə təriflər olsun, ən ucalarda şükürlər olsun!" İsa Qüdsə girdiyi vaxt bütün şəhər: "bu kimdir?" deyərək çalxalandı. İzdihamlı kütlələr: "bu, Qalileyanın Nazaret şəhərindən olan İsa peyğəmbərdir" deyirdi. (Matta, 21/9-11)

Bu Məryəmin oğlu, Yaqub, Yose, Yahuda və Siminin qardaşı olan dülgər deyildirmi? Bacıları burada, aramızda yaşamırmı?.. (Markos, 6/3)

## Hz. İsanın bəşəri xüsusiyyətləri

Təslis inancında hz. İsanın bəşəri xüsusiyyətlərini görməzlikdən gəlmək anlayışı var. Halbuki İncildə hz. İsa ilə əlaqədar verilən məlumatlardan, bu dəyərli insandan: "Allahın oğlu deyil, Allahın mübarək elçisi kimi bəhs edildiyi" açıq şəkildə aydın olur. Onun da hər insan kimi bir həyat yaşadığı görülür. O da digər insanlar kimi doğulmuş, körpəlik, uşaqlıq və gənclik mərhələrindən keçmişdir. Yemək yemə ehtiyacı hiss etdiyi vaxt, yanındakı həvariləriylə birlikdə Allaha şükür edərək yemək yemiş, uzun bir gündən sonra hər insan kimi yorulmuş və dincəlmək ehtiyacı hiss etmişdir. Bununla yanaşı, hz. İsanın yuyunmaq, təmizlənmək kimi hər cür fiziki ehtiyacına da ətrafındakılar şahid olmuşdur. Bunlar bir insanın ödəməli olduğu təbii ehtiyaclarıdır. Həmçinin təslis inancında hz. İsaya isnad edilməyə çalışılan ilahlıq iddiasıyla da tamamilə ziddiyyət təşkil edir.

İsa bilik və boy cəhətdən inkişaf edir, Allahdan və insanlardan yaxşılıq görürdü. (Luka, 2/52)

Onlarla süfrədə oturarkən İsa çörək götürdü, şükür etdi və çörəyi bölüb onlara verdi. (Luka, 24/30)

Sevincdən hələ inana bilməyən, çaşbaş qalmış tələbələrindən: "Sizdə yeməyə bir şey varmı?" deyə soruşdu. Özünə bir qədər qızarmış balıq verdilər. İsa onu alıb gözlərinin qarşısında yedi. (Luka, 24/41-43)

Mayasız çörək bayramının bayramının ilk günü tələbələr İsanın yanına gələrək: "Pasxa yeməyini yeməyin üçün harada hazırlıq görməyimizi istəyərsən?" deyə soruşdular. (Matta, 26/17)

Daha sonra İsa, Levi'nin evində yemək yeyən vaxtı... (Markos, 2/15)

İsa bundan sonra evə getdi. Yenə elə böyük insan kütləsi toplandı ki, İsayla tələbələri yemək belə yeyə bilmədilər. (Markos, 3/20)

Süfrə başına əyləşmiş halda yemək yeyərlərkən İsa: "Sizə doğrusunu söyləyim" dedi, "sizdən biri, mənimlə yemək yeyən biri, məni satacaq" (Markos, 14/18)

Fəriseylərdən biri İsanı yeməyə dəvət etdi. O da onun evinə gedib süfrə başına əyləşdi. (Luka, 7/36)

...İsa, səfərdən ötrü yorulduğu üçün quyunun yanında əyləşmişdi. Saat on iki radələri idi. Samariyalı bir qadın quyudan su çəkməyə gəldi. İsa ona: "Mənə su ver, içim" dedi. (Yuhanna, 4/6-7)

İsa, qayığın uc hissəsində bir yastığa yaslanmış vəziyyətdə yatırdı... (Markos, 4/38)

İsa onlara: "Gəlin, tək başımıza tənha bir yerə gedək ki, bir qədər istirahət edəsiniz" dedi. Gələn-gedən elə çoxdu ki, yemək yeməyə belə vaxt tapa bilmirdilər. (Markos, 6/31)

...Səfərdən ötrü yorulan İsa quyunun yanında əyləşdi... (Yuhanna, 4/4)

İncildən götürdüyümüz bu ayələr hz. İsanın digər bütün insanlar kimi Rəbbimizin rəhmətinə möhtac insan olduğunu göstərir. O, Allahın bütün aləmlərdən üstün etdiyi, peyğəmbərlik mövqesiylə şərəfləndirdiyi və möcüzələrlə Öz lütfündən bəxş etdiyi, çox üstün əxlaqlı bir quludur. O seçilmiş xüsusiyyətlərə sahib bir insandır, lakin eyni zamanda digər canlılar kimi Allahın rəhmətinə möhtac, aciz bir quldur. Halbuki canlı və cansız bütün kainatın yaradıcısı olan Allah həmişə diridir, hər an hər şeyə hakimdir, hər şeyi bilər, hər şeyə qadirdir, Onu yuxu və mürgü tutmaz. O hər cür acizlikdən də uzaqdır. O, yaratdıqlarına müxtəlif acizliklər vermiş və sahib olduqları bu çatışmazlıqları bilərək yalnız Özünə qulluq etmələrini, hər şeyi Özündən istəmələrini əmr etmişdir.

## Hz. İsa da bütün insanlar kimi Allahın rəhmətinə möhtac bir quldur

Həm Quran ayələrində, həm də İncildə hz. İsanın Allahın sonsuz lütfü sayəsində müxtəlif möcüzələr göstərdiyindən bəhs edilir. Lakin hz. İsa hər danışığında; etdiyi təbliğlərində və həvarilərlə olan söhbətlərində bu möcüzələri Allahın diləməsiylə gerçəkləşdirdiyini bildirmişdir. Danışanın özü deyil, Allah olduğunu, bütün görülən işləri Allahın gördüyünü, Allahın bütün canlılar üzərində tək hakim olduğunu tez-tez xatırlatmışdır. Özünün Allahın risalətini insanlara çatdıran bir qul olduğunu, Allahın diləməsiylə bu etdiklərini gerçəkləşdirdiyini, etdiyi hər şeyin Allahın nəzarəti altında olduğunu vurğulamışdır. Bu açıqlamalarından bəziləri belədir:

Hər şey mənə Rəbbim tərəfindən verildi... (Matta, 11/27)

...Allahın mənə verdiyi buyruğa görə iş görürəm... (Yuhanna, 14/31)

...Sizə söylədiyim sözləri özümdən söyləmirəm... (Yuhanna, 14/10)

...Sizin üçün əhəmiyyətlə vurğulayıram ki, elçi təkbaşına heç nə edə bilməz... (Yuhanna, 5/19)

...Mən öz istəyimlə deyil, məni göndərəndən ilham alıb öyrədirəm. (Yuhanna, 7/16)

Onları mənə verən Rəbbim hər varlıqdan üstündür... (Yuhanna, 10/29)

Çünki mən özlüyümdən danışmadım. Nə deyəcəyimi, nə danışacağımı məni göndərən Allah buyurdu. Onun buyruğununsa əbədi həyat olduğunu bilirəm. Bunun üçün də, danışdığım hər sözü Allahın mənə bildirdiyi kimi söyləyirəm. (Yuhanna, 12/49-50)

İsa Allahın hər şeyi öz əllərinə verdiyini və Allahdan gəlmiş olub, yenə Ona qayıtdığını bilirdi. (Yuhanna, 13/3)

Məni göndərən mənimlə bərabərdir. O məni tənha qoymadı. Çünki mən həmişə Onun bəyəndiyi işləri görürəm. (Yuhanna, 8/29)

Mən öz-özümə heç bir şey edə bilmərəm; eşitdiyim kimi mühakimə edərəm. Mənim mühakiməm doğrudur. Çünki öz istəyimi deyil, məni göndərənin istəyini axtararam. (Yuhanna, 5/30)

Rəbbim özünə imkan yaratmadıqca, heç kəs mənə gələ bilməz... (Yuhanna, 6/65)

İncildə qeyd olunan yuxarıdakı ayələr təslis inancı baxımından çox əhəmiyyətlidir. Çünki bu ifadələrdə, hz. İsanın ilah deyil (Allahı tənzih edirik), Allaha möhtac, Allahın istədiyi kimi hərəkət edən, Allahın əmr etdiyi şəkildə qərar verən, Allahın ilhamıyla danışan, Allahın bəyənəcəyi işlər görən bir qul olduğu bilavasitə hz. İsanın özü tərəfindən dilə gətirilir. Lakin təslis inancında bütün bu hikmətli və səmimi ifadələr görməzlikdən gəlinir, hz. İsa isə mövcud olmaq üçün heç nəyə ehtiyacı olmayan, üstün varlıq kimi tanıdılmaq istənilir. Halbuki bunlar həqiqəti əks etdirmədiyi kimi, həm Rəbbimizin uca Şəxsinə, həm də Onun

mübarək elçisi hz. İsaya qarşı hörmətdən kənar yanaşma tərzini əks etdirir. Rəbbimiz bütün bu bənzətmələrdən uzaqdır. O, heç nəyə ehtiyacı olmayan, bütün nöqsan və çatışmazlıqlardan uzaq, sonsuz və tək güc sahibi olan Allahdır. Ona bərabər və tay olan bir varlıq yoxdur.

Buradakı ifadədə hz. İsanın yalnız Allaha qulluq etməklə əlaqədar hökmlərə tabe olduğu açıq şəkildə görülür. Yalnız Allaha qulluq edən hz. İsanı guya Allahla bərabər hesab edən təslis inancının nə qədər batil inanc olduğu, buradan da aydın ola bilir (Allahı tənzih edirik).

## Hz. İsanın Allaha dua etməsi

Təslis inancını yalanlayan digər bir dəlil isə, bu mübarək insanın Rəbbimizə etdiyi səmimi dualarıdır. Dua edən insan Allahın varlığını və vahidliyini, Onun qarşısındakı acizliyini, özünə təkcə Onun kömək edəcəyini və Ondan başqa ibadət ediləcək heç bir güc olmadığını qəbul etmiş deməkdir. Dua Allaha olan dərin təslimiyyətin, insanın öz acizliyini dərk etdiyinin ən gözəl ifadə formalarından biridir. Rəbbimiz bütün nöqsan sifətlərdən uzaq olan, sonsuz qüdrət sahibidir. Kainatda bütün qüdrət Ona məxsusdur. Kömək və bağışlanma, yalnız və yalnız, hər kəsin Özünə möhtac olduğu, Özü isə heç kəsə möhtac olmayan Allahdan istənilər. Hz. İsanın duaları da Allaha olan təslimiyyətinin və sahib olduğu güclü Allah qorxusunun ən səmimi göstəricilərindəndir. İncildə bildirildiyinə görə hz. İsa həm şükür etmək, həm də hər hansı bir şey istəmək məqsədiylə Rəbbimizə dua etmişdir. Özünə istədiklərini verə biləcək tək və mütləq gücün Allah olduğunu bilmişdir:

Bir qədər qabağa gedərək üzüstə yerə qapandı və dua etməyə başladı... (Matta, 26/39)

Xalqa çəmənlərin üstündə əyləşmələrini buyurduqdan sonra, beş çörəklə iki balığı götürdü, gözlərini göyə tutaraq təşəkkür duasını etdi... (Matta, 14/19)

Xalqı tərk etdikdən sonra dua etmək üçün tək başına dağa çıxdı. Axşam olarkən orada yalqız idi. (Matta, 14/23)

Səhər çox erkəndən, hava hələ işıqlanmadan İsa oyandı, evdən çıxıb tənha bir yerə getdi, orada dua etməyə başladı. (Markos, 1/35)

Onları yola saldıqdan sonra, dua etmək üçün dağa çıxdı. (Markos, 6/46)

İsa tələbələrinə: "Mən dua edərkən burada oturun" dedi. (Markos, 14/32)

O günlərdə İsa, dua etmək üçün dağa çıxdı və bütün gecəni Allaha dua edərək keçirdi. (Luka, 6/12)

İsa bir yerdə dua edirdi. Duasını bitirdikdən sonra tələbələrindən biri Ona: "Müəllim, Yəhyanın öz tələbələrinə öyrətdiyi kimi sən də bizə dua etməyi öyrət" dedi. (Luka, 11/1)

...Mən, imanını itirməyəsən deyə sənin üçün dua etdim. Geri qayıtdığın vaxt qardaşlarını gücləndir". (Luka, 22/32)

Qurandakı bir ayədə hz. İsanın, Rəbbimizin ən gözəl sifətlərini xatırlayaraq etdiyi səmimi duası belə bildirilmişdir:

**Məryəm oğlu İsa dedi: “Ey Allahım! Ey bizim Rəbbimiz! Bizə göydən bir süfrə endir ki, bizim həm birincimiz, həm də axırıncımız üçün bir bayram və Səndən bir möcüzə olsun. Bizə ruzi ver, Sən ruzi verənlərin ən yaxşısısan!” (Maidə surəsi, 114)**

Allah hz. İsanın bu duasını qəbul etmiş və belə buyurmuşdur:

**Allah dedi: “Mən onu sizə endirəcəyəm. Amma bundan sonra aranızdan inkar edənlərə aləmlərdən heç kəsə vermədiyim bir əzabı verəcəyəm”. (Maidə surəsi, 115)**

Hz. İsa Allaha dua edərək Odan bir süfrə endirməsini istəmişdir. Allah hz. İsanın bu duasını qəbul edərək Onun istəyini yerinə yetirmişdir. Lakin unudulmamalıdır ki, hz. İsanın bu möcüzəni gerçəkləşdirəcək müstəqil və özünəməxsus gücü yoxdur. O, Allahın sonsuz yaratma gücünü insanlara göstərməsində elçilik vəzifəsini boynuna götürən çox mübarək quldur.

## İncildə hz. İsa "Allahın elçisi" adlandırılmışdır

Təslis inancında hz. İsanı Allahın risalətini təbliğ edən bir elçi və ya digər peyğəmbərlər kimi Allahın göndərdiyi bir qul kimi deyil, "Allahın oğlu" (Allahı tənzih edirik) kimi görmə anlayışı var. Halbuki İncildə hz. İsanın Allahın vəhyini təbliğ edən, insanları iman etməyə və Allaha təslim olmağa dəvət edən bir elçi olduğu bildirilir. Hz. İsa da, "göndərilmiş elçi" olduğunu təbliğlərində həmişə dilə gətirib. Hz. İsanın Allaha söylədiyi: "Mən onlara Sənin sözünü çatdırdım" (Yuhanna, 17/14) sözü xüsusilə diqqəti cəlb edir. O da hz. Süleyman, hz. Musa, hz. Davud, hz. Məhəmməd (s.ə.v) kimi bir peyğəmbərdir, Allahın risalətini təbliğ edən bir elçidir. Necə ki, bir İncil ayəsində hz. Musanın: "Tanrı sizə öz qardaşlarınızın arasından mənim kimi bir peyğəmbər çıxardacaq" (Elçilerin İşleri, 7/37) söylədiyi bildirilir. Hz. İsanın peyğəmbərliyini təsdiq edən İncil ayələrindən bəziləri belədir:

Məni sevməyən sözlərimə əməl etməz. Eşitdiyiniz söz mənim deyil, məni göndərən Allahındır. (Yuhanna, 14/24)

Əgər Rəbbimin işlərini görmürəmsə mənə iman etməyin. Lakin görürəmsə, mənə iman etməsəniz belə, gördüyüm işlərə iman edin... (Yuhanna, 10/37-38)

Xalq İsanın göstərdiyi möcüzəni gördükdə: "Həqiqətən dünyaya gələcək peyğəmbər budur" dedi. (Yuhanna, 6/14)

..."O insan, Allahın və bütün xalqın qarşısında istər söz, istərsə də hərəkətdə güclü peyğəmbər idi". (Luka, 24/19)

...Çünki məni göndərəni tanımırlar. (Yuhanna, 15/21)

Allah sizi, tutduğunuz pis yoldan döndərib günahdan təmizləmək üçün, qulunu ortaya çıxardıb ilk öncə sizə göndərdi". (Elçilerin İşleri, 3/26)

Əbədi həyat, tək həqiqi Rəbb olan Səni və göndərdiyin İsa Məsihi tanımalarıdır. Görməyim üçün mənə verdiyin işi tamamlamaqla Səni yer üzündə ucaltdım. Dünyada mənə verdiyin insanlara Sənin adını açıqladım. Onlar sənindilər, mənə verdin və Sənin sözünə tabe oldular. Artıq mənə verdiyin hər şeyin Səndən gəldiyini bilirlər. Çünki mənə çatdırdığın sözləri onlara çatdırdım, onlar da qəbul etdilər. Sənin qatından çıxıb gəldiyimi həqiqətən anladılar, məni Sənin göndərdiyinə iman etdilər. (Yuhanna, 17/3-8)

Sizə doğrusunu deyim, mənim göndərdiyim hər hansı kəsi qəbul edən məni qəbul etmiş olar. Məni qəbul edən də, məni göndərəni qəbul etmiş olar. (Yuhanna, 13/20)

...Mən öz-özümə gəlmədim. Amma məni göndərən haqqdır. Necə ki, Onu tanımırsınız. Halbuki mən Onu tanıyıram. Çünki Ondanam və məni O göndərdi. (Yuhanna, 7/28-29)

İsa: "Başqa yerə gedək, yaxın qəsəbələrə. Oralarda da sözü yaymalıyam. Çünki bunun üçün gəldim" dedi. (Markos, 1/38)

İsa: "Allah tərəfindən təsdiqlənən iş, Onun göndərdiyi insana iman etməyinizdir" deyə cavab verdi. (Yuhanna, 6/29)

Allahın göndərdiyi insan Allahın sözlərini danışar... (Yuhanna, 3/34)

...Amma məni göndərən haqqdır və mən Ondan eşitdiklərimi dünyaya bildirirəm. (Yuhanna, 8/26)

...İsa: "Mənim, sizin bilmədiyiniz bir yeməyim var" dedi. Tələbələr bir-birlərindən: "Görəsən biri ona yeməkmi gətirdi?" deyə soruşdular. İsa: "Mənim yeməyim, məni göndərənin istəyini yerinə yetirmək və Onun işini tamamlamaqdır" dedi. (Yuhanna, 4/31-34)

## Hz. İsanın təbliği: Allaha iman və qulluq

Təslis inancına görə xristianlığın ilkin şərti hz. İsaya imandır və təslis inancına inanmayan bir insan əsil xristian deyildir. Halbuki İncildə bu iddiaları çürüdən çox konkret açıqlamalar var. Xüsusilə də hz. İsanın təbliği, insanları yalnız Allaha iman etməyə dəvət etməyə əsaslanır. Hz. İsa ətrafındakı insanların suallarını, şübhələrini, şübhəli yanaşmalarını onları Allaha təslim olmağa dəvət edərək aradan qaldırır.

İsa ona bu cavabı verdi: ""Allahın Rəbbə tapınacaq, təkcə Ona qulluq edəcəksən" deyə yazılmışdır"". (Luka, 4/8)

"Sizə doğrusunu söyləyim, sözümü eşidib məni göndərənə iman edənin əbədi həyatı var. Belə biri mühakimə olunmaz, ölümdən həyata keçmişdir. (Yuhanna, 5/24)

Heç kim iki ağaya qulluq edə bilməz. Ya birindən nifrət edib o birisini sevər, ya da birinə bağlanıb o birisini xor görər. Siz həm Allaha, həm də pula qulluq edə bilməzsiniz. (Matta, 6/24)

İsa ona bu cavabı verdi: "Allahın olan Rəbbi bütün qəlbinlə, bütün canınla və bütün ağlınla sev" (Matta, 22/37)

Onların mübahisələrini dinləyən və İsanın onlara gözəl cavab verdiyini görən bir din alimi yaxınlaşıb ondan: "Bütün buyruqların ən əhəmiyyətlisi hansıdır?" deyə soruşdu. İsa belə cavab verdi: "Ən əhəmiyyətlisi budur: Dinlə, ey İsrail! Allahımız olan Rəbb tək Rəbbdir. Allahın olan Rəbbi bütün qəlbinlə, bütün canınla, bütün ağlınla və bütün gücünlə sev. İkincisi də budur: Qonşunu özün kimi sev. Bunlardan daha böyük buyruq yoxdur". Din alimi İsaya: "Yaxşı söylədin, müəllimim" dedi. "Allah təkdir və Ondan başqası yoxdur" deməklə doğrunu söylədin. (Markos, 12/28-32)

Bundan sonra daşı qaldırdılar. İsa gözlərini səmaya tutaraq belə dedi: "Rəbb, məni eşitdiyin üçün Sənə şükür edirəm. Məni həmişə eşitdiyini bilirdim. Lakin bunu, ətrafda dayanan xalq üçün, məni Sənin göndərdiyinə iman etsinlər deyə söylədim". (Yuhanna, 11/41-42)

İsa uca səslə: "Mənə iman edən mənə deyil, məni göndərənə iman etmiş olar" dedi. "Məni görən, məni göndərəni də görər. Mənə iman edən heç kəs qaranlıqda qalmasın deyə, dünyaya işıq olaraq gəldim. Sözlərimi eşidib də onlara əməl etməyəni mühakimə etmərəm. Çünki mən dünyanı mühakimə etməyə deyil, dünyanı xilas etməyə gəldim. Məni rədd edən və sözlərimi qəbul etməyən insanı mühakimə edəcək biri var. Söylədiyim söz o insanı son gündə mühakimə edəcək. Çünki mən öz istəyimlə danışmadım. Məni göndərən Allah, nəyi söyləməli və nəyi danışmalı olduğumu mənə buyurdu. Onun buyruğunun əbədi həyat olduğunu bilərəm. Nə söyləyirəmsə, Allahın mənə söylədiyi kimi söyləyirəm". (Yuhanna, 12/44-50)

Yuxarıdakı İncil ayələrində də görüldüyü kimi hz. İsa digər bütün peyğəmbərlər kimi Allaha bütün qəlbiylə təslim olmuş mübarək quldur. İnsanlara Allahın vəhyini çatdırmış, onları Allaha, Onu tək ilah qəbul edib iman etməyə dəvət etmişdir. Yer üzündə davam edən həyatı boyu çox çətin şərtlərlə qarşılaşmış, təbliğinə mane törətməyə çalışan çox sayda din əleyhdarı insan olmasına baxmayaraq, çox böyük səbir göstərərək Allahın dinini çatdırmağa davam etmişdir. Güclü Allah qorxusuyla son ana qədər insanları bütün kainatın yaradıcısı olan Allaha iman etməyə və Ona qulluq etməyə dəvət etmişdir. Bütün bunlar hz. İsanın Allahın oğlu deyil (Allahı tənzih edirik), qövmünə Allahdan müjdələr gətirən, insanları axirət günüylə xəbərdar edən, gözəl əxlaqa dəvət edib hər cür fanatizmdən xilas olmaları üçün onları çağıran bir peyğəmbər olduğunu açıq şəkildə göstərir. Təkcə hz. İsa deyil, hz. İsanın təbliğini dinləyən, öyüdlərinə qulaq asan və bu mübarək insanın izindən gedən ilk İsəvilər də hz. İsa kimi hənifdirlər. Gördükləri təzyiqlər onları əsla qorxutmamış, Allahı tək ilah qəbul edənlər olaraq hz. İsanın yolundan qətiyyən dönməmişdirlər. Bu insanlar Nəsranilərdir.

## Hz. İsanın təbliğinə tabe olan səmimi xristianlar: Nəsranilər

Hz. İsa arxasında sadiq bir mömin cəmiyyət qoyub getdi. Əhdi-Cədidə görə hz. İsanın seçdiyi on iki həvari, hz. İsanın ailəsi və hz. İsaya iman edən digər yəhudilərdən meydana gələn bu cəmiyyət, digər yəhudilər tərəfindən "nəsranilər" (nazareans) adlandırıldı.(11) Bu ifadənin İncildə hz. İsa üçün işlədilən "Nazaretli İsa" deyimindən törədiyi və ya bu deyimlə eyni qaynaqdan gəldiyi qəbul edilir.

Nəsranilər Əhdi-Ətiqə və hz. Musanın hökmlərinə tabe olmağa davam edir, yəhudi inancının əmr və qadağalarına tabe olurdular. Nəsraniləri digər yəhudilərdən ayıran ən əhəmiyyətli fərq isə, hz. İsanın gətirdiyi yeni dini mənimsəmələri və onu peyğəmbər və Məsih kimi qəbul etmələri idi. Hz. İsanın, daha əvvəldən hz. Musa tərəfindən xəbər verilən(12) və Allahın, yəhudiləri doğru yola yönəldib dinlərini batil inanclardan təmizləmək üçün göndərdiyi peyğəmbər olduğuna iman edirdilər. Nəsranilər hz. İsanın Allah Qatına alınmasından sonra, onun gətirdiyi xəbərdarlığı yaymaq üçün bütün imkanlarını səfərbər edərək mübarizə apardılar. Əhdi-Cədidin İncillərdən sonra ən əhəmiyyətli kitabı qəbul edilən "Həvarilərin İşləri", bu mövzu haqqında əhəmiyyətli məlumatlar verir.

## Nəsranilərin xəbərdarlığı

Həvarilərin İşlərində yazıldığına görə, hz. İsanın tələbələri peyğəmbərlərinin Allah Qatına alınmasından sonra tez-tez təzyiq görməyə başladılar. Dövrün Yəhudi din xadimləri, onları öz aləmlərində azğın məzhəb kimi görür və əldən gəldiyi qədər susdurmaq və yox etmək istəyirdilər. Romalıların gözündə də təhlükəli mövqedəydilər. Lakin təzyiqlər və qınamalar onları ruhdan salmadı. Bunun ən böyük sirri isə, şübhəsiz ki, Allaha olan inancları

idi. Bu inanc onlara böyük həmrəylik və qardaşlıq da qazandırmışdı. Həvarilərin İşlərində bu vəziyyət belə bildirilir:

Bütün iman gətirənlər bir yerdə olur, hər şeydən ortaq şəkildə istifadə edirdilər. Mallarını-mülklərini satır və bunun pulunu hər kəsə ehtiyacına görə paylayırdılar. Hər gün məbəddə toplanmağa davam edən iman gətirənlər, öz evlərində də çörək kəsib həqiqi sevinc və təvazökarlıqla yemək yeyir və Allahı tərifləyirdilər. Bütün xalqın rəğbətini qazanmışdılar. Rəbb də hər gün yeni xilas olanları onların arasına qatırdı. (Həvarilərin İşləri, 2/44-47)

Digər bir hissədə, Nəsranilər arasındakı həmrəylik və fədakarlıq belə qeyd olunur:

İman gətirənlərin cəmiyyəti qəlbdə və düşüncədə birdi. Heç kəs sahib olduğu hər hansı bir şey barədə "bu mənimdir" demir, hamısı bütün şeylərini ortaq qəbul edirdi... Hamısının üzərində Allahın böyük lütfü vardı. Aralarında yoxsul olan yoxdu. Çünki torpaq və ya ev sahibi olanlar bunları satar, aldıqları qarşılığı isə, gətirib elçilərin buyruğuna verərdilər; bu da hər kəsə ehtiyacına görə paylanardı. Məsələn, Kiprdə doğulmuş bir Levili olan və elçilərin Barnaba, yəni “cəsarət verən” kimi adlandırdıqları Yusif, sahib olduğu bir tarlanı satdı, pulunu gətirib elçilərin buyruğuna verdi. (Elçilerin İşleri, 4/32-37)

Bu qədər böyük daxili intizama sahib olan nəsranilər, hz. İsanın təbliğini digər yəhudilərə çatdırmağa davam etdilər. Hz. İsanı tanıdarkən də onun Allahın yəhudilərə göndərdiyi son peyğəmbər olduğunu söyləyirdilər. Həvari Peterin (Petrus) Süleyman məbədindəki bir qrup yəhudi qarşısında etdiyi bir çıxış, Həvarilərin İşlərində belə nəql olunur:

"İndi ey qardaşlar, rəhbərlərimiz kimi sizin də cahillikdən ötrü belə davrandığınızı bilirəm... Elə isə, günahlarınızın silinməsi üçün tövbə edin və Allaha qayıdın. Belə ki, Rəbb sizə yenilənmə fürsətləri versin və sizin üçün əvvəlcədən təyin olunmuş Məsihi, yəni İsanı göndərsin. Allahın qədim dövrlərdən bəri müqəddəs peyğəmbərlərinin ağzından bildirdiyi kimi, hər şeyin yenidən təşkil ediləcəyi vaxtadək İsa göydə qalmalıdır. Musa belə demişdi: “Tanrınız olan Rəbb sizin üçün, öz qardaşlarınız arasından mənim kimi bir peyğəmbər çıxardacaq. Onun sizə söyləyəcəyi hər sözü dinləyin. O peyğəmbəri dinləməyən hər kəs Allahın firqəsi arasından çıxardılıb yox ediləcək”.

Samuel və ondan sonra gəlib danışmış bütün peyğəmbərlər bu günləri çatdırmışdır. Siz peyğəmbərlərin və Allahın atalarınızla bağladığı əhdin varislərisiniz. Necə ki, Rəbb İbrahimə belə demişdi: “Sənin nəslin vasitəsilə yer üzündəki bütün xalqlar günahlardan təmizlənəcək, Allah, hamınızı pis yoldan döndərib günahlardan təmizləmək üçün qulunu ortaya çıxardıb ilk öncə sizə göndərdi". (Elçilerin İşleri, 3/17-26)

Bu ifadələrdə Peter (Petrus), hz. İsadan "Allahın qulu" olaraq bəhs edir və onun peyğəmbər olduğunu vurğulayır. Hz. İsanın hz. Musa tərəfindən xəbər verilmiş bir

peyğəmbər olduğu insanlara bildirilir və "Allahın Oğlu" kimi bir anlayış qeyd olunmur. Təslis inancından yaxud hz. İsaya isnad edilən saxta ilahlıq sifətindən də bəhs olunmur (Allahı tənzih edirik).

## Nəsranilərə göstərilən təzyiqlər

Həvarilərin İşlərində bildirildiyinə görə dövrün yəhudi din xadimləri nəsranilərin varlığından narahat oldu və onların təbliği yayıldıqca bu narahatlıq artdı. Həm yəhudi din xadimləri, həm də onlar tərəfindən qızışdırılan Roma rəhbərliyi onları, "siyasi cəhətdən" təhlükəli qrup hesab etdi və hədəf aldı. Tarixi məlumatlara görə, Nəsranilərə qarşı tətbiq olunan təzyiq siyasəti getdikcə gücləndi. Bir çox dəfə həbs olundular, qırmanclandılar və hz. İsanın adını xatırlamamaları üçün xəbərdar edildilər. 48-49-cu illərdə Nəsranilərin həbs olunması və cəzalandırılması xeyli artdı. Nəhayət təqribən 62-65-ci illərdə Nəsranilərin lideri həbs olundu və öldürüldü. Nəsranilərin digər yəhudilərlə, xüsusilə də qabaqcıl din xadimləriylə (saduqilər və fəriseylər) razılığa gələ bilməmələrinin səbəbi, İncil mətnlərinə görə, bu din xadimlərinin "nəsildən-nəslə ötürdükləri ənənələrlə Allahın sözünü qüvvədən salmaları" idi. (Markos, 7/13)

Əhdi-Cədidə görə hz. İsanın yaxın qohumlarının və həvarilərinin liderliyində yaşayan bu camaatın nəzərə çarpan xüsusiyyəti "Allahı tək ilah qəbul edərək, Ona" inanmaları idi. Nəsranilər üçün hz. İsa Allahın mübarək elçisi idi. Təslis inancı isə, onlar üçün heç nə ifadə etmirdi. Onlar üçün əhəmiyyətli olan hz. İsanın gətirdiyi mesajdı. Necə ki, Nəsrani yazılarında (məsələn, Əhdi-Cədiddəki "Yaqubun Məktubu"nda) həmişə Allaha imana dəvət edilir və daha çox imani anlayışlar üzərində dayanılır.

48-49-cu illər arasında Yəhudanın Romalı qubernatoru, çox sayda Nəsranini çarmıxa çəkdirdi. Romaya qarşı baş verən istənilən üsyan hərəkatında Nəsranilərin də rolu olduğu düşünülürdü. 50-ci illərdə təzyiq davam etdi. Nəsrani cəmiyyəti 65-ci ildə Qüdsdən çıxdı və Mesopotamiyaya doğru köç etdi.

## "Azğınlar" və ebionlar

Nəsranilər, ikinci əsrdən etibarən kilsə liderlərinin yazılarında "azğın" məzhəb olaraq xatırlanmağa başlandılar. Kilsənin əhəmiyyətli adlarından biri olan Yustin Martir (Justin Martyr), 150-ci ildə yazdığı bir mətndə, hz. İsanı Məsih kimi tanıyan, lakin yenə də onu normal bir insan hesab edən, yəni "Tanrının oğlu" (Allahı tənzih edirik) kimi görməyən, bir məzhəbdən danışmışdı. Yustin (Justin) bir məsələni də vurğulamışdı; bu insanlar təslis inancını müdafiə edən ətraflar tərəfindən pislənirdilər və iki tərəfin arası olduqca pisdi.(13)

Bundan təxminən yarım əsr sonrasa katolik rahib İrineus (Irenaeus), Adversus Hæreses (azğınlığa qarşı) adlı bəyannaməsini yayınladı. İrineusun ən çox tənqid etdiyi "azğın"ların başında isə, "ebionim" kimi adlandırdığı bir camaat gəlirdi. "Ebionim" sözü, ivrit dilində "ebion" sözünün cəmi idi və qısa şəkildə "kasıblar" mənasını verirdi.

İrineusa (Irenaeus) görə ebionlar camaatının "azğın" olmasının səbəbi isə, hz. İsanın normal insan olduğu istiqamətindəki inancları idi. Həmçinin yenə İrineusa (Irenaeus) görə, yəhudi hökmlərinin bütün qanunlarına hələ də diqqətlə tabe olur, digər tərəfdən də dörd İncil arasında təkcə Matta İncilini qəbul edirdilər.(14) Yazılı mənbələrdən həmin bu ebionlar camaatının Nəsranilər olduğu məlum olur. Kilsə liderləri "ebion" və "nəsrani" terminlərini həmişə eyni cəmiyyəti ifadə etmək üçün işlədiblər. Məsələn, 4-cü əsrin sonlarında Epifani (Epiphanius) adlı bir kilsə yazıçısı, yazdığı bir bəyannamədə "nəsrani" və "ebion" sözlərini eyni mənada və eyni qrupu ifadə etmək üçün dəyişikli şəkildə işlədirdi. Epifaniyə (Epiphanius) görə bu camaatın "azğınlığı" hz. İsanın saxta ilah olduğunu rədd etmələrindən və onu normal insan kimi xarakterizə etmələrindən qaynaqlanırdı. Epifani (Epiphanius) bu insanların, kilsənin təsdiqlədiyi Əhdi-Cədid kitablarını deyil, bu kitabların "başqa variantlarını" işlətdiklərini də vurğulayırdı.(15)

Ebionların hz. İsanı insan kimi gördükləri, ona ilahlıq isnad etmək inancına sahib olmadıqları, *"Time"* jurnalının 22 dekabr 2003-cü il tarixli sayında dərc olunan "The lost gospels" (itkin İncillər) başlıqlı bir məqalədə isə belə vurğulanırdı:

Ebionlar hz. İsaya inanır, lakin (tədqiqatçı) Ermanın (Ehrman) bildirdiyi kimi, onu yəhudilərin müqəddəs kitabında vəd edildiyi kimi, "yəhudilərə göndərilmiş yəhudi Məsihi" olaraq görürdülər. Ebionların inandığı hz. İsa, təslis inacının bir hissəsi deyildi. Onun bir insan olduğunu və xüsusiyyətinin yəhudi şəriətini mükəmməlləşdirmək olduğunu müdafiə edirdilər.(16)

Qüdsü tərk edən nəsranilər Suriya istiqamətinə köç etdilər və sonrakı bir neçə əsrdə Mesopotamiyada mövcudluqlarını davam etdirdilər. Lakin nəsranilər bir cəmiyyət halında bu ərazidə yaşasalar da, nəsrani təlimi getdikcə yayıldı və daha uzaq ərazilərə çatdı. Romadakı katolik kilsəsinin çatmadığı ərazilərdə, ən azı xristianlığın yaranmasından keçən ilk dörd əsrdə, nəsrani inancına sahib müxtəlif xristian məzhəbləri meydana gəldi. Nəsrani təliminə sahib çıxan və ya heç olmasa bu təlimdən təsirlənən həmin bu müxalif xristian hərəkatlarının ən məşhuru, əvvəlki hissələrdə üzərində dayandığımız İskəndəriyə yepiskopu Ariusun adıyla xatırlanan "arianlıq" hərəkatı idi.

# İncil müəllifləri
# hz. İsanın həyatına şahid olmayıblar

Xristianlıq dini barədə kifayət qədər məlumatı olmayan insanlar, İncil mətnlərinin hz. İsa ilə eyni dövrdə yazıldığını və tamamilə hz. İsanın sözlərinə əsaslandığını düşünürlər. Halbuki bu doğru deyil. İncil hz. İsadan xeyli sonra yazılı mətn halına gətirilmişdir. Markos İncilinin 70-ci ildə, Matta İncilinin 80-ci ildə, Luka İncilinin 90-cı ildə, Yuhanna İncilinin isə 90-100-cü illərdə yazıldığı təxmin edilir. Digər İncil mətnləri də eyni dövrlərdə yazılmışdır. O dövrdə mövcud olan bir çox İncil arasında ortaq bir kitab yaradılması isə Birinci İznik Kilsə Məclisi vaxtı gerçəkləşdirilmişdir.

Hz. İsanın həyatı haqqında müraciət edə biləcəyimiz təməl xristian mənbələri, bu mübarək insanın Allah Qatına alınmasından təxminən 30-35 il sonra yazılmağa başlanan və Əhdi-Cədidin ilk dörd kitabını meydana gətirən 4 İncillə digər Əhdi-Cədid mətnləridir.

Tarixi mənbələrdən və İncildəki izahatlardan aydın olduğu kimi ilk xristianlar hz. İsanın Allah Qatına alınmasından sonra hz. İsanın sözlərini və etdiklərini şifahi şəkildə insanlara nəql etməyə başlamışdırlar. Tədqiqatçılara görə, ilk xristianların içində olduqları şərtlərə görə hz. İsanın sözlərinə yeni mənalar əlavə etmələri, hz. İsanı rədd edən yəhudi din xadimləriylə və ya Romalılarla mübahisələrə girdiklərində şifahi şəkildə ötürülən məlumatları müxtəlif dəyişikliklərə uğratmış olmaları da mümkün ehtimaldır. Buna görə də, ilk xristianlar Məsih inancını davam etdirmək, hz. İsaya olan imanı gücləndirmək, xristianlığı sürətlə yaymaq və təzyiqlərdən ötrü xalqda yaranan ümidsizliyi ortadan qaldırmaq istəyirdilər. Bundan ötrü də, hz. İsanın sözlərini və hərəkətlərini şərh edərək, yeni şövq və həyəcan mənbəyi meydana gətirməyi qarşılarına məqsəd qoyurdular. Halbuki bunu yalnız Allahın sözlərini və hz. İsanın hikmətli təbliğini insanlara çatdıraraq edə bilərdilər. Lakin bu belə olmamış, Allahın vəhyi sonradan dəyişikliyə uğradılmış və hz. İsanın sözləri çox yanlış şəkillərdə şərh olunmuş, əslindən uzaqlaşdırılmışdır. Elə bu müddətdə hz. İsaya göstərilən hörmətin yanlış şərh olunması və nəticədə onun ilahlaşdırılmasına səbəb olan yanılmanın ortaya çıxması mümkündür (Allahı tənzih edirik). Bu fikir əsasən hazırda Qərbli tədqiqatçılar tərəfindən də qəbul edilir.[17] Aradan müəyyən zaman keçdikdən həvarilər də bir-bir vəfat etməyə başladıqdan sonra, bəzi xristianlar hz. İsanın təbliğinin yox olmasının qarşısını almaq üçün, hz. İsanın sözlərini və etdiklərini, hafizələrində qaldığı qədər bir-birlərinə əlavə edərək İncil mətnlərini meydana gətirməyə başlamış ola bilərlər.[18]

Rudolf Bultman (Rudolf Bultmann) 20-ci əsrin əhəmiyyətli Əhdi-Cədid mütəxəssislərindən biridir. Bultman (Bultmann), əsərlərində İncillərin yazılması barəsində çox müxtəlif açıqlamalar vermişdir. Bultman (Bultmann): "Sinoptik İncillərin (Matta, Markos və Luka İncillərinin) hz. İsanın həyatının bir-birini təqib edən rəvayətlərini göstərmək üçün

İncil müəllifləri tərəfindən bir-birinə əlavə olunan, sistemsiz qısa hekayələri bir yerə toplamaq surətiylə ortaya çıxarıldıqlarını" söyləyir. Lakin Bultmana (Bultmann) görə "müxtəlif cəmiyyətlərdə, həmin cəmiyyətləri meydana gətirən fərdlərin ehtiyaclarına görə təkrarlanan bu sözlər müxtəlif formalara düşdüklərindən, bir cəmiyyətdən digər cəmiyyətə, hətta bir cəmiyyətin öz daxilində belə bir-birlərindən fərqlənirdilər" və "hz. İsanın sözləri və hərəkətləri, insanlar tərəfindən fərqli məqsədlər üçün istifadə edildiklərindən müxtəlif formalar almışdı". Məsələn, ilk dövrdə, bəzən insanlara nəsihət və ya öyüd vermək üçün, bəzən də cəmiyyətdə fərdlərin itaət etməli olduqları əxlaqi qanunlar kimi istifadə edilmişdilər. Bultman (Bultmann) şifahi ənənənin bir nəticəsi olaraq hz. İsanın sözlərinin və hərəkətlərinin ilk xristianlar tərəfindən qismən dəyişdirildiyini bu yolla göstərir. Həmçinin İncil mətnlərində bilavasitə ilk xristianlar tərəfindən ortaya çıxarılmış və hz. İsaya isnad edilmiş sözlərin də olduğunu irəli sürür.(19) Hz. İsanın özünü "Allahın oğlu" olaraq adlandırdığını düşünmür. Ona görə bu sifət, hz. İsadan sonra "tanrıların oğulları kimi təqdim edilən ilahi kəslər, sirr dinlərində ibadət edilən oğul ilahlar və qnostik mifologiyada mövcud olan xilasedici fiqur" motivlərindən təsirlənilərək meydana gətirilmiş və böyük yanılma olaraq hz. İsaya isnad edilmişdir (Allahı tənzih edirik).(20)

Dolayısilə, bu gün Qərbli tədqiqatçıların böyük hissəsi tərəfindən qəbul edilən həqiqət, İncillərin hz. İsanın sözlərinin tam şəkildə bir yerə toplanmasıyla meydana gəlmiş bir kitab olmamalarıdır. Onlara görə İncillər, hz. İsadan sonra onun sözlərinin, etdiklərinin, özündən sonra yaranan şərtlər altında bir yerə toplanmasından yaranan mətnlərdir.

## İncil mətnlərinin müəllifləri

İncillər dövrümüzdə Markos, Matta, Luka və Yuhanna kimi müəlliflərin adlarıyla tanınmalarına baxmayaraq, adsız şəkildə qələmə alınıblar. Bu insanların həqiqətən İncilləri yazıb yazmadıqları məlum deyil. İncillər ancaq 2-ci əsrin ikinci yarısından sonra bugünkü adlarıyla xatırlanmağa başlanmışdır. Matta və Yuhanna, hz. İsanın həqiqi həvariləri kimi qəbul edildiyi halda, Markos Pavelin (Pavlus) ardıcılı və Luka da Pavelin (Pavlus) tələbələrindən biri hesab edilir. Yəni İncil müəllifləri əslində yaşamış şəxsiyyətlərdir, lakin İncilləri onların yazdıqlarına dair əlimizdə bir dəlil belə yoxdur.(21) Tanınmış Bibliya tədqiqatçılarından E. P. Sanders, “The historical figure of Jesus” (“İsanın tarixi şəxsiyyəti”) adlı kitabında İncillərin yazılmasını belə açıqlayır:

Mövcud dəlillər göstərir ki, İncillər ikinci əsrin ikinci yarısına qədər adsız qalıblar... Əlimizdəki İncillərin adı ikinci əsrin ilk yarısında çəkilməyə başlandı. Lakin həmişə anonim şəkildə. Təxminən 180-ci ildə birdən-birə adlar meydana çıxdı. O vaxt bir çox İncil vardı, sayları bizim əlimizdəkilər kimi kimi dörd deyildi və xristianlar hansının qüvvədə olduğunu müəyyənləşdirmək məcburiyyətindəydilər. Bu əhəmiyyətli məsələ idi, fikri cəhətdən çox

mühüm fərqlər vardı. Kimin qazandığını isə bilirik: bu dörd İncilin (nə daha az, nə də daha çox) hz. İsanın etibarlı qeydləri olduğunu düşünən xristianlar qazanmışdılar.(22)

Sanders, digər bir məqaləsində "adsız" yazılan İncillərin adlandırılma prosesini belə qeyd edir:

2-ci əsrin ortalarında saysız İncil nüsxəsi vardı. Səlahiyyət sahibi xristianlar bunlardan hansılarının gerçək olduğu mövzusunda bir qərar vermək üçün onları adlandırmışdırlar. Beləliklə də, indiki vaxtda kilsə tərəfindən gerçək qəbul edilən dörd İncilə Markos, Matta, Luka və Yuhanna adları verilmişdir.(23)

From Jesus to Christ, the origins of the New Testament, images of Jesus (İsadan Məsihə, Əhdi-Cədidin kökləri, İsanın imicləri) kitabının müəllifi olan Paula Fredriksen bu vəziyyəti belə yekunlaşdırır:

Hz. İsanın yunan dilində olan bəzi sözləri toplanmış və hazırda itkin olan bir sənəd halına gətirilmişdi. Bu sənədə dövrümüzün tədqiqatçıları Q adını verirlər. Şifahi ənənələr isə (möcüzələr, məsəllər, əfsanələr və s.) müxtəlif xristian cəmiyyətlər tərəfindən bir yerə gətirilmiş, beləliklə də, böyümüş və əldən-ələ gəzmişdir. Bunların bir hissəsi adsız qeyri-yəhudi xristianlar tərəfindən 70-ci illərdə kağıza köçürüldü. Bu insanlar yazıçı deyildi və bir əsər yaratmadılar. Bəhs edilən hekayələri mətnlər halına gətirdilər. Bunun nəticəsində Markos İncili meydana gəldi.(24)

Paula Fredriksenin diqqət çəkdiyi digər bir məsələ isə, İncillərdə işlədilən dillə əlaqədardı. Fredriksen xülasə şəklində bunları söyləyirdi:

Hz. İsa arami dilində danışırdı və təbliğini də arami dilində danışan yəhudilərə, fələstinlilərə və köçərilərə edirdi. Lakin İncillərin yayılmasında rol oynayan insanların dilləri yunan dili idi. Hz. İsanın şifahi təbliği və bütün etdikləri yunan dilinə yenə şifahi şəkildə tərcümə olundu. Bu tərcümələrin etibarlılığından əmin olmaqsa qeyri-mümkündür. Şifahi mənbələr üzərində aparılan psixoloji və antropoloji tədqiqatlar, bu mənbələrin tarixi baxımdan olduqca etibarsız olduğunu göstərmişdir. Köçürmə vaxtı səhvlik olmaması qeyri-mümkündür. Çünki müşahidə edən və köçürən bir insandır. Əgər bu məlumatlar yazılı hala gəlmədən əvvəl bir çox insan tərəfindən köçürülərək yazan insan çatıbsa, bu təqdirdə hər köçürmədə fərqli əlavələr, düzəlişlər və dəyişikliklər edilmişdir. Nəticə etibarilə də, hz. İsa ilə əlaqədar, şifahi şəkildə köçürülən məlumatlar bizə İncildə həqiqi deyilənlər və o dövrdə həqiqi mənada baş verənlər haqqında bir məlumat verir. Lakin eyni zamanda bu köçürmə vaxtı dəyişikliklər ola biləcəyini qəbul etməyimizi də zəruri edər.(25)

Digər bir Bibliya tədqiqatçısı Con Dominik Krossan (John Dominic Crossan), “The birth of Christianity, discovering what happened in the years immediately after the execution of Jesus” (xristianlığın doğuşu, hz. İsanın fəaliyyətindən dərhal sonrakı illərdə yaşananları kəşf

etmək) adlı əhəmiyyətli əsərində Markus C. Borq (Marcus J. Borg) və Barri Henautun (Barry Henaut) İncil müəllifləri haqqındakı bu şərhlərini bildirir:

İncilləri hz. İsa haqqında həqiqi məlumat mənbəyi kimi necə istifadə edə bilərik? İncillər eynilə öz müəlliflərinin səsləridir. Onların arxasında da hz. İsa haqqında danışan cəmiyyətdən adları naməlum olan insanlar var. Bu səslərin arasında da hz. İsanın sözlərindən və etdiklərindən izlər var. Hz. İsa haqqında doğru məlumatları toplamaq üçün iki çətin mərhələ keçilməlidir. Bunlardan birincisi hansılarının hz. İsaya aid olduğunu tapmaqdır. İkincisi isə, bu məlumatları 1-ci əsrdəki yəhudi aləminin tarixinə daxil etməkdir.(26)

Hz. İsanın söylədiklərinin şifahi halı artıq tamamilə yox oldu. Söylənilən cümlələr quruluşundan ötrü müvəqqətidir və çox qısa müddət yaşayar. Təkcə dinləyicilərin hafizəsində yaşayar və tamamilə geri qayıtması təkcə hafizədən asılıdır... Yazılı ənənə belə dəyişikliyə uğrayar və inkişaf edər. Bu bizi İncilləri bilavasitə surəti çıxarılmış şifahi izahat zənn etməkdən qoruyur: ənənə mətn halına gətirilərkən təhrif edilmiş ola bilər. Üstəlik, bu təhrif yalnız sinoptik müəllifləri ilə də məhdudlaşmamışdır...(27)

Nə İncil müəllifləri, nə də Əhdi-Cədidin digər hissələrini yazanlar, təsvir etdikləri hadisələrin bilavasitə canlı şahidləri olmayıblar. İncil müəllifləri, hz. İsadan sonra bir neçə on il ərzində nəsildən-nəslə ötürülən şifahi və yazılı ənənəni mətn halına gətirən insanlardır. Bundan ötrü də, əsrlərdir ki, bu mətnlər üzərində tədqiqat aparan müxtəlif mütəxəssislər, İncil mətnlərinin dövrümüzdəki halına gəlməsində çox müxtəlif təsirlərin rol oynadığına diqqət çəkiblər. Bir məqalədə bu təsir belə bildirilir:

Hz. İsanın ilk orijinal xatirələri, birincisi xristianların öz dini liderlərini ucaltmaq üçün onu universal xüsusiyyətli dini şəxsiyyət halına gətirmək səyləri, ikincisi qələmə alındıqları dövrün bütpərəst tanrı motivləri, üçüncüsü qeyri-yəhudi mənşəli xristianların meydana gətirdiyi ilk kilsənin, ayrıldığı mərkəzi yəhudiliyə qarşı çıxması, dördüncüsü bilavasitə xristian cəmiyyətinin fərqli cərəyanları içində ixtilaf çıxaran polemikalarla, nəhayət beşincisi isə, hz. İsanın həyatında baş verən hadisələrin Əhdi-Ətiq peyğəmbərlərinin verdikləri sözlərin yerinə yetirilməsi və beləliklə də, onun Əhdi-Ətiq peyğəmbərliyinin tamamlayıcısı kimi təqdim edilməsiylə, müxtəlif şəkillərdə mühafizə edilmiş, ayırd edilmiş, inkişaf etdirilmiş, ucaldılmış və qismən də korlanmışdır... Həmçinin İncillər, həm yəhudilərin təzyiqlərinə, həm də Roma imperatorluğunun zülmlərinə qarşı mövcudluğunu davam etdirmə mübarizəsi aparan ilk kilsə tərəfindən qələmə alındığı və içində olduqları vəziyyətdən ötrü, məzmunları bilavasitə hz. İsanın özü və etdikləri olmayıb, ilk kilsənin, müxalifləri ilə mübarizəsi konteksində hz. İsanın sözlərinə və etdiklərinə gətirdiyi şərhdir. Bu həqiqətə əsaslanaraq, İncillərin təqdim etdiyi məlumatların hz. İsanın bioqrafiyasını yazmaq üçün olduqca qeyri-kafi olduğu görülür. Məhz bundan ötrüdür ki, hz. İsanın mövqeyini və statusunu araşdırarkən dörd İncilin şərh olunmasında, imanları, fikirləri,

qənaətləri, ön mühakimələri və mübahisələri, həm İncillərdə, həm də Əhdi-Cədidin digər kitablarında əks olunan ilk xristian cəmiyyətlərinin mövcud həyatlarına diqqət yetirmək məcburiyyətindəyik... Eləcə də, hz. İsanın mövqeyini araşdırarkən bunu da unutmamalıyıq ki, əsas mənbə olan İncillər, hz. İsadan 40-60 il sonra, onun həyatında baş verən gerçək hadisələrdən olduqca fərqli mühitdə, eləcə də, onun ana dili olan arami dilində deyil, yunan dilində qələmə alınmışdır... Bir sözlə, İncillər hz. İsanın söylədiklərinə və etdiklərinə bilavasitə şahid olan hz. İsanın öz həvariləri tərəfindən deyil, əksinə daha sonrakı dövrdə xristianlığı qəbul etmiş insanlar tərəfindən, zaman keçdikcə yaranan yeni vəziyyətlərə uyğun şəkildə seçilib toplanmış kitablardır. Yəni İncillər, hz. İsanın sözləri və etdikləri ilə əlaqədar ilk rəvayətlərə deyil, ikinci hətta üçüncü şəxslərdən gələn rəvayətlərə əsaslanır.[(28)]

Yazıda diqqət çəkilən bu tarixi həqiqətlər çox əhəmiyyətlidir. İncil mətnlərini müqayisə apararaq araşdıran müstəqil tədqiqatçılar da eyni nöqtəyə diqqət çəkirlər: Dörd İncil bir-birindən olduqca fərqlidir.

## Dörd İncil arasındakı fərqlər

Matta, Markos, Luka və Yuhanna; ardıcıl şəkildə qeyd olunan bu dörd İncil, ortaq qənaətə görə, 65-100-cü illər arasında yazılmışdır (bəzi tədqiqatçılar, 75-115-ci illər kimi daha gec tarixlər də verirlər[(29)]). Bu isə, bu kitabların ilkinin hz. İsanın Allah Qatına alınmasından təxminən 30 il sonra qələmə alındığı deməkdir.

Bir qədər əvvəl də ifadə etdiyimiz kimi, tədqiqatçılar bu qədər gec bir tarixdə qələmə alınan kitabların hz. İsanın həyatını və təbliğini tam şəkildə əks etdirə biləcəyinə inanmırlar. Üzərində dayandıqları xüsus isə, İncil müəlliflərinin hz. İsanı olduğu kimi deyil, öz zehinlərində xəyal etdikləri kimi təsvir etmiş olmaları ehtimalıdır.

Dörd İncilin ilk üçü (yəni, Matta, Markos və Luka) bir-birlərinə xeyli bənzəyir. Bundan ötrü də, xristian ənənəsində "sinoptik İncillər" kimi xarakterizə olunurlar (sinoptik, "eyni gözdən" deməkdir və üç İncilin ortaq dünyagörüşünü ifadə edir). Bunlar arasında tarixi baxımdan ən tez yazılanı, Əhdi-Cədiddə ikinci yerə qoyulmuş olmasına baxmayaraq, Markosun İncilidir. Matta və Lukanın öz İncillərini yazarkən Markosu qaynaq kimi istifadə etdikləri, lakin bəzi əlavələr etdikləri qəbul edilir.

Dördüncü İncil olan Yuhanna isə, sinoptiklərdən kəskin şəkildə fərqlənir. Yuhannada bildirilən bəzi hadisələr sinoptiklərdə əks olunmamışdır və ya tam əksi öz əksini tapmışdır. Üstəlik, Yuhannanın bildirdiyi bir hadisə, sinoptiklərdə tamamilə fərqli şəkildə bildirilir. Sinoptiklər də bəzi hallarda bir-birləriylə ziddiyyət təşkil edirlər.

Əhdi-Cədid tədqiqatçıları dörd İncilin bir-birlərindən fərqli mövzular üzərində dayandıqlarına, müəlliflərinin işlətdiyi üslublarının mətnlərə əks olunduğuna və dörd İncilin öz aralarında bir çox tarixi ziddiyyətlər əks etdirdiyinə işarə edərək, İncillərdəki hər ayənin

bilavasitə hz. İsanın sözü kimi qəbul edilməsinin mümkün olmadığını vurğulayırlar. Bu iddiaya görə Matta, Markos, Luka və Yuhanna tərəfindən yazılan 4 fərqli İncil, fərqli məqsədlərlə və fərqli cəmiyyətlər üçün yazılmışdır. Xristian tədqiqatçılar İncil mətnlərini üslublarına görə belə xarakterizə edirlər:

Matta; yəhudilər üçün yazılmışdır və bundan ötrü də, əsasən hz. İsadan "İbrahim və Davud oğlu Kral Məsih" kimi bəhs edir.

Markos; yunanlılar üçün yazılmışdır və bundan ötrü də, əsasən güc, hakimiyyət və xidmət üzərində dayanır. Hz. İsadan "böyük işlər görən Tanrının qulu" kimi bəhs edilir.

Luka; yunanlılar və yəhudilər istisna olmaqla digərləri üçün yazılmışdır. Bundan ötrü də, hz. İsanın üstün əxlaqı və insani cəhətləri üzərində dayanılmışdır. Hz. İsadan "İnsanların dostu olan Adəmin oğlu" kimi bəhs edilir.

Yuhanna; digər 3 kitabdan xeyli sonra yazılmışdır. Bu dövr ərzində yaranan reaksiyaları və sual işarələrini cavablandırmaq məqsədiylə yazılmışdır. Bundan ötrü də, hz. İsanın möcüzəvi cəhətləri üzərində dayanmışdır. "Allahın oğlu" (Allahı tənzih edirik) kimi ifadələr daha çox bu kitabda yer alır. Hz. İsadan "göylərdən gələn" kimi bəhs edilir.[30]

Tarixi baxımdan İncillərin ən tez yazılanı Markos, ən gec yazılanı isə Yuhannadır və aralarında böyük fərqlər var. Əgər Markosun və Yuhannanın çatdırdıqları, tarixi məlumat kimi qəbul edilsə, bu fərqlər asanlıqla izah oluna bilər. Çünki ortada eyni hadisənin iki fərqli insan tərəfindən yazılmış iki ayrı təsviri var. Bu təsvirlərin biri hadisədən 40-45 il, digəri isə 60-65 il qədər sonra yazılmışdır.

İncillər arasındakı fərqlər qarşısında bəzi xristianlar; "kiçik fərqlərə baxmayaraq, nəticədə eyni hadisə bildirilir" kimi açıqlamalar verirlər. Onsuz da əhəmiyyətli olan da, məhz bu fərqlərdir. Çünki bu fərqlər, Əhdi-Cədidin müəlliflərinin yazdıqları mətnləri normal, insani yollarla yazdıqlarını göstərir: Hz. İsa haqqında bəzi şifahi məlumatlar eşitmiş, sonra da öz mədəniyyətlərinin, inanclarının, biliklərinin yaxud ön mühakimələrinin təsiri altında İncilləri yazmışdırlar. Dolayısilə bu mətnlər "insani"dirlər, "İlahi" deyildirlər. Bundan ötrü də, bunlar "içində haqq hissələrin olması mümkün olan tarixi mənbələr" kimi qəbul edilməlidir.

Xristian inancına görə, İncil mətnləri fərqli insanlar tərəfindən qələmə alınmışdır, lakin bu insanlar bunları "Tanrının verdiyi ilham"la yazmışdırlar. Buna görə də, Əhdi-Cədiddə yer alan mətnlərin hamısının hər sətrinin doğru olduğu qəbul edilir. Lakin İncillər arasındakı ziddiyyətlər, bunu qeyri-mümkün hala gətirir və bu kitabların tamamilə vəhyə əsaslandığını rədd edir. Eyni hadisənin fərqli şəkillərdə bildirilməsi isə, bunun insan hafizəsinin, zehninin, ön mühakimə və gözləntilərinin məhsulu olduğunu göstərir.

Xristian mənbələrinə baxdığınız vaxt, Əhdi-Cədidin dörd İncilindəki bu fərqli izahatın "bir-birlərini tamamlayan hissələr" kimi şərh olunmağa çalışıldığını görərsiniz. Bu məntiqə görə, hər İncil "hz. İsanın fərqli bir cəhətinin" görülməsini təmin edir. Halbuki bu yanlışdır.

Ortada dörd fərqli mətn və dörd fərqli izahat vardır, çünki bu mətnləri yazan insanların hz. İsa haqqındakı düşüncələri fərqlidir. Dövrümüzün Bibliya tədqiqatçılarına görə, hz. İsa barəsindəki həqiqi məlumatları, hətta hz. İsaya verilmiş olan əsil İncili bir mənbə olaraq istifadə etmişdirlər, lakin bu vəhyi öz inanclarına görə şərh etmiş, yenidən şəkilləndirmiş və ya əlavələrlə genişlətmişdirlər. Bu tədqiqatçılar arasında əhəmiyyətli yer tutan Con Dominik Krossan (John Dominic Crossan), Riçard Q. Uots (Richard G. Watts) ilə birlikdə yazdığı, "who is Jesus? Answers to your questions about the historical Jesus" ("Hz. İsa Kimdir? Tarixi İsa barəsindəki suallarınıza cavablar") adlı əsərində, İncil mətnləri arasındakı fərqlər haqqında bu açıqlamanı verir:

Əslində problemin təməlini dörd İncilə sahib olmağımız meydana gətirir. Çünki bir neçə fərqli varinat arasındakı müəyyən məsəlləri yaxud aforizmləri yaxud da hekayələri oxuduğumuz vaxt, aralarındakı ziddiyyətlər gözümüzdən yayınmaz. Əvvəla bunu söyləmək ağlımızı qarışdırır; "şahidlər eyni şeyləri fərqli şəkillərdə xatırlayırlar". Lakin çox açıqdır ki, Matta və Luka İncillərini yazdıqları vaxt, önlərində Markos İncilinin (Əhdi-Cədid İncillərinin ilki) surətləri dayanırdı. Yəni hz. İsa barəsindəki hekayələr mövzusunda Matta və Luka müstəqil mənbələr deyildirlər, lakin Markosun varinatlarıdırlar. Bu, həmçinin variantların fərdi İncil müəlliflərinin dini fikirlərini (teologiyalarını) əks etdirdiyi deməkdir. Digər bir sözlə, hər bir İncil bioqrafiyadan çox hz. İsanın qəsdli bir şərhidir... Matta, Markos, Luka və Yuhanna arasındakı bütün fərqlər və digər bir çox İncillə (Q İncili, Əziz Tomas İncili və s.) birlikdə nəzərə çarpan bir problemimiz var. Hər bir İncil hz. İsanı anlamağın xüsusi yoludur. Görəsən tarixi həqiqətlərə nə qədər yaxındırlar?(31)

Sitatda da bildirildiyi kimi, digər bir əhəmiyyətli həqiqət, dörd İncilin, əslində daha çox saydakı İncil nüsxələri arasından seçilmiş kitablar olmasıdır. Tomas İncili, Məryəm İncili, Peter İncili, Yaqub və Tomasın uşaqlıq İncilləri, Yaqubun gizli İncili, Eaqerton İncili, Oksirink İncili kimi bu fərqli İncillər, hz. İsa barəsində fərqli məlumatlar və şərhlər ehtiva edir. Tədqiqatçılar bütün bu İncillərin əslində tək bir orijinal (lakin itmiş) mətndən gəldiyini düşünürlər. Buna, alman dilindəki "quelle" (qaynaq) sözündən ilhamlanaraq "Q İncili" deyilir. İlk xristian cəmiyyəti və İncili ilk dəfə toplayanlar hz. İsanın sözlərini bir yerə toplayarlarkən içində olduqları vəziyyətə, siyasi təzyiqlərə və mövcud şərtlərə görə yeni şərhlər etmiş, müxtəlif çıxarışlar və əlavələr edərək əsl mesajdan uzaqlaşmışdırlar. Hazırda İncil üzərində tədqiqat aparan tarixçilər bu mövzuda həmfikirdirlər. Paula Fredriksen Əhdi-Cədid yazılarının qələmə alındığı dövrü belə yekunlaşdırır:

Əhdi-Cədid yazılarının yazıldığı dövr, şifahi izahatdan yazılı izahata; arami dilindən yunan dilinə, zamanın sonundan zamanın ortasına; yəhudilərdən qeyri-yəhudilərə; Qalileyadan Yəhudaya və oradan da imperatorluğa keçidlərin yaşandığı bir dövr idi.(32)

İncil mətnlərinin meydana çıxması üzərində çoxlu tədqiqat aparılmış və çoxlu müxtəlif kitablar yazılmışdır. Bu tədqiqatçıların çox böyük hissəsi isə yuxarıda bildirdiyimiz fikirlərə

qoşulurlar. Yəni İncil mətnlərinin kim tərəfindən yazıldığının qeyri-müəyyən olduğunu, bu mətnlərin hz. İsanın sözləri olub-olmadığı mövzusunda qəti qənaətə sahib oluna bilməyəcəyini, İncil müəlliflərinin hz. İsa ilə eyni dövrdə yaşamadıqlarını söyləyirlər. Məsələn, Prinston Universitetinin İlahiyyat fakültəsindən Eleyn Peycels (Elaine Pagels): "Matta, Markos, Luka və Yuhanna kimi adlandırdığımız İncilləri kimin yazdığı barədə demək olar ki, heç bir məlumata sahib deyilik"(33) deyir. Who wrote the Gospels? (İncilləri kim yazdı?) kitabının müəllifi Randel MakQrav Helms (Randel Mc Craw Helms): "Markosun hz. İsanı görən heç kimi tanımadığını" söyləyir.(34)

"U. S. News & World Report" jurnalında 10 dekabr 1990-cu il tarixində Cefri L. Şeler (Jeffery L. Sheler) tərəfindən qələmə alınmış; "who wrote the Bible?" (İncili kim yazdı?) başlıqlı bir tədqiqat mətni dərc olunmuşdur. Bir çox Bibliya tədqiqatçısıyla görüşən Şelerə (Sheler) görə: "Mütəxəssislər Bibliyanın tamamilə insan əməyinin məhsulu olduğu, müəlliflərinin kimliyinin əbədiyyən itirildiyi və əsərlərin əsrlərdir ki, tərcümə və düzəlişlər nəticəsində yox olduğu nəticəsinə gəlmişdirlər".(35) Şeler (Sheler) İncillərin yazılmasıyla əlaqədar bunları söyləmişdir:

İndiki vaxtda İncilləri əslində Matta, Markos, Luka, Yuhannanın yazdığına inanan çox az sayda Bibliya mütəxəssisi var (liberal skeptiklərdən mühafizəkar yevangelistlərə qədər). Mətnlərin müəllifləri heç bir yerdə öz kimliklərini əks etdirmirlər və ya açıq şəkildə hz. İsanı tanıdıqlarını və ya onunla birlikdə səfərə çıxdıqlarını iddia etmirlər... Bəzi mütəxəssislər hz. İsanın ölümündən sonrakı 100 il ərzində çox sayda dəyişiklik yaşandığını, buna görə də, heç kimin İncillərin doğruluğu və ya etibarlılığından (xüsusilə də müəlliflərin hz. İsaya isnad etdikləri sözlərin) qəti şəkildə əmin ola bilməyəcəyini ifadə edirlər.(36)

Şeler (Sheler), yazısında bir çox teoloqun fikirlərinə yer verir. Məsələn, Veston İlahiyyat fakültəsindən Cerom Neyrey (Jerome Neyrey): "Üzərində dayanılmalı əsas mövzu, İncilləri kimin yazdığını əslində bilməməyimizdir"(37) deyir. 8 aprel 1996-cı il tarixli *"Time"* jurnalında da bu mövzu geniş şəkildə yer alır. Jurnala fikirlərini açıqlayan "The Gospel truth" (İncil həqiqəti) kitabının müəllifi Devid Van Biema (David Van Biema) bunları ifadə edir:

Bir çox mütəxəssisin doğruluğunu qəti şəkildə qəbul etdikləri şey, İncillərin; həvarilərin deyil, onların adı bilinməyən tərəfdarlarının (və ya onların tərəfdarlarının tərəfdarlarının) ortaya çıxartdıqları mətnlər olmasıdır. Hər biri hz. İsanın həyatıyla əlaqədar fərqli mənzərə təqdim edir. İlki hz. İsadan təxminən 40 il sonra yazılmışdır.(38)

Prof. E. P. Sanders niyə İncillərin orijinal hallarından uzaqlaşdığını düşündüyünü belə yekunlaşdırır:

- İlk xristianlar hz. İsanın həyatının hekayəsini yazmayıblar, onlar daha çox bundan istifadə ediblər və buna görə də şəxsi hissələr qorundu (yəni onun sözləri və qəhrəmanlıqları barəsindəki qısa ayələr qorunmuş oldu). Bu hissələr daha sonra redaktorlar

və müəlliflər tərəfindən təkmilləşdirildi və düzəldildi. Bu da, hz. İsanın sözləri və etdikləri ilə əlaqədar ən yaxın məzmundan heç vaxt əmin ola bilməyəcəyimiz deməkdir.

- Bəzi materiallar yenilənmiş, bəziləri də ilk xristianlar tərəfindən yaradılmışdır.

- İncillər anonim şəkildə yazılmışdır.[39]

## Dördüncü İncil

Yunanlıların xristian inancları üzərindəki təsiri ilə əlaqədar tədqiqat aparan insanlar üçün dördüncü İncil çox mühüm dəlildir. Akademiklərin əksəriyyəti Əhdi-Cədiddə dördüncü yeri tutan və xristianlar tərəfindən "Yuhanna İncili" kimi adı çəkilən kitabı yalnız "dördüncü İncil" kimi xarakterizə etməyi seçərlər. Çünki bu İncilin həvari Yuhanna tərəfindən yazıldığı iddiası bir çox tədqiqatçı tərəfindən qəbul edilmir.

Dördüncü İncilin müəllifinin, hz. İsanın kimliyi barəsindəki açıqlamaları və üslubu çox fərqlidir, nəql etdiyi sözlər və ya hadisələr fərqlidir. Sinoptiklərə görə olduqca fəlsəfi, olduqca simvolik və olduqca mistikdir. Əhdi-Cədiddəki ziddiyyətlərin əksəriyyəti də, əslində sinoptiklərlə dördüncü İncil arasındakı ziddiyyətlərdir. Prof. E. P. Sanders də “The historical figure of Jesus” (“Hz. İsanın tarixi portreti”) adlı əsərində sinoptik İncillər və Yuhanna İncili arasındakı fərqlər üzərində dayanır. Sanders hz. İsanın həyatından bəzi əhəmiyyətli hadisələri nümunə verərək, bu hadisələrin sinoptik İncillər ilə Yuhanna İncilində bir-birindən daha fərqli şəkillərdə bildirildiyinə diqqət çəkir. Sanders: "İkisindən birini qəbul etmək məcburiyyətindəyik" deyir və cümləsini belə tamamlayır:

"...Lakin digər bir ehtimal üzərində də dayanmalıyıq: bəlkə də, müəlliflərin heç biri nəyin nə vaxt yer alacağını bilmirdi. Əllərində böyük ehtimalla bir neçə dolaşıq məlumat vardı və onlar da bu məlumatlar əsasında inanılası hekayələr meydana gətirdilər. Özləri də bu hekayələrə yeni əlavələr etdilər".[40]

Moris Keysi (Maurice Casey), “the origins and development of new testament christology”, (Əhdi-Cədid xristologiyasının kökləri və inkişafı) adlı mühüm əsərində bunları söyləyir:

Yuhannada hz. İsanın, Tanrının Oğlu ifadəsini 23 dəfə işlətdiyi görülür. Markosda isə bir dəfə. Əgər hz. İsa bu termini Yuhannanın söylədiyi qədər sıx işlətmiş olsaydı, dərin iman sahibi xristianlar da sinoptik İncillərdə bu ifadəni bir çox dəfə işlədərdilər... Halbuki sinoptiklərdə bu barədə dəlillər yoxdur. Əgər "oğul" ifadəsi hz. İsanın öz müqəddəsliyini bildirmək üçün, işlətdiyi ən təməl ifadə olsaydı, həvarilər bu termini çox işlədərdilər, bu sözlər Lukaya sıx şəkildə ötürülərdi və Luka da hamısını kağıza tökərdi.[41]

Keysi (Casey), Yuhanna İncilində olan və təslis inancının təməlini meydana gətirən bəzi ifadələrin, niyə sinoptik İncillərdə olmadığını araşdırır. Gəldiyi nəticə isə budur: Əgər hz.

İsanın "Allahın oğlu" olduğu iddiası və ona əsaslanan təslis inancı həqiqətən xristianlığın təməli olsaydı, hz. İsanın sözlərində, təbliğində bu mövzu haqqında çoxlu dəlil olmalıydı. Halbuki sinoptik İncillərdə təslis inancının təməllərini tapmaq qeyri-mümkündür. Buna baxmayaraq, "insan övladı" ifadəsi istər sinoptik İncillərdə, istərsə də Yuhannada o qədər çox işlədilir ki, bundan hz. İsanın bu ifadəni işlətmiş ola biləcəyi aydın olur (doğrusunu Allah bilir). "Allahın oğlu" ifadəsinin hz. İsa tərəfindən işlədilmədiyini bildirən İncil tədqiqatçıları, "insan övladı" ifadəsi üçün tam əksini düşünürlər.

Yuhanna İncilinin digər diqqətçəkici tərəfi, yunan fəlsəfəsiylə olan əlaqəsidir. İncil tədqiqatçısı Ceyms Stil (James Still), "the Gospel of john and the hellenization of Jesus" (Yuhanna İncili və İsanın yunanlaşdırılması) adlı əhəmiyyətli məqaləsində bu mövzuda bunları söyləyir:

Yuhanna İncili ikinci əsrin əvvəllərində yunanlı xristianlar üçün yazıldı. Bu yeni inananlar, daha təhsilli və daha zəngin insanlar idi. Şəhərlərində yaşayan yəhudi diasporunu kiçik hesab edir, bunun əvəzində, Roma rəhbərliyinin etibarını qazanırdılar. Bundan ötrü də, Yuhannanın müəllifi, sinoptik İncillərdə yer alan və hz. İsanı yəhudilərin Məsihi kimi tanıdan ayələri çıxartdı... Fövqəlbəşər bir İsa fiquru ortaya çıxartdı. Əvvəlki sinoptik İncillər hz. İsanın yəhudilərin Məsihi, hz. Davudun nəslindən gələn və İsraili xilas edəcək insan olduğunu vurğulamışdılar. Yuhannanın müəllifi isə, yunanlı xristianları məmnun etməyən bütün bu yəhudi anlayışlarını yox etdi, hz. İsanın Fələstin və hz. Davud nəsli ilə əlaqədar olan əlaqələrini yox etdi.(42)

Ceyms Stilin (James Still) digər açıqlamaları belədir:

Bu gün məlum olan hz. İsanı, ortaya çıxartmış yunan fəlsəfəsinin təsirini Yuhannada çox açıq şəkildə görərik. Bu tam mənasıyla yunanlaşdırılmış və Tanrıya bərabər kimi göstərilmiş bir hz. İsa portretidir. Yuhannanın mürəkkəb və mistik üslubunun tək məqsədi var; hz. İsanın Tanrı olduğu mesajını verə bilmək(43) (Allahı tənzih edirik).

Sinoptik İncillərdə hz. İsaya ilahlıq isnad edən ayələr çox az olub mübahisəlidir. Lakin Stilin (Still) söylədiyi kimi bu yanlış inanc Yuhannada bütün mətnə nəzərəçarpan şəkildə hakimdir. Ceyms Stil (James Still) eyni məqaləsində 4 İncildə hz. İsanı ilahlaşdırmaq üçün aparılan tənzimləmələrdən belə danışır:

Burada (Yuhanna İncilində) hz. İsanın doğumu yoxdur, bizə "hər şeyin başlanğıcında" hz. İsanın Tanrı ilə birlikdə yarandığı bildirilir. Çünki bu İncilin müəllifi, hz. İsanın doğumundan danışmağın, bu doğum hər nə qədər fövqəladə olsa da, əzəldən bəri mövcud olan Oğul Tanrı anlayışıyla uyğunlaşmayacağı qənaətindədir. Hz. İsanın Markos İncilində gördüyümüz insani acizlik və ehtiyacları Yuhannada qətiyyən yer almır... Çünki Yuhannanın yazıldığı dövr olan birinci əsrin sonunda, hz. İsa barədə deyilənlər onu bir yunan tanrısı halına gətirmişdir(44) (Allahı tənzih edirik).

## Xristianlar bu əsassız iddianı niyə ortaya atmış ola bilərlər?

Təslis inancı, ortaya çıxdığı illərdən dövrümüzədək, demək olar ki, hər dövrdə böyük mübahisələrə səbəb olmuşdur və 18-ci əsrdən etibarən də bu mübahisələr daha geniş sahələrə yayılmışdır. Bu illərdə başlayan Bibliya tədqiqatları, insanları, əvvəlcə təslis inancının niyə İncildə açıq şəkildə yer almadığını, sonra isə, hansı şərtlər altında ortaya çıxdığını sorğu-sual etməyə yönəltmişdir. İndiki vaxtda da müxtəlif ilahiyyatçılar, elm adamları, tədqiqatçılar, yazıçılar və müstəqil xristian cərəyanları təslis və kəffarə inancı başda olmaqla, bir çox ənənəvi xristian inancını rədd edirlər. Növbəti hissədə nümunələrini nəzərdən keçirəcəyimiz bu insan və cərəyanların bir hissəsi təslis inancına qarşı çıxan arianların ideologiyasını müdafiə edirlər. Düşüncələrini isə Bibliya və ilk xristianlıqdan qalan əsərlərlə əlaqədar aparılmış tədqiqatlara əsaslandırırlar.

Hz. İsadan bir neçə əsr sonra, İznik və Kalkedon kilsə məclislərində alınan qərarlardan sonra, təslis inancı xristianlığın təməli halına gətirilmiş, bu böyük yanılmaya inanmamaq isə, imansızlıq kimi qəbul edilmişdir. Bundan ötrü də, təslis inancının Allaha, Onu tək ilah qəbul edərək iman etməklə ziddiyyət təşkil edən bir təlim olduğuna inanan, İncillərdə təslis inancının qeyd olunmadığını müdafiə edən və ya bu mövzuda şübhələrə sahib insanlar ya susdurulmuş, ya da təzyiqlə razı salınmışdırlar. Teodor Tsan (Theodore Zahn), “articles of apostolic creed” (“həvvari inanclarının maddələri”) adlı əsərində "180-210-cu illər arasında "Allaha, Onu tək ilah qəbul edərək iman etmək" sözünün əvvəlinə "ata" sözünün əlavə olunduğunu" söyləyir. Tsan (Zahn), bunun əvvəlcə bir çox kilsə liderinin reaksiyasına səbəb olduğunu və bu liderlərin "edilən şeyin müqəddəs mətnlərdə olmayan inanclar meydana gətirmək olduğunu" söylədiklərini ifadə edir. Apardığı İncil tədqiqatlarıyla tanınan Dunkan Hister (Duncan Heaster) isə 1988-ci ildə təslis inancı mövzusunda aparılan bir müzakirədə fikirlərini belə dilə gətirmişdir:

Təslis inancı bizə qavramağın qeyri-mümkün olduğu Tanrı inancı təqdim edir və bu inanc Tanrının açıq və aydın sözləriylə tamamilə ziddiyyət təşkil edir. Hər hansı biriniz, Allahın eyni zamanda "həm üç, həm də bir" olduğu iddiasını anlaya bilirsinizmi? Və ya "doğulmadan əvvəl də mövcud olan bir oğul" inancını qavraya bilirsinizmi? Mən təslis inancının Allahın sözündə qətiyyən qeyd olunmadığını söyləyirəm. İncildə "təslis" ifadəsi bir dəfə belə işlənmir. Hamımız çox yaxşı bilirik ki, bu inanc xristianlığa 3-cü əsrdə əlavə olunmuşdur... "Tanrı" sözü İncildə 1300 dəfə işlənir və bu İncil ayələrinin heç birində "Tanrı" ifadəsi ilə birdən çox şəxsiyyət və ya üçləmə nəzərdə tutulmur, eyham belə edilmir. Lakin Allahın bir olduğu ifadə edilir... Təslis inancı müdafiəçilərinin bəhs etdikləri inanc Əhdi-Ətiqin mətnlərində də bilinmir.(46)

Histerin (Heaster) sözləri çox açıqdır və dövrümüzdə onunla eyni fikirləri dilə gətirən bir çox tədqiqatçı var. Məsələn, Con Hik (John Hick), “the rainbow of faiths (inancların göy

qurşağı) adlı əsərində bu nəticəyə gəlir (Allahı aşağıdakı sitatda qeyd olunan ifadələrdən tənzih edirik):

1) Son illərdə aparılan tədqiqatlara baxdığımız vaxt, hz. İsanın, "Tanrı və ya müqəddəs üçləmənin ikinci şəxsi olan Tanrının oğlu" olduğunu öyrətmədiyini görərik. O bu inancın tam əksinə, həmişə özünün bir "insan övladı" olduğunu insanlara öyrətmişdir.

2) Səlahiyyət sahibi xristianlar və teoloqlar, hz. İsanın həm tam bir Tanrı, həm də tam bir bəşər olduğu şəklindəki ənənəvi xristian inancını aydın şəkildə izah edə bilmirlər.

3) Təcəssüm inancı xristianların digər dini ənənələrlə və onların mənsubları ilə olan əlaqələrinə bərpa edilməz zərərlər verir. Çünki bu inanc, xristianlığın digər dinlərdən üstün olduğunu eyham edir.(47)

Burada bir xüsus da vurğulanmalıdır. Bizim bu kitabdakı məqsədimiz nə təslis inancını ilk dəfə ortaya atan insanları, nə də təslis inancına sahib olan səmimi xristianları mühakimə etmək deyil, təslis inancı barəsindəki həqiqətləri Quran ayələri əsasında göstərmək və bu inancın ortaya atılmasındakı mümkün səbəbləri bildirməkdir. Unutmamaq lazımdır ki, əsİl müsəlmanlar Allahın göndərdiyi bütün elçilərə və kitablara iman edər, xristianların inanclarına və dəyərlərinə hörmət edərlər. Allaha qəlbən iman edən, Allahdan qorxan, Allaha səmimi sevgiylə bağlanan və Onun mübarək elçisi hz. İsaya dərin hörmət bəsləyən bütün xristianlara qarşı müsəlmanlar da böyük məhəbbət bəsləyər, onlara dostluq və tolerantlıqla yaxınlaşarlar.

Təslis inancının ortaya atılmasında da, pis niyyətli və mənfəətpərəst insanlar ola biləcəyi kimi, təmiz niyyətli olub, zaman içində xəbəri olmadan doğru yoldan uzaqlaşan insanların olması da mümkündür. Əvvəlcə müxtəlif formalarda ifadə edilən həmin bu inanc, zaman içində təhrif edilmiş ola bilər. Təslis bənzəri iddiaları dəstəkləyən və qəbul edilməsində rol oynayan insan və cəmiyyətlərin də mütləq bir-birlərindən fərqli düşüncələri olmuşdur. Bəziləri hz. İsanın üstün əxlaqını daha da vurğulamaq məqsədiylə, bəzi məcazi ifadələri yanlış şərh edərək, bəziləri mövcud siyasi və mədəni mühitdən təsirlənərək, bəziləri də xristianlığın daha da böyük sürətlə yayılmasını təmin etmək məqsədiylə bu kimi iddiaları öz ağıllarınca səmimi niyyətlə dəstəkləmiş ola bilər. Bundan ötrü də, təslis iddiasını rədd edərkən, ilk xristianların o dövrün tarixi, siyasi və mədəni şəraitinin təsiri altında qalaraq və ya üzləşdikləri çətinlik və təzyiqlərdən mənfi istiqamətdə təsirlənərək səhvə yol vermiş ola biləcəkləri də nəzərə alınmalıdır. Bu hissədə təslis iddiasının ortaya atılmasında rol oynamış ola biləcək mümkün səbəblər göstəriləcək (bu hissədə xristianların yanlış inanclarını ifadə etmək məqsədiylə işlədilmiş hər cür batil ifadədən Allahı tənzih edirik. Mübarək peyğəmbər hz. İsanın da bütün bu yaraşdırmalardan uzaq olduğunu yenidən bildirmək istəyirik).

## İncildəki "Oğul" sözü təslis inancını dəstəkləmək məqsədiylə işlədilməmişdir

Təslis inancında hz. İsanın "Allahın oğlu" olduğuna dair yanlış inanc hakimdir (Allahı tənzih edirik). Halbuki xristianlığın yarandığı ilk illərdə və daha əvvəlki dövrlərdə "oğul" ifadəsinin necə və nə məqsədlə işlədildiyi araşdırıldıqda ortaya daha fərqli vəziyyət çıxır.

Oğul sözü İncildə hz. İsa üçün 4 fərqli şəkildə işlədilir: Məryəm oğlu, Davud oğlu, İnsan övladı, Allahın oğlu.

"Məryəm oğlu" ifadəsi hz. İsanın hz. Məryəm tərəfindən dünyaya gətirildiyini, "Davud oğlu" isə hz. İsanın İncilə görə hz. Davudun nəslindən gəldiyini ifadə edir.

"İnsan övladı" ifadəsi həm hz. İsanın özünü necə tanıtdığının, həm də ətrafındakı insanların özünə necə baxdıqlarının başa düşülməsi baxımından çox əhəmiyyətlidir. Çünki bu ifadə İncil mətnlərində Məsih və Allahın oğlu ifadələrindən daha çox işlədilir. "İnsan övladı" yəhudi ilahiyyatına məxsus bir ifadədir və Əhdi-Ətiqdə (xüsusilə də məzmurlarda) tez-tez işlədilir. Bilavasitə insanları ifadə edər və çox alışılmış bir ifadədir. Məsələn, Yezekel peyğəmbərdən bəhs edilərkən 90 dəfə "insan övladı" ifadəsi işlədilmişdir və o, insanlara ölümlü bəşər kimi tanıdılmışdır.

Bu ifadənin arami dilindəki qarşılığı olan "bar nash(a)", hz. İsanın dövründə də hamı üçün işlədilirdi, lakin İncildə işlədilən "insan övladı" ifadəsi, yəhudilərin müqəddəs kitablarındakı kimi, hamı üçün işlədilməmiş, yalnız hz. İsaya işarə edən bir ünvan kimi bir çox dəfə işlədilmişdir.(48) İnsan övladı ifadəsi Matta, Markos və Lukada 69 dəfə, Yuhanna İncilində 13 dəfə işlədilir. Yalnız bir yerdə bütün insanları ifadə etmək üçün işlədilir (İbranilere Mektup, 2/6-8). Bu tərif həm hz. İsa üçün, həm də hz. İsa tərəfindən bir çox dəfə "mən" mənasında işlədilmişdir. Bu İncil ayələrindən bəziləri belədir:

Hər kəs Tanrının böyük gücünə heyran qaldı... Hər kəs İsanın bütün etdikləri qarşısında heyrət içində olarkən, İsa tələbələrinə: "Siz bu sözlərimə yaxşıca qulaq asın" dedi. "İnsan övladı, insanların əlinə təslim ediləcək". (Luka, 9/44)

...Yunis necə Nineviya xalqı üçün bir əlamət oldusa, insan övladı da bu nəsil üçün belə olacaq. (Luka, 11/30)

...İndi Qüdsə gedirik. Peyğəmbərlərin insan övladıyla əlaqədar yazdıqları hər şey gerçəkləşəcəkdir. O, digər xalqlara təslim ediləcək..." (Luka, 18/31-32)

İnsan övladı, müəyyənləşdirilmiş yolla gedir. Lakin onu satan insanın vay halına!" (Luka, 22/22)

İsa hələ danışarkən bir kütlə çıxıb gəldi. On ikilərdən biri, Yəhuda adında bir insan, kütləyə liderlik edirdi. İsanı öpmək üçün yaxınlaşdıqda İsa ona: "Yəhuda, İnsan övladını bir öpüşə görə mi ələ verirsən?" dedi. (Luka, 22/47-48)

Yuxarıda da ifadə etdiyimiz kimi "insan övladı" ifadəsi ilk xristianlar tərəfindən "insan" mənasında işlədilirdi. Çünki böyük hissəsi yəhudi olan ilk xristianlar bu ifadəni həmişə bu mənada işlətmişdilər və bu ifadəyə təkcə "bəşər" mənasını verirdilər. Əhdi-Ətiqdəki istifadələr də bu fikri dəstəkləyir, hz. İsanın Allahın yaratdığı, Allahın rəhmətinə möhtac bir bəşər olduğunu göstərirdi.

İncildə keçən "Allahın oğlu" ifadələri isə, təslis inancını müdafiə edənlərin dayaqlarından birini meydana gətirir. Lakin bu şərh, xristian aləmində əsrlərdir ki, özü ilə böyük mübahisələr gətirmişdir. Çünki yəhudi mədəniyyətini yaxından tanıyan, hz. İsanın yaşadığı dövrdə xalqın işlətdiyi dilin xüsusiyyətlərini araşdıran hər tədqiqatçı bu istifadənin məcazi məna daşıdığını ifadə etmişdir. Geniş yayılmış fikir budur: "Allahın oğlu" ifadəsi, yəhudi cəmiyyətində onsuz da geniş yayılmış olan və cəmiyyətdəki mühüm şəxsiyyətlər üçün tez-tez işlədilən məcazi bir ifadə forması idi.

1977-ci ildə, aralarında anqlikan teoloqların da olduğu 7 İncil mütəxəssisi "the myth of God incarnate" ("Tanrı insan şəklini aldı" əfsanəsi) adlı bir kitab nəşr etdilər. Bu kitab çox böyük təsir oyatdı. Ön sözdə redaktor John Hick bunları yazırdı:

Bu kitabın müəllifləri 20-ci əsrin bu son dövründə böyük dini inkişafın gerçəkləşməli olduğu mövzusunda həmfikirdirlər. Bu ehtiyac əvvəlcə xristianlığın kökləriylə əlaqədar məlumatın artmasından qaynaqlanır. Həmçinin hz. İsanın Allah tərəfindən xüsusi bir vəzifə və mübarək bir məqsədlə göndərilmiş bir insan olduğunu qəbul etməyə əsaslanır. Eləcə də, hz. İsanın Allahın təcəssümü (insan şəklini alması) və üçləmənin ikinci insanı olduğu istiqamətindəki inancın, hz. İsanın bizim üçün ifadə etdiklərinin poetik və mifoloji ifadə forması olduğunu qəbul etməyə əsaslanır.(49)

Con Hikin (John Hick) kitabı boyunca müxtəlif dəlillərlə üzərində dayandığı həqiqət "Tanrının oğlu" ifadəsinin tamamilə hz. İsadan sonra ortaya atılan bir inanc olması və hz. İsanın qətiyyən belə bir inancı təbliğ etməməsidir.(50)

Hz. İsa, daha sonra yaşayan xristianların düşündükləri kimi, özü barəsində ilahlıq iddiasıyla çıxış etməmişdir. Özünü Tanrı, Tanrının oğlu və ya Tanrının təcəssümü olaraq görmürdü... Hz. İsanın özünü bu cür gördüyünü düşünmək qətiyyən mümkün deyil. Üstəlik, o bu istiqamətdəki bir fikri inkar hesab etmişdir, ona aid olduğu deyilən bu söz bunu açıq şəkildə göstərir: "Niyə mənə Tanrı deyirsiniz? Yaxşı olan tək biri var, O da Tanrıdır". (Markos, 10/18) Əlbəttə ki, hz. İsanın nə söyləyib, nə söyləmədiyi ilə əlaqədar qəti danışmaq qeyri-mümkündür. Lakin əldəki dəlillər, tarixçilərin fikir birliyi ilə hz. İsanın belə bir iddia etmədiyini qəbul etmələrini təmin etmişdir.(51)

Yəhudilər arasında çox sıx şəkildə işlədilən "Allahın oğlu" ifadəsi məcazi olaraq "Allaha məxsus" mənasını verirdi. Buna görə də, bir insana Allahın oğlu deyildikdə, o insanın Allaha yaxın olduğu, Allaha qəlbən xidmət etdiyi və Allahın razı olacağı bir həyat tərzi yaşadığı ifadə edilmək istənilirdi. Qətiyyən həmin insanın Allahla eyni və ya Ona bərabər

xüsusiyyətlərə sahib olduğu, yaxud ilahlıq daşıdığı qəsd edilmirdi (Allahı tənzih edirik). Necə ki, yəhudilikdə də belə bir inanca yer yoxdu.

Dolayısilə ilk xristianların da bu ifadəylə, hz. İsaya bəslədikləri hörməti və onun Allaha yaxınlaşdırılan mübarək bir qulu olduğuna dair güclü inanclarını bildirmək istəmiş olmaları mümkündür. Necə ki, bir çox xristian ilahiyyatçı da: "Hz. İsa üçün işlədilən "Allahın oğlu" ifadəsinin, hz. İsanın tərəfdarları tərəfindən özünü şərəfləndirmək və ucaltmaq üçün işlətdiyini söyləyərək, məcazi məna daşıdığını" vurğulayır.

Əslində "oğul" ismi ivrit dilində xüsusi ifadə forması idi və başqa anlayışlarla birlikdə də işlədilirdi. Bir insanın bir şeyin "oğlu" olaraq xatırlanması, onunla yaxın əlaqəsi olduğu mənasını verirdi. “The Catholic Encyclopedia”, bu mövzuda bunları yazır:

"Oğul" sözü samilər (yəhudilər və ərəblər) arasında, yaxın və ya xüsusi bir əlaqəni bildirmək üçün işlədilirdi. Məsələn, "qüvvətin oğlu" qəhrəman döyüşçü deməkdi; "pisliyin oğlu" pis insan, "qürurun oğlu" qürurlu insan, "malın oğlu" çox zəngin bir insan, "fidyənin oğlu" bir girov, "ildırımın oğlu" çox sürətli uçan bir quş, "ölümün oğlu" öləcəyi gözlənilən bir insan, "yayın oğlu" ox, "şeytanın oğlu" lənətli bir insan mənasını verirdi. "Peyğəmbərlərin oğlu" ifadəsi, həmin peyğəmbərlərə itaət edən tələbələri ifadə etmək üçün işlədilərdi. "Tanrının oğlu" ifadəsi isə, Əhdi-Ətiqdə, Allahla yaxın əlaqəsi olan varlıqlar üçün işlədilərdi. Mələklər və ya yalnız dindar insanlar "Tanrının oğlu" kimi xatırlanırdılar.(52)

19 May Universiteti İlahiyyat fakültəsindən Dos. Dr. Mahmud Aydın, John Hickin bu mövzudakı fikirlərini belə nəql edir:

...Bu cür bir ifadə forması, hz. İsanın gəldiyi dövrdə onsuz da geniş şəkildə mövcud olan və cəmiyyətdəki mühüm şəxsiyyətlər üçün tez-tez işlədilən bir ifadə forması idi. Dolayısilə, hz. İsanın həvariləri də bu ifadəni (yəni "Allahın oğlu" ifadəsini) mənimsəyərək, onu asanlıqla öz liderləri, yəni hz. İsa üçün işlədiblər. Buna görə də, hz. İsa eynilə Davud nəslindən gələn krallar və yəhudi cəmiyyətində yaşayan dini və əxlaqi baxımdan çox mühüm şəxsiyyətlər kimi Allahın oğlu olaraq təsvir edilmişdir. Hikə görə yəhudi düşüncəsində özlərinə "Allahın oğlu" sifəti verilən krallar və mühüm şəxsiyyətlər qətiyyən söz mənası etibarilə Allahın oğulları kimi başa düşülməyiblər. Lakin onlar sahib olduqları xüsusiyyətlərdən ötrü yalnız şərəfləndirilmək və ucaldılmaq üçün Allahın oğulları kimi görülərək şərəfləndiriliblər. Yəni həmin bu ifadə yəhudi düşüncəsində qətiyyən həqiqi mənada işlədilməmişdir. Yəhudi tarixi boyunca "Allahın oğlu" ifadəsi insanlar üçün işlədilmişdir. Məsələn, Məsih, sülalə krallarının Allahın oğlu kimi qəbul edildiyi hz. Davudun sülaləsindən gəlməli olan dünyəvi bir kral kimi qəbul edilirdi... Hz. İsanın tərəfdarları da mövcud olan bu ifadələri çox asan şəkildə onun üçün işlədiblər. Hz. İsanın ilahi xüsusiyyətə sahib varlıq hesab edilməsi ilk növbədə onun yaşadığı mədəniyyətin bir nəticəsidir. Buna görə də, hz. İsanın gəldiyi dövrdə bəzi mühüm xüsusiyyətlərə sahib insanlar, məcazi mənada ilahi xüsusiyyətə sahib "Allahın oğlu" kimi adlandırılırdılar.(53)

Mahmud Aydın (Mahmut Aydın), Con Hikin (John Hick) bu mövzudakı fikirlərinə geniş şəkildə yer verdikdən sonra "Allahın oğlu" ifadəsinin istifadəsi barədə bunları müəyyənləşdirmişdir:

Nə hz. İsanın şəxsən özü ilahi xüsusiyyətə sahib olduğunu irəli sürüb, nə də onun həvariləri onun ilahiliyini vurğulayacaq hər hansı isnad ediblər. Əksinə hz. İsanın ilahlığı düşüncəsi ilk xristian cəmiyyətində ortaya çıxmış və zaman keçdikcə inkişaf edib doktrina halını almış və ehkam halına gətirilmişdir. Çünki, bu, ilahi oğulluq ifadələrinin zaman keçdikcə yəhudi konteksindən çıxıb ellinist Roma mədəniyyətinin konteksinə daxil olması nəticəsində baş vermişdir.[(54)]

Əhdi-Cədid tədqiqatçılarından və ilk xristianlığın kökləriylə əlaqədar müxtəlif kitabları olan P. M. Keysi (P. M. Casey) isə: "Hz. İsa, özünün xüsusi və olduqca dindar bir insan olduğunu düşünənlər tərəfindən Tanrının oğlu kimi adlandırılmış ola bilər" deyir.[(55)] Keysinin (Casey) diqqət çəkdiyi digər bir məsələ isə, yəhudi ənənəsində fərdi və ya ictimai cəhətdən əhəmiyyətli insan və hadisələrin, mifoloji və məcazi ifadələrlə ifadə edilməsidir.[(56)]

Yəhudi inanclarında yer alan "Məsih" anlayışına görə bir kral olan Məsih, hz. Davudun nəslindən gələcəkdi. Hz. Davudun nəslindən gələn krallar da, "krallıq mövqeyinə təyin edilmiş olmaq mənasında Tanrının oğulları olaraq" qəbul edilirdilər...[(57)] Hz. İsaya "Məsih" olaraq iman edənlər də bu inancın davamı olaraq onu bu ifadəylə yada salmaqda bir problem görməmiş ola bilərlər.

Prof. E. P. Sanders də “the historical figure of Jesus” (“Hz. İsanın tarixi portreti”) adlı əsərində Allahın oğlu ifadəsinin yəhudi cəmiyyətində heç vaxt həqiqi mənasıyla işlədilmədiyinə diqqət çəkir. Sanders, yəhudilər arasında işlədilən "Allahın oğulları" ifadəsinin kişi və qadınlara aid olan mənəvi məna ifadə etdiyini söyləyir. Bu yəhudilər üçün məcazi məna ifadə edir və Allaha bağlılığı bildirir.[(58)] E. P. Sanders ilk xristianlar tərəfindən "Allahın oğlu" ifadəsinin işlədilməsini belə açıqlayır:

...İlk xristianlar hz. İsa üçün “Allahın oğlu” sözünü işlətdilər, lakin onlar onun yarı Tanrı-yarı insan olduğunu düşünməmişdilər. Onlar “Allahın oğlu” sözünü yüksək vəzifə hesab etmişdilər... Hz. İsanın ilk tərəfdarları onu “Allahın oğlu” olaraq çağırdıqlarında daha mücərrəd vəziyyəti ifadə etmək istəmiş ola bilərlər: çox əhəmiyyətli bir işi bacarması üçün özünü seçən Allahla xüsusi əlaqəsinin olması kimi. Qeyri-yəhudi xristianlar isə, bu dini ilk qəbul etdikləri vaxt, Allahın oğlu ifadəsini, Makedoniyalı İsgəndərlə əlaqədar hekayələr və ya öz mifologiyaları əsasında anlamış ola bilərlər...[(59)]

Sandersin də qeyd etdiyi kimi, hz. İsanın təbliğinin yəhudilərdən qeyri-yəhudilərə, yəni bütpərəst romalılara keçməsiylə birlikdə, məcazi olaraq işlədilən bu ifadənin mənası dəyişməyə başlamış və hz. İsanın ilahlığını ifadə edən bir mənada işlədilməyə başlanmışdır. Beləliklə də, ilk xristianlar tərəfindən Məsih olaraq tanınan və tamamilə bəşəri xüsusiyyətə sahib bir şəxsiyyət kimi qəbul edilən hz. İsa, ilah olaraq xatırlanmışdır (Allahı tənzih edirik).

Uilyam C. Varner (William C. Varner), bir məqaləsində bu terminin xristianlar tərəfindən necə qəbul edildiyini araşdırır:

İncildə hz. İsaya inanan hər kəsin "Allahın oğlu" kimi tanıdıldığı danılmaz həqiqətdir. (Yuhanna, 1/12) O zaman mənim Allahın oğlu olmağımla hz. İsanın Allahın oğlu olması arasında necə bir fərq var? Allahın oğlu ifadəsi həqiqətən də hz. İsanın ilahlığının bir ifadəsidir mi, yoxsa xristianlar İncilin nəzərdə tutduğundan daha çoxunumu oxuyurlar? Bu sualın cavablandırılması üçün xristianlıq mesajını ilk dinləyən və ilk oxuyanların bu ifadəni necə anladıqları araşdırılmalıdır. Bəs bu insanlar kimdi? Bu insanlar bir qayda olaraq yəhudilər və qeyri-yəhudilərdi. Bu iki qrup da "Allahın oğlu" terminini 1-ci əsrin dilçiliyi və mədəni mühitində həmişə işlədirdilər.(60)

Təslis inancını müdafiə edənlər, İncildə işlənən "oğul" anlayışını şərəfləndirmə və hörmət göstərmə ifadəsi kimi şərh etməyi qəbul etməzlər. Halbuki İncilin bir çox yerində, həmin bu anlayış, açıq şəkildə bu mənada işlədilmişdir. Məsələn, "Tanrının oğulları" ifadəsi Allaha iman edən və hz. İsanın izindən gedən bütün səmimi iman sahibləri üçün işlədilir:

"Lakin mən sizə deyirəm: Düşmənlərinizi sevin və sizə əziyyət verənlər üçün dua edin ki, siz göylərdə olan Rəbbinizin oğulları olasınız, çünki o, günəşini pislərin və yaxşıların üzərində doğdurar və saleh olanlarla olmayanların üzərinə yağışını yağdırar. Çünki sizi sevənləri sevsəniz nə qazanarsınız? (Romalıların) Vergi toplayanları da belə etmirlərmi? Eləcə də, ancaq qardaşlarınıza salam versəniz, bundan artıq nə etmiş olarsınız? Bütpərəstlər də belə etmirlərmi? Bundan ötrü də, səmavi Rəbbiniz kamil olduğu kimi siz də kamil olun". (Matta, 5/44-48)

Allahın ruhuyla idarə olunanların hamısı Allahın oğullarıdır. (Pavlus'un Romalılara Mektubu, 8/ 14)

Hər şeyə qadir olan Rəbb: "Sizin Allahınız olacağam, siz də oğullarım və qızlarım olacaqsınız" deyir. (Pavlus'un Korintlilere İkinci Mektubu, 6/18)

Ziddiyyətiniz böyük olacaq və sizə Uca olanın oğulları deyiləcək. Çünki o yaxşılıq bilməzlərə və pislərə qarşı da yumşaqürəklidir. (Luka, 6/35)

Yuxarıdakı nümunələrdə də görüldüyü kimi "Allahın oğulları" ifadəsi İncil ayələrində bir çox dəfə işlədilir. Bu məna isə, eynilə yəhudi mədəniyyətindəki kimi istifadə edilir: Allahı dost tutmuş, Allaha yaxınlaşmaq üçün səy göstərən, Allahın qanunlarına görə yaşayan insanlar... Necə ki, Luka İncilində hz. Adəmdən də "Allahın oğlu idi" (Luka, 3/38) kimi bəhs edilir. İncildə olduğu kimi Əhdi-Ətiqdə də "Allahın oğlu" ifadəsi bir çox dəfə işlədilir. Məsələn, Əhdi-Ətiqdə İsrail millәti üçün "oğul" ifadəsi işlədilir:

İsrail, uşaq olarkən onu sevdim və oğlumu Misirdən çağırdım. (Hoşea, 11/1)

Digər bir Tövrat ayəsində eyni ifadə, mələkləri təsvir etmək üçün işlədilmişdir:

Nəhayət Allahın oğulları Rəbbin qarşısında özlərini təqdim etməyə gəldikləri gün gerçəkləşdi ki, onların arasında şeytan da gəldi. (Eyüb, 1/6)

Çıxış fəslinin 6-cı babının başlanğıcında "Allahın oğulları" ifadəsiylə yer üzündə çoxalan insanlar təsvir edilir. Bu istiqamətdəki digər ayələr belədir (Allahı ayələrdəki ifadələrdən tənzih edirik):

Firona deyəcəksən: Rəbb belə deyir: İsrail oğlumdur, ilkimdir. (Çıkış, 4/22)

Ağlayaraq gələcəklər, yalvardıqca onlara yol göstərəcəyəm, onları sulu vadilər yanında büdrəməyəcəkləri doğru yolda yeridəcəyəm, çünki Mən İsrailin Rəbbiyəm, Efrem də ilk oğlumdur. (Yeremya, 31/9)

Fərmanı elan edəcəyəm, Rəbb mənə (Davud) dedi: Sən Mənim oğlumsan, Mən səni bu gün dünyaya gətirtdim. (Mezmurlar, 2/7)

Tövratda hz. Süleyman üçün də "Allahın oğlu" ifadəsi işlədilir. Əlaqədar hissə belədir:

Eləcə də, gerçəkləşəcək ki, günlərini başa vurub atalarınla birlikdə olmaq üçün getdiyin vaxt, səndən sonra oğullarından gələcək nəslini dayandıracağam və onun krallığını gücləndirəcəyəm. O Mənə ev tikəcək və onun taxtını əbədiyyən möhkəmləndirəcəyəm. Mən onun Rəbbi olacağam və o Mənim oğlum olacaq, eləcə də, səndən əvvəl olana kömək etməkdən imtina etdiyim kimi ona kömək etməkdən imtina etməyəcəyəm və onu həmişə Öz evimdə və Öz krallığımda saxlayacağam və onun taxtı əbədiyyən möhkəmlənəcək. (1. Tarihler, 17/11-14)

"Allahın oğlu" sifətiylə xatırlanan bu mübarək insan hz. Davudun oğullarından biri olan hz. Süleymandır.

(Davud oğlu Süleymana) dedi: ...budur, sənin üçün bir oğul doğacaq, o sülhsevər olacaq və və onu ətrafındakı bütün düşmənlərindən uzaqlaşdıracağam, çünki onun adı Süleyman olacaq və onun günlərində İsrailə salamatlıq və sakitlik verəcəyəm. O Mənim adıma ev tikəcək, Mənim oğlum olacaq, Mənsə onun Rəbbi olacağam və İsrail üzərində krallığın taxtını əbədiyyən gücləndirəcəm. Oğlum indi Rəbb səninlə birlikdə olsun və işin avand olsun və Allahın olan Rəbbin evini, sənin haqqında söylədiyi kimi hazırla. (1. Tarihler, 22/9-11)

Yenə eyni hissədə belə davam edilir:

Bütün oğullarımdan (çünki Rəbb mənə çoxlu oğul verdi), Rəbbin İsrail üzərində krallığın taxtına oturmaq üçün oğlum Süleymanı seçdi və mənə belə dedi: Oğlun Süleyman, evimi və həyətlərimi o düzəldəcək, çünki onu Özümə oğul götürdüm və Mən onun Rəbbi olacağam. Eləcə də, bu gün olduğu kimi, əmrlərimi və hökmlərimi yerinə yetirmək üçün təmkinli olsa, onun krallığını əbədiyyən gücləndirəcəm. (1. Tarihler, 28/5-7)

Yuxarıda qeyd olunanların hamısı yəhudi ənənələrində "Allahın oğlu" ifadəsinin "Allahı dost tutan, səmimi və təqva sahibi" qullar üçün işlədildiyini tam açıq şəkildə göstərir. Dolayısilə bu ifadənin hz. İsa üçün istifadə olunma məqsədi də eynidir. Bu ifadə, eynilə hz. Süleyman və hz. Adəmlə əlaqədar açıqlamalarda da olduğu kimi, yəhudi ənənələrindən qaynaqlanan məcazi izahatdır. Bu termin yəhudi mədəniyyətiylə yetişən, Tövratı bilən və hz. İsaya tabe olana qədər yəhudiliyin tələblərini yerinə yetirən ilk xristianlar tərəfindən də hörmət, təqva və Allaha yaxınlığı ifadə etmək üçün seçilmişdir.

"Allahın oğlu" ifadəsinin təslis inancına dayaq meydana gətirə bilməyəcəyini göstərən digər bir dəlilsə, İncildə Allahın adının istifadə olunması formasıyla əlaqədardır. Antoni Bazard (Anthony Buzzard), İncildə Allahın adının hansı formada işlədildiyini, "who his Jesus? Do the creeds tell us the truth about him?" (“hz. İsa kimdir? Etiqadlar bizə onunla əlaqədar həqiqəti söyləyirmi?”) başlıqlı məqaləsində bu sözlərlə təsvir edir:

Tanrı sözü Bibliyada minlərlə dəfə tək şəxs əvəzlikləriylə ifadə edilir: Mən, Mənə, Məni, Sən, Sənə, Səni, O, Ona, Onu və s. Biri bu əvəzliklərin 11 000 dəfə işlədildiyini hesablamışdır. Bütün dillərdəki bu əvəzliklər 3 insanı deyil, tək şəxsləri ifadə edir. Allahın üç deyil, bir varlıq olduğunu bizə bildirən minlərlə ayə var. Əhdi-Cədiddəki Allah adının "Allahın üç kimlikdə olduğu" mənasını verdiyini sübut edə biləcək heç bir hissə yoxdur. Buna görə də, Bibliyadakı Allah ismi qətiyyən təslis prinsipindəki Allah mənasına gəlmir.(61)

Bu başlıq boyunca vurğuladığımız kimi "oğul" ifadəsi yəhudi mədəniyyətində çox geniş şəkildə işlədilən və ilahlıq mənası daşımayan bir ifadədir. Dolayısilə bu ifadəni hz. İsanın Allahın oğlu olduğunu düşünərək işlədənlər, bu mübarək peyğəmbərin Allahla bərabər güclərə sahib olduğunu iddia edənlər (Allahı tənzih edirik), yəhudi inanclarına görə böyük səhv edirlər. İslam dinində də bu ifadəni hz. İsaya ilahlıq isnad edərək işlədənlər Quran ayələrində bir çox dəfə xəbərdar edilirlər. Bu hərəkətləri Allah Qatında çox böyük günahdır. Rəbbimiz Maidə surəsində belə bildiriir:

**“Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir!” deyənlər artıq küfrə sapdılar. De: “Əgər Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanlarını hamısını məhv etmək istəsə, kim Ona bir şeylə mane ola bilər?” Göylərin, yerin və onların arasında olanların mülkü Allaha məxsusdur. Allah istədiyini yaradır. Allah hər şeyə qadirdir. (Maidə surəsi, 17)**

## İncildə "Ata" sözünün işlədilməsi

İncildə tez-tez işlədilən və təslis inancını müdafiə edən xristian ilahiyyatçılar tərəfindən mühüm bir dəlil kimi qəbul edilən ifadələrdən biri də "ata" sözüdür (xristianların yanlış inanclarını əks etdirmək məqsədiylə bu başlıqda işlədilən hər cür ifadədən Allahı tənzih edirik). Halbuki bu ifadə də yenə "oğul" ifadəsi kimi məcazi məna daşıyır. Üstəlik,

İncildə bu sözün yalnız hz. İsa tərəfindən deyil, iman sahibi, Allahdan qorxan, Allaha dua edib, Ondan kömək istəyən bütün insanlar tərəfindən də işlədildiyi görülür. "Ata" ifadəsiylə Allahın bu insanların tək sahibi, tək dostu və vəlisi olduğu ifadə edilir və bu ifadə təslis inancını dəstəkləyən məna vermir.

Bu istifadələrdən bəziləri belədir (Allahı aşağıdakı bütün ifadələrdən tənzih edirik):

...Ata məndən üstündür. (Yuhanna, 14/28)

Siz göylərdə olan Atanızın oğulları olasınız. Çünki O, günəşini pislərin və yaxşıların üzərində doğdurar və saleh olanlarla olmayanların üzərinə yağış yağdırar. (Matta, 5/45)

...Qardaşlarımın yanına get və onlara söylə, mənim Atamın və sizin Atanızın, mənim Tanrımın və sizin Tanrınızın yanına çıxıram". (Yuhanna, 20/17)

O vaxt doğru insanlar Atalarının hökmranlığında günəş kimi parlayacaqlar... (Matta, 13/43)

Amma sən dua edərkən "daxili otağına çəkil, qapını örtüb" qeybdə olan Atana dua et. Qeybdə görən Atan da sənə layiq olanı verəcək. (Matta, 6/6)

Atanız sizə lazım olanı, siz hələ ondan istəmədən əvvəl bilir. (Matta, 6/8)

...Səmavi Atanız bütün bunlara ehtiyac duyduğunuzu bilir. Siz hər şeydən əvvəl Tanrının hökmranlığını və doğruluğunu axtarın, bunların hamısı sizin üçün təmin ediləcək. (Matta, 6/32-33)

"Sizin işığınız insanların qarşısında belə parıldasın, sizin yaxşı işlərinizi görsünlər və göylərdə olan Atanıza həmd etsinlər". (Matta, 5/16)

"Çəkinin, insanlara yaxşılığı onların gözü qarşısında özünüzü göstərmək üçün etməyin, yoxsa göylərdə olan Atanızdan qarşılıq almazsınız" (Matta, 6/1)

İndi siz belə dua edin: Ey göylərdə olan Atamız, Adın müqəddəs olsun". (Matta, 6/9)

"Çünki insanların günahlarını bağışlasanız, səmavi Atanız da sizə bağışlayar". (Matta, 6/14)

"Atanız necə mərhəmətlidirsə, siz də mərhəmətli olun". (Luka, 6/36.)

İncildən götürülən yuxarıdakı ayələr diqqətlə araşdırıldıqda, Allahı yada salmaq məqsədiylə işlədilən "Ata" sözünün hörmət mənası daşıdığı, bunu işlədən insana fövqəlbəşər mövqe vermədiyi və bütün insanlar üçün etibarlı olduğu aydın olur. Bu ifadəylə yalnız hz. İsa ilə Allah arasındakı xüsusi əlaqə ifadə edilməmiş, Allaha təslim olub, Allahın razı olacağı şəkildə yaşayan bütün insanlara xitab edilmişdir. Necə ki, bu gün də xristianlar dualarına bir çox dəfə "Ata" deyə başlayarlar. Hz. İsanın İncildə keçən bənzər duaları da müxtəlif şəkildə şərh olunmamalıdır. Lakin təkrar vurğulamaq lazımdır ki, bu şərhlər, hz. İsaya ilahlıq isnad etmək məqsədiylə "Ata" ifadəsini işlədənlərin səhvini silib aparmır. Bu

hərəkətləri Allah Qatında çox böyük xətadır və Quran ayələrində bu insanların vəziyyəti belə bildirilir:

**"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir" deyənlər artıq küfrə sapdılar. Məsih isə demişdir: "Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır". (Maidə surəsi, 72)**

Bibliyada qeyd olunan müxtəlif açıqlamalarda Rəbbimizin sonsuz güc və qüdrəti, bütün çatışmazlıq və nöqsanlardan uzaq olduğu tam açıq şəkildə vurğulanır. Con Hik (John Hick) bu mövzunu verdiyi bir müsahibədə belə ifadə edir:

Klassik xristian teologiyası hz. İsanın vəfatından uzun müddət sonra meydana gətirildi. Müasir tarixi, tənqidi Əhdi-Cədid tədqiqatları, bizə, əlimizdə olan Əhdi-Cədid mətnlərində hz. İsaya isnad edilən sözlərin hansılarını həqiqətən hz. İsanın söyləmiş ola biləcəyi mövzusunda aydınlıq gətirməyə çalışır... (İncillərdə işlənən) "Ata" ifadəsinin həqiqi məna verdiyi hesab edilməsi qeyri-mümkündür. Eynilə hz. İsanın "Tanrının oğlu" olması ifadəsinin də həqiqi mənada işlədilmiş olduğunu qəbul edə bilmərik. Əhdi-Ətiqdə "Tanrının oğlu" ifadəsi çox keçir. Məsələn, Adəm Tanrının oğludur, mələklər Tanrının oğullarıdır, İsrail kralları Tanrının oğullarıdır və nəhayət İsrail milləti bütöv şəkildə Tanrının oğullarıdır. Açıq şəkildə bu ifadələrdəki "Ata" və "oğul" anlayışları, həqiqi bir əlaqəni ifadə etmir, təkcə Tanrı-insan əlaqəsinin metaforik bir ifadəsini simvolizə edir. Dərhal bunu əlavə edim ki, bu ifadələri həqiqi mənada işlədilmiş ifadələrmiş kimi anlamağa çalışmaq, yəhudilikdə böyük günah kimi sayılır. Hz. İsa dövründə bu cür metaforik ifadələr onsuz da mövcud idi. Özünü hər hansı bir Tanrıya həsr etmiş hər hansı bir insanın metaforik olaraq "Tanrının oğlu" kimi ifadə edilməsi, o dövrdəki ümumi dini xəyal gücünün bir hissəsi kimi qəbul edilə bilər. Bir sözlə, "oğul" ifadəsi Tanrıya yaxınlığın simvolik ifadəsi olmuş olur. Anladığıma görə, müsəlmanları narahat edən bu ifadənin həqiqi məna verdiyi hesab edilməsidir. Eynilə, bir xristian olaraq mənim də belə bir kəlmədən narahat olacağımı ifadə etməliyəm.(62)

İncildə məcazi mənalarıyla başa düşülməli olan daha bir çox açıqlama var. "Allahın övladları" ifadəsi də bunlardan biridir (aşağıdakı ayələrdə işlədilən bütün ifadələrdən Allahı tənzih edirik):

...Dirilişin övladları olaraq Tanrının övladlarıdırlar. (Luka, 20/36)

Təkcə özünü qəbul edib, adına iman edənlərin hamısına Tanrının övladları olma haqqını verdi. (Yuhanna, 1/12)

Bunu özündən söyləmirdi. O, ilin baş kahini olaraq İsanın, xalqın uğruna və yalnız xalqın uğruna deyil, Tanrının bir-birindən ayrı düşmüş övladlarını bir yerə toplamaq üçün də öləcəyinə dair peyğəmbərlik edirdi. (Yuhanna, 11/51-52)

Ruh bizim ruhumuzla birlikdə, Tanrının övladları olduğumuza şahidlik edər. Əgər Tanrının övladlarıysaq, eyni zamanda varisik. Məsihlə birlikdə ucaldılmaq üçün Məsihlə birlikdə əzab çəkiriksə, Tanrının varisləriyik, Məsihlə ortaq varislərik. (Pavlus'un Romalılara Mektubu, 8/16-17)

Yaradılış, Tanrı övladlarının ortaya çıxmasını böyük həsrətlə gözləyir. (Pavlus'un Romalılara Mektubu, 8/19)

Hər şeyi deyinmədən və mübahisə etmədən edin ki, həyat sözünə möhkəm sarılaraq aralarında kainatdakı ulduzlar kimi parladığınız bu əyri və pozğun nəslin ortasında mükəmməl və saf, Tanrının ləkəsiz övladları olasınız... (Pavlus'un Filipelilere Mektubu, 2/14-16)

Baxın Rəbb bizi o qədər çox sevir ki, bizə “Tanrının övladları” deyilir! Həqiqətən də beləyik. Dünya Rəbbi tanımadığı üçün bizi də tanımır. Əziz qardaşlarım, hələ indidən Tanrının övladlarıyıq, lakin nə olacağımız hələ bizə göstərilmədi... (Yuhanna'nın Birinci Mektubu, 3/1-2)

Doğru olanı etməyən və qardaşını sevməyən Tanrıdan deyil. Məhz Tanrının övladları ilə İblisin övladları belə fərqləndirilir. (Yuhanna'nın Birinci Mektubu, 3/10)

Tanrını sevib buyruqlarını yerinə yetirməklə, Tanrının övladlarını sevdiyimizi anlayarıq. (Yuhanna'nın Birinci Mektubu, 5/2)

Nə ata ifadəsiylə, nə də uşaq ifadəsiylə insanlara ilahlıq isnad edilmədiyi aydındır (Allahı tənzih edirik). Allaha itaətkar, Allaha sadiq, Allahı dost seçmiş və yalnız Allahı razı salmaq üçün yaşayan insanlar İncil ayələrində "Allahın övladları" kimi ifadə edilmişdir. Yəhudi mədəniyyətindən qaynaqlanan bu istifadənin bir nəticəsi olaraq da hörmət və sevginin əlaməti olaraq insanlar Allaha "Ata" deyərək yalvarıblar. Bu məcazi mənalı terminlər, yəhudiliyin təməli olan: "Dinlə ey İsrail, Rəbb bizim Allahımızdır və Rəbb təkdir" (Tesniye, 6/4) hökmünün gətirdiyi tövhid inancı içində başa düşülmüşdür.

## "Allah bütün insanların sahibidir" mənasında işlətmiş ola bilərlər

Hz. İsanın həvariləri və ilk xristianlar, hz. İsanın təlimindən keçmiş, dərin iman sahibi, çox böyük əxlaqlı və hz. İsanın Allah yolundakı köməkçiləriydilər. Bundan ötrü də, başlarına gələn hər hadisəni, hz. İsanın təbliğini, dərin imanlarıyla açıqlayırdılar. Onlar Allahın sonsuz güc və qüdrət sahibi olduğunu, bütün kainatın tək sahibi olduğunu, Allah istəmədikcə heç nəyin mövcud ola bilməyəcəyini, heç kimin heç nəyə gücünün çatmayacağını çox yaxşı

bilirdilər. Bundan ötrü də, sahib olduqları dərin iman nəticəsində, hz. İsa üçün "Allahın oğlu" ifadəsini işlədərkən eyni şəkildə düşünmüş ola bilərlər. Bütün ataları, bütün anaları və bütün oğulları Rəbbimizin yaratdığını və hamısının tək sahibinin Allah olduğunu ifadə etmək istəmiş ola bilərlər. Bu heç vaxt unudulmamalıdır ki, ana və ata bir övladın yaradılması üçün Allahın vəsilə etdiyi səbəblərdir. Həqiqətdə isə kainatdakı bütün varlıqları yaradan aləmlərin Rəbbi olan Allahdır. Bu mənada bütün analar, bütün atalar, bütün oğullar Allaha məxsusdur. Ətrafımızda gördüyümüz bütün canlı və cansız varlıqlar Allaha məxsusdur. Hal-hazırda üzərində oturduğunuz kreslo, içində olduğunuz bina, şəhərlər, ölkələr, millətlər Allaha məxsusdur. Bir çay varsa, o Allahın çayıdır. Allahın dənizi, Allahın məscidi, Allahın kilsəsi, Allahın bulağıdır. Dolayısilə bütün oğullar da Allaha məxsusdur. Rəbbimizin bir insan yaratmaq üçün bir anaya, bir ataya və ya digər bir səbəbə ehtiyacı yoxdur. Onun təkcə bir dəfə "ol" deməsi kifayətdir. Bütün fiziki, bioloji, kimyəvi qanunları yaradan Rəbbimizdir. Dolayısilə bir insanın yaranması üçün, "olmalı olduğu düşünülən" bütün qanunları və səbəbləri də Rəbbimiz yaratmışdır. Hz. Məryəmi də, kainatda gəlib-keçmiş bütün anaları da, bütün anaların uşaq dünyaya gətirmə sistemlərini yaradan da sonsuz güc və qüdrət sabihi olan Allahdır. Hər doğum hadisəsini meydana gətirən Allahdır. Ananı yaradan, atanı yaradan Allahdır. Rəbbimiz hər cür nöqsan, çatışmazlıq və ehtiyacdan uzaqdır. Ayələrdə belə bildirilir:

**Sizin üçün qulaq, göz və ürəklər yaradan Odur. Siz çox az şükür edirsiniz. Sizi yer üzündə yaradıb çoxaldan Odur. Siz Onun hüzuruna toplanılacaqsınız. Dirildən də, öldürən də Odur. Gecə ilə gündüzün bir-birini əvəz etməsi Ona aiddir (Onun qanunudur). Yenə də ağlınızı işlətməyəcəksiniz? (Muminun surəsi, 78-80)**

**Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan, sonra sizi, böyüyüb yetkinlik yaşına çatasınız, daha sonra da qocalasınız deyə uşaq olaraq ana bətnindən çıxardan Odur. Hərçənd ki, içərinizdə qocalmamışdan əvvəl öldürülənlər də var. Bu ona görədir ki, müəyyən olunmuş vaxta yetişəsiniz və bəlkə, ağlınızı işlədəsiniz. Dirildən də, Öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: “Ol” deyir, o da dərhal olur. (Mömin surəsi, 67-68)**

**Güldürən də, ağladan da Odur! Öldürən də, dirildən də Odur! O, biri erkək və bir də dişi olmaqla iki cüt yaratdı axıdılan bir nütfədən. Təkrar diriltmək də Ona aiddir. (Nəcm surəsi, 43-47)**

Şuəra surəsində isə hz. İbrahimin belə dua etdiyi bildirilir:

**O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir. O Rəbb ki, məni yedirdir və içirdir. O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir. O Rəbb ki, məni öldürəcək, sonra diriltdəcəkdir. O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram. (Şuəra surəsi, 78-82)**

Əgər yuxarıdakı ayələr əsasında düşünülsə xristian anlayışları da məna qazanar. Hz. İsa, hz. Musa, hz. Saleh, hz. Nuh, hz. Hud və hz. Məhəmməd (s.ə.v) Allaha aid qullardır. Çünki bütün peyğəmbərlər Allahındır. Ayələrdə yəhudilərin hz. Üzeyir üçün "Allahın oğludur" dedikləri bildirilir. Yəhudilər də, hz. Üzeyir də Allaha aid qullardır. Rəbbimiz anası və atası olmadan, hz. Adəmi torpaqdan yaratmışdır. Mələkləri yaradan da aləmlərin Rəbbi olan Allahdır. Hz. Yəhyanı möcüzəvi şəkildə yaradan Allahdır. Bunun əksini söyləmək çox böyük aldanış olar. Təkcə hz. İsa deyil, hər ana, hər ata, hər oğul Allahındır. Xristianlar da əvvəllər "Allahın oğlu" ifadəsini bu mənada işlətmiş ola bilərlər. Xristianlara məxsus bir internet saytında da bu barədə bir açıqlama yer alır:

"Hz. İsa Allahın oğludur" deyərkən qətiyyən fiziki mənadakı oğulluqdan bəhs etmirik. Biz yalnız hz. İsanın Allahdan gəldiyini söyləyirik... "Oğul" gündəlik dildə də çox sıx işlədilir. Bir çox dildə bu söz fiziki əlaqəni bildirmək üçün işlədilməz. Məsələn, tələbələr üçün "biliyin övladları" deyimi var. Vətəndaşlar "ölkələrinin övladları"dırlar. Misir "Nilin oğlu" kimi xatırlanılır. Bir ərəb "səhra oğlu" kimi təsvir edilir. Quranın Bəqərə surəsində də "yol oğlu" ifadəsi işlədilir. Təfsirçilər bu ifadənin səyyah mənasında işlədildiyini söyləyirlər. Göründüyü kimi "Allahın oğlu" ifadəsi insanın başa düşdüyü mənada bir qohumluğu ifadə etmir.[63]

Bəzi xristianlar "Allahın oğlu" ifadəsinin (Allahı tənzih edirik) bir təcəlli olaraq qəbul edilməli olduğunu da söyləyirlər. Bu aydın bir açıqlamadır və Rəbbimizin Quran ayələriylə bildirdiyi həqiqətlərə də uyğun gəlir.

Allah bütün kainatı yoxdan yaradandır və bütün kainat üzərində mütləq hakimiyyət sahibidir. Göylərin və yerin sahibidir. Allah hər yerdədir. Bütün analar və atalar Allahın təcəlliləridirlər. Bütün oğullar və uşaqlar Allahın təcəlliləridirlər. Allah bir çox yerdə və bir çox şəkildə təcəlli edə bilər. Necə ki, Quran ayələrində də bunun müxtəlif nümunələri var. Əraf surəsində belə bildirilir:

**Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. Musa dedi: "Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım". O dedi: "Sən məni görə bilməzsən. Lakin bu dağa bax. Əgər o, öz yerində qala bilsə, sən də Məni görəcəksən". Rəbbi dağa təcəlli etdikdə (göründükdə) onu parça-parça etdi. Musa da bayılaraq yerə sərildi. Özünə gəldikdə isə dedi:**

**“Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm!” (Əraf surəsi, 143)**

Ayədə keçən təcəlli etdi ifadəsi; "zahir olmaq, özünü büruzə vermək, ortaya çıxmaq, ifadə edilmək..." kimi mənalarda işlədilir. Elmalılı Həmdi Yazır, Quran təfsirində bu ayəni belə açıqlayır:

Rəbbi ona: “Məni qətiyyən görə bilməyəcəksən, amma və lakin dağa bax, əgər o yerində dayansa sən də Məni görəcəksən” dedi. Bundan sonra Rəbbi dağa təcəlli etdikdə (belə ki, bu nisbi təcəllidir, yəni bütün əzəməti və mütləq qüdrəti ilə deyil, əzəmət və qüdrətiylə baxması, əmr və iradəsindən bir hissənin dağa dəyməsi) onu darmadağın etdi. Həmzə, Kisai, Xələf-i Aşir qiraətlərində oxunduğuna görə, "dümdüz elədi", yəni, dağ yox olub, yeri dümdüz oldu, hörgücsüz bir dəvə kimi oldu... Bu təcəlli nəticəsində, iki hadisə baş verdi: Biri dağın parçalanması, digəri də hz. Musanın özündən gedib yerə yıxılması. Deməli, hz. Musa, dağdan ötrü yaranan nisbi təcəlliyə belə tab gətirə bilməyib özündən getdi, tam və mütləq təcəlli olsaydı, bütün dünya və ehtimal ki, bütün kainat bir anda yox olacaqdı. "Sən Məni qətiyyən görə bilməyəcəksən" deyilməsinin əsas hikməti də bu idi...(64)

Digər bir ayədə isə belə buyurulur:

**Biz Musanı Turun sağ tərəfindən çağırdıq və onunla gizlicə danışmaq üçün onu özümüzə yaxın etdik. (Məryəm surəsi, 52)**

**Oda yaxınlaşdıqda bir səda gəldi: “Ey Musa! (Taha surəsi, 11)**

**Musa oraya gəlib çatdıqda, mübarək yerdəki vadinin sağındakı bir ağac tərəfdən ona nida gəldi: “Ey Musa! Aləmlərin Rəbbi olan Allah Mənəm! (Qəsas surəsi, 30)**

Ayələrdə də bildirildiyi kimi Allah istədiyi yerdə, istədiyi şəkildə təcəlli edə bilər və bütün varlıqlar da Allahın təcəlliləridirlər. İnsanlar Rəbbimizin hz. Musaya da bildirdiyi kimi, Allahı görə bilməzlər. Amma təcəlliləri ilə təmasda olarlar. Məsələn, ayələrdə Rəbbimizin ağacda təcəlli etdiyi bildirilir. Bu heç gözlənilməz vəziyyətdir. Eynilə hz. Musanın əsasında təcəlli edən də Allahdır. Allah Şəxsi olaraq təcəlli etməz, lakin istədiyi varlıqda istədiyi şəkildə təcəlli edə bilər. Allahın varlığı hər yeri əhatə etmişdir. Bu həqiqəti Rəbbimiz bir ayədə belə bildirir:

**Allah, Ondan başqa İlah yoxdur, əbədi Yaşayandır, Qaimdir. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, onların gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, çox Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

İncil açıqlamalarında da görüldüyü kimi, hz. İsa danışdığı bütün insanları təkcə Allaha iman etməyə dəvət edirdi. Müşriklərin bütün suallarını çox gözəl nümunələr və açıqlamalarla cavablandırırdı. Bu baxımdan baxıldıqda, "Allahın oğlu" ifadəsinin, o dövrün xalqı arasında geniş yayılmış bütpərəst üslub qarşısında işlədilmiş xüsusi bir açıqlama olması da mümkündür. İnsanlara hər şeyin sahibinin, bütün insanların yeganə dostu və vəlisinin Allah olduğunu başa salmaq istəyən iman sahibi biri: "Mən atamın deyil, Allahın oğluyam" kimi bir ifadə işlətmiş ola bilər. Bu ifadə, qarşıdakı insanın inkarçı üslubunu, bütlərinə dəyər verib mədət ümid edən yanaşma tərzini ortadan qaldırmaq üçün işlədilmiş ola bilər. Doğrusunu Allah bilər.

## Təşbehli ifadələrin və məcazi izahatların yanlış şərh olunması

İncil üzərində tədqiqatlar aparanların, üzərində əhəmiyyətlə dayandıqları məsələlərdən biri də, İncildə işlənən ifadələrin həqiqi mənalarıyla deyil, məcazi mənalarıyla şərh olunmalarının lazım olduğu məsələsidir. Bu baxımdan baxıldıqda bəhs olunan ifadələrin fərqli mənalar ehtiva etdikləri görülər. Quranda da bir çox təşbehli (açıq mənası nəzərdə tutulmayan və təşbeh və təmsil yoluyla həqiqətlərin bəyan olunmasında işlədilən ifadə) ayə var. Necə ki, bir çox xristian tədqiqatçı bu açıqlamaları verərkən Quran ayələrində işlənən ifadələrlə İncildə işlənən bəzi ifadələr arasında əlaqə yaratmağa çalışırlar. Karlos Madriqal (Carlos Madrigal), “üç Tanrımı, tək Tanrımı? Tövhiddə təslis” adlı kitabında bunları söyləyir:

Tanrı Özünü təqdim edərkən insan övladının asan anlayacağı simvolik ifadələr işlədir. Buna "insan oxşarlığı" (antropomorfik) terminləri deyilir. Bibliyada da, Quranda da Tanrıdan danışmaq üçün üz, əllər və s. fiziki isimlərdən istifadə edilir. "Ona bənzər heç nə yoxdur" (Şura surəsi, 11) ifadəsi bir həqiqəti dilə gətirir. Lakin bunu, Tanrının, Onu anlamağımız üçün işlətdiyi bənzətmələrlə qarışdırmamalıyıq. Quranda da Allahın əli, Allahın ovucu, Allahın üzü, Allahın gözləri kimi ifadələrə rast gəlinir... Bu ifadələri məcaz kimi başa düşməkdə heç kəs çətinlik çəkməz. Bəs ata və ya oğul ifadələrini məcaz kimi qəbul etməyəcəyik? Tanrıya isnad edilən insana məxsus terminlər bizə həqiqi bir təsvir deyil, lakin təkcə eyhamlar və təlqinlər verir. Buna görə də, bunlar təsvir edici bənzətmələr deyil, xatırladıcıdırlar. Heç kəsin Tanrını, fiziki məna verərək bir şeyə bənzətməyə haqqı yoxdur (bu bütpərəstlik olar)... Lakin buna baxmayaraq, O özünü, uyğun hesab etdiyi hər simvola

bənzədə bilər. Tanrı hər şeyi sevgiylə yaratdı. O hər şeyin mənbəyidir. Hər şeyin Onun sevgisiylə yaradıldığını dilə gətirmək üçün "ata" sözü çox gözəl bir tərifdir.(66)

Bu açıqlama İncildə işlədilən məcazi ifadələrin başa düşülməsi üçün əhəmiyyətlidir. Rəbbimiz Quran barədə: "...Biz Kitabı sənə, hər şeyin açıqlayıcısı, müsəlmanlara hidayət, rəhmət və müjdə olaraq endirdik" (Nəhl surəsi, 89) deyə buyurur. Ənam surəsində isə: "...Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna toplanılacaqlar" (Ənam surəsi, 38) deyə bildirilmişdir. Quranda hər şey ən mükəmməl, ən hikmətli və ən əsaslı şəkildə açıqlanmışdır. Rəbbimiz bəzi ayələrdə bizə müxtəlif təşbehli və məcazi izahatlarla da yol göstərir. Ayələrdə belə buyurulur:

## "Allahın əli"

**Sənə beyət edənlər Allaha beyət etmiş olurlar. Allahın Əli onların əllərinin üstündədir. Kim əhdini pozsa, ancaq öz əleyhinə pozmuş olar... (Fəth surəsi, 10)**

**...De: "Şübhəsiz ki, lütf Allahın Əlindədir və onu istədiyinə verir! Allah (rəhməti) geniş olandır, Biləndir" (Ali İmran surəsi, 73)**

**Yəhudilər dedilər: "Allahın Əli bağlıdır!" Onların öz əlləri bağlandı və dedikləri sözə görə lənətə gəldilər. Əksinə, Onun hər iki Əli açıqdır və O, Öz lütfündən istədiyi kimi sərf edir... (Maidə surəsi, 64)**

**Beləcə, Kitab əhli bilsin ki, onlar Allahın lütfündən heç bir şey əldə edə bilməyəcəklər. Şübhəsiz ki, lütf Allahın Əlindədir, onu istədiyinə bəxş edər. Allah böyük lütf sahibidir. (Hədid surəsi, 29)**

## "Allahın ovucu"

**Onlar Allahı layiqincə qiymətləndirmədilər. Halbuki Qiyamət günü yer bütünlüklə Onun Ovcunda olacaq, göylər isə Onun sağ Əli ilə büküləcəkdir. O, pakdır, müqəddəsdir və onların Ona qoşduqları şəriklərdən ucadır. (Zumər surəsi, 67)**

## "Allahın üzü"

**Allahla yanaşı başqa bir məbuda tapınma! Ondan başqa heç bir məbud yoxdur. Onun Üzündən başqa hər şey məhv olacaqdır. Hökm Onundur və siz Ona qaytarılacaqsınız. (Qəsas surəsi, 88)**

**Yer üzündə olan hər kəs ölümə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir. (Rəhman surəsi, 26-27)**

**Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah hər şeyi Əhataedəndir, Biləndir. (Bəqərə surəsi, 115)**

Ənfal surəsində isə belə buyurulur:

**Onları siz öldürmədiniz, Allah onları öldürdü. Atdığın zaman sən atmadın, Allah atdı ki, möminləri Öz tərəfindən yaxşı bir sınaqdan keçirtsin. Həqiqətən, Allah Eşidəndir, Biləndir. (Ənfal surəsi, 17)**

Bu ayə ilə, sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin, bütün hərəkətləri, bütün hadisələri meydana gətirən yeganə güc olduğu ifadə edilmişdir. Allah istəmədikcə insanın heç nəyə gücü çatmaz, heç nə edə bilməz, hətta ağzını belə açıb danışa bilməz. İnsanların etdikləri, söylədikləri və düşündükləri hər şey Allaha məxsusdur. Heç bir insan özünü yaradan Rəbbimizdən müstəqil güc və iradəyə sahib ola bilməz. Allah İnsan surəsində: "Allah istəmədikcə siz istəyə bilməzsiniz..." (İnsan surəsi, 30) deyə buyurur.

Yuxarıdakı ayələrdə işlənən ifadələrin hər biri insanlara Allahın sonsuz güc və qüdrətini ən gözəl nümunələrlə xəbər verən ayələrdir. Təşbehli ifadələr ehtiva edən bu ayələrdə dərin düşünən insanlara çox gözəl və hikmətli nəsihətlər var.

## Hz. İsanın çox üstün qul olduğunu, Allaha yaxınlığını vurğulamaq məqsədi ilə işlədilmiş ola bilər

Həvarilər və ilk xristianlar, hz. İsanın Allaha olan bağlılığına, səmimiyyətinə, dərin imanına, səbrinə, cəsarətinə, Allahın vəhyini tətbiq etməsindəki qətiyyətliliyinə, Allahın lütfü sayəsində gerçəkləşdirdiyi möcüzələrə və üstün əxlaqına şahid olublar. Hz. İsanın

doğumundan Allah Qatına alınmasına qədər həyatının hər mərhələsi çox böyük möcüzələrlə dolu olmuşdur. Hz. Məryəmin hamilə qalması və hz. İsanın doğumu, körpə olarkən danışıb təbliğ etməsi, xəstələri sağaltması, ölüləri diriltməsi, Allah Qatına alınması onun nə qədər fövqəladə mövqeyə sahib olduğunu açıq şəkildə göstərir. İncildə çox ətraflı şəkildə verilən bu cür məlumatlar Quran ayələriylə də təsvir edilir. Rəbbimiz, hz. İsanın, anası hz. Məryəmin və İmran ailəsinin seçilmiş insanlar olduqlarını vurğulayır.

İlk xristianların hz. İsadan bəhs edərkən işlətdikləri coşğulu üslub bir çox xristian ilahiyyatçı tərəfindən dilə gətirilmişdir. Əhdi-Cədid mütəxəssislərindən Con Marş (John Marsh), "Jesus in his lifetime" (hz. İsanın həyatı) adlı əsərində, "hz. İsanın ilk ardıcıllarının "Allahın oğlu" sifətini, onun Allah tərəfindən çox xüsusi bir vəzifə üçün seçildiyini və bundan ötrü də Allahla çox xüsusi bir əlaqəsi olduğunu bildirmək üçün işlətdiklərini" vurğulayır. E. P. Sanders isə hz. İsanın "Allahın oğullarının meydana gətirdiyi bir millətin içində, xüsusi bir vəzifə üçün seçilmiş olan bir Allah oğlu" olduğunu ifadə edir.(68)

Pol Knitter (Paul Knitter), "no other name" (başqa adı yoxdur) adlı əsərində bu üslubdan belə bəhs edir:

Əhdi-Cədid müəllifləri hz. İsadan bəhs edərkən analitik fəlsəfəçilərin deyil, coşğun iman sahiblərinin, elm adamlarının deyil, sevgi dolu insanların dilini işlədərlər. Krister Stendalın (Krister Stendahl) israrla üzərində dayandığı nöqtə, bunun "dini dil" (yəni "sevgi dili, şəfqət dili" olmasıdır. Xristianlar hz. İsanı "tək" şəkildə təsvir edərkən metafizik bir qanunu nəzərdə tutmur, hz. İsa ilə fərdi bir əlaqə yaratmağa və ona bağlılıqlarını detallaşdırmağa çalışırdılar. Xristian ifadələri, aydın olduğu və işlədildiyi şəkildə təkcə kilsənin sevgi dilidir. Ürəyin və beynin dilləri, şübhəsiz ki, bir-birinə zidd deyil, lakin hər ikisi də fərqlidirlər və bu fərqlərə hörmət göstərilməlidir.

Eyni zamanda hz. İsanın "Allahın oğlu" hətta tək oğlu (Yuhanna 1:14) olduğunu ifadə edən bir çox mətn də fərqli məna ifadə edəcək. Onların əsas niyyəti... Hz. İsanın adını eşidənlərin ona nüfuz sahibi biri olaraq diqqət yetirmələrini təmin edirdi. Bu mətnlərdəki ifadələr... Hz. İsanın da Allahın etibarlı vəhyi olduğunu ifadə etmək üçündü. Yunanca "Uios tou Theou" (Allahın oğlu) ifadəsi tərcümə edildikdə ingiliscədəki "the" sözü üzərində israrla dayanmarıq. "The" orijinal yunan dilində yoxdur və dolayısilə ifadə eyni zamanda "Allahın bir oğlu" kimi tərcümə edilə bilər. "Allahın götürdüyü tək övlad" ifadəsinin səciyyələndiricisi, ivrit dilindəki istifadə formasına görə "ilk doğan" və ya sevimli kimi tərcümə edilə bilər. Burada Allahın vasitəçisi olaraq imtiyazlılıq deyil, etibarlılığın nəzərdə tutulduğu aydın ola bilər.(69)

Təslis inancının müdafiə edilməsindəki bu israrın altında, hz. İsaya isnad edilən üstün mövqeyə kölgə salma narahatlığının yatması mümkündür. Halbuki təslis inancı olmadan da hz. İsanın nə qədər üstün və xeyirxah bir insan olduğu vurğulana bilər. Necə ki, Quran ayələrində hz. İsanın möcüzəvi cəhətləri, Allah Qatına alınması ətraflı şəkildə təsvir edilir,

onun və ailəsinin aləmlərdən üstün edildiyi bildirilir. Hz. İsanın adı Quranda "seçilmiş, şərəfli və hörmətli" biri kimi çəkilir.

**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir. O bu dünyada və axirətdə seçilmiş, şərəfli, hörmətli və (Allaha) yaxınlaşdırılanlardan (Ali İmran surəsi, 45)**

## Xristianlığın daha tez yayılmasını təmin etmək məqsədiylə istifadə edilmiş ola bilər

Hz. İsa din əxlaqını yaymağa başladığı mühitdə çox böyük çətinliklərlə üz-üzə idi. Yəhudi cəmiyyəti arasında dini müxtəlif şəkillərdə izah edən saduqilər, fəriseylər, zelotlar, essenilər kimi bir çox məzhəb vardı və bunlar, xüsusilə də ilk üçü, fərqli yanılmalar içindəydilər. Hz. Musanın gətirdiyi haqq dindən uzaqlaşılmış, batil ənənələr və müxtəlif yanlış inanclar yaradılmışdı. Bunlarla yanaşı, bütpərəst ellinizm mədəniyyəti də insanlar arasında yayılmışdı. Bu mədəniyyətin təsiri altındakı bəzi yəhudilərsə sahib olduqları tövhid inancından imtina edərək bəzi bütpərəst inancları mənimsəməyə başlamışdılar.

Hz. İsa bütün bu xurafatları arxasında qoyaraq, İsrailoğullarını saf və səmimi imana dəvət etdi. Daxili nizamlarını qorumağa çalışan bütün din xadimləri hz. İsanın təbliğ etdiyi haqq dindən kəskin şəkildə narahat oldular. Çünki hz. İsa insanlara Allah qorxusunu, Allahı sevməyi nəsihət edir, dinə sonradan əlavə olunan batil qanunları və fanatik tətbiqləri tərk etmələrini söyləyirdi.

Hz. İsanın Allah Qatına alınmasından sonra da bu mübarək insanın tələbələri, onun mesajının yayılması üçün bütün imkanlarından istifadə etdilər. Kəndbəkənd, qəsəbə-qəsəbə gəzən xristianlar hər cür çətinliyə, yoxluğa qarşı çox böyük səbir göstərir və insanlara Allahın varlığını və hz. İsanın Allahın elçisi olduğunu bildirirdilər. Bundan ötrü də, xristianlıq qısa müddətdə çox geniş əraziyə yayıldı. Bütpərəst Roma imperatorluğunun bütün təzyiq və işgəncələrinə qarşı insanlar axın-axın hz. İsanın gətirdiyi haqq dini qəbul edirdilər. Lakin bu yeni dini qəbul edənlərin bir hissəsi, kök salmış bütpərəst inanclarından tam mənada xilas ola bilmirdilər. Məhz batil "Allahın oğlu" anlayışı bu mühitdə meydana çıxdı və ya ilk mənasından fərqli bir məna qazandı.

E. P. Sanders, "the historical figure of Jesus" (hz. İsanın tarixi portreti) adlı əsərində ilk xristianların hz. İsanın təbliğini yayma üsullarını belə bildirir:

Başqalarını razı salmağa çalışarkən, həvarilər bəzən hz. İsanın söylədiyi və etdiyi şeylərlə əlaqədar hekayələr danışmış ola bilərlər. İlk illərdə bu materiallar böyük ehtimalla

yazılmamışdı, lakin şifahi şəkildə ötürülmüşdü. Həvarilər, hz. İsanın həyatındakı hadisələrdən istifadə edərkən, o zaman əhəmiyyətli olan nöqtələri nümunələrlə açıqlamaq istəmişdilər... Yeni tərəfdarlar qazanmaqla yanaşı həvarilər həm bir-birlərinə, həm də getdikcə artan din dəyişdirən yeni tərəfdarlarına hz. İsanın həyatında meydana gələn hadisələri xatırlayaraq öyrədiblər. Bəzi hallarda hz. İsanı qəbul etməyən yəhudi müəllimlərlə də mübahisələr ediblər. Bu mübahisələr də hz. İsa ilə əlaqədar materialın istifadə edildiyi üçüncü bir məzmunu meydana gətirmişdir.(70)

Hz. İsanın yaşadığı dövrdə olduğu kimi hz. İsadan sonra da xristianlığa qarşı reaksiya verən bir çox insan və qrup olmuşdur. Hz. İsanın Allah Qatına alınmasından sonra həvarilərin səyləriylə xristianlığın böyük sürətlə yayılması onlarda böyük reaksiya meydana gətirmiş, bundan ötrü də, müxtəlif əsassız iddialar ortaya atmış və xristianlığın yüksəlişinin qarşısını almaq üçün müxtəlif cəhdlər etmiş ola bilərlər. Pol Knitter (Paul Knitter), kitabında ilk xristianların hansı şərtlər altında yaşadıqları üzərində dayanır. Knitter, onların "həyatda qalmaq" və "cəmiyyətlərini davam etdirə bilmək" üçün fərqli üslub meydana gətirdiklərini vurğulayır:

Ənənəvi kilsə anlayışının ortaya çıxdığı tarixi konteksIə əlaqədar diqqətə alınmalı digər bir nöqtə də, xristianların həm böyük yəhudi cəmiyyəti, həm də hədələyən Roma imperatorluğu tərkibində azlıq təşkil etmələriydi. Mədəni və dini plüralizm dövrümüzdəkindən daha fərqli şəkildə başa düşülürdü. O dövrdə xristianlar iki böyük təhlükəylə üz-üzəydilər; ya çoxluğu meydana gətirən cəmiyyətlər tərəfindən yox ediləcək, ya da dini ənənələri onlarınkıyla qarışacaq, beləliklə də, fərqli struktur qazanacaqdılar. Xristianlar özlərini bu təhlükələrdən qorumaq üçün çox açıq kimlik müəyyənləşdirməli və tamamilə inanclarına bağlanmalıydılar. Bunu da inanclarıyla, xüsusilə də hz. İsa üzərində cəmlənən inanclarıyla etdilər. Bu doktrinal ifadələr, "həyatda qalma ifadələri" kimi xarakterizə oluna bilər və cəmiyyətin mövcudluğunu təmin edə bilmək üçün meydana gətirilmişdir. İlk xristianlar hz. İsanı mütləq terminlərlə xarakterizə edərək, onu tək və yeganə xilaskar kimi elan edərək bütün rəqiblərindən və müxaliflərindən fərqli şəxsiyyət qazandılar. Bu dilin yaratdığı güclü bağlılıq, zülmlərə və lağ edənlərə qarşı onlara böyük güc qazandırmışdı... Bu dil metafizik mənadan çox əxlaqi bir dil idi. Hz. İsanın bütün əsrlər üçün qüvvədə olan kimliyini təyin etməkdən çox, cəmiyyət içindəki kimliyini təyin etmə məqsədini daşıyırdı.(71)

## Mövcud siyasi və mədəni mühitin təsiri

Təslis inancının yaranması mövzusunda aparılan tədqiqatlarda, üzərində dayanılan başqa bir mövzu o dövrün siyasi və mədəni mühitidir. Daha əvvəl də vurğuladığımız kimi, hz. İsa dövründə cəmiyyət həm yəhudi, həm də yunan mədəniyyətinin təsiri altında idi. Aralıq dənizi tamamilə Roma imperatorluğunun hakimiyyəti altında idi. Böyük Roma

əsgərləri fəthlər hesabına torpaqlarını genişləndirmiş, Aralıq dənizini daxili dəniz halına gətirmişdi. İmperiya hərbi sahədə olduğu qədər, mədəni sahədə də ən güclü dövrlərindən birini yaşayırdı. Qədim Yunan mədəniyyətinin mədəni mirasını götürmüş və onu yeni əlavələrlə genişlətmişdi. Ellinizm adlandırılan bu cərəyan, din də daxil olmaqla həyatın bütün sahələrinə hakim idi. Romalılar özlərini digər cəmiyyətlərdən çox üstün görür və öz həyat tərzlərini işğal etdikləri torpaqlar üzərində də yaymağa çalışırdılar.

Romanın dini, Aralıq dənizi ətrafında yaşayan bütün cəmiyyətlərdə olduğu kimi, çoxallahlı idi. Yunan mifologiyasının xəyali tanrıları, fərqli adlar altında, Roma mifologiyasında da istifadə edilirdi. Ən böyükləri Yupiter adlandırılan və heykəllərlə simvolizə edilən bir çox bütə tapınılırdı. Bəzi Roma imperatorları isə özlərini də bu saxta ilahlar arasına daxil edən qanunlar çıxartmışdılar. Eləcə də, yunan dini və bu inanca məxsus saxta ilahlar da geniş yayılmışdı: Zevs, Hermes, Venera kimi yunan bütlərinin heykəlləri böyük şəhərlərin meydanlarında yerləşirdi. Tapınılan bütlər bunlarla məhdudlaşmırdı. Hər şəhərdə, hər məhəllədə hətta hər evdə böyüklü-kiçikli fərqli bütlər, onlara məxsus heykəllər, şəkillər, xüsusi tapınma və adaq yerləri vardı. Romalı rəhbərlər bu çoxallahlı dinlərdən, öz hakimiyyətlərini yaymaq məsələsində bir vasitə kimi istifadə edirdilər. Roma, hakimiyyətini təhdid etmədiyi müddətcə heç kəsin dininə qarışmır, əksinə bu azğın inancları təşviq edir, hər tərəfə məbədlər, qurbangahlar, heykəllər yerləşdirərək bütpərəst inancları qızışdırırdı. Onlar üçün din, dırnaqarası kütlələrə sədaqəti təlqin etməyin və onlara nəzarət etməyin bir yolu idi, mücərrəd və bu dünyayla əlaqəsi olmayan bir sahəyə aid idi.

Romalılar başqa bir mədəniyyətlə qarşılaşdıqlarında, o cəmiyyətdə öz saxta ilahlarının bənzərlərini axtarar və beləliklə də, üstünlük təmin edəcək bir əlaqə qurmağa çalışardılar. Buna görə də, xüsusilə IV Antiyokus Epifanesin vaxtında, Allaha, Onu tək ilah olaraq qəbul edib iman edən yəhudilərə, Zevs adlı baş tanrılarını azğın şəkildə mənimsətməyə çalışıblar, lakin bu vəziyyət aralarında böyük mübarizələrə gətirib çıxartmışdır. Dindar yəhudilər, müqəddəs torpaqları mənəvi cəhətdən çirklədən bu roma bütlərinə qarşı sərt reaksiyalar veriblər və romalıların bütpərəst inanclarını yayma işlərinə şiddətlə müqavimət göstəriblər. Lakin yenə də yunan mədəniyyəti yəhudi cəmiyyəti üzərində çox böyük təsir yaratmışdır.

Hz. İsa da ellinizm mədəniyyətinin təsiri altındakı bu yəhudi cəmiyyətinə təbliğ etmişdi. Həvarilər və ilk xristianlar eyni cəmiyyətdə böyümüş və ellinizm mədəniyyəti ilə həyatlarının hər anında iç-içə olmuşdular. E. P. Sanders, "Jesus in historical context" (tarixi konteksdə hz. İsa) başlıqlı məqaləsində, ellinizm mədəniyyətinin hz. İsanın yaşadığı Qalileya bölgəsi üzərindəki təsirlərini araşdırır. Məqaləsində bir çox fərqli akademikin fikirlərinə də yer verən Sanders bu açıqlamanı verir:

Mövcud açıqlamalara görə, Qalileya şəhərə çevrilmiş, kosmopolit və rifah içində bir yer idi. Berton Makın (Burton Mack) fikrinə görə Qalileya əslində ellinizm mədəniyyətin bir simvolu idi... Qalileya xalqı qonşu bir qəsəbəyə getdikləri vaxt yunan oyunlarını və

fəlsəfəçilərini seyr edib dinləyə bilirdilər. Tətillərdə Suriyadakı böyük şəhərlərə gedir və yunan mədəniyyəti ilə iç-içə ola bilirdilər. Roma da bu qarşılıqlı təsirdə çox böyük rol oynayırdı. Qalileyada çox sayda Romalı əsgər vardı. Rəhbərlər, rəsmi vəzifəli şəxslər vardı... Yalnız teatrlar deyil, Sepforisdə Oktavian Avqust məbədi və Roma üçün tikilmiş bütpərəst bir məbəd yerləşirdi. Cütçülər bütpərəst mərasimlərdə qurban kəsilmələri üçün heyvanlar yetişdirirdilər.(72)

Yunan mədəniyyəti mifoloji bir mədəniyyət idi. Danışıqlarda, işlədilən ifadələrdə məcazi ifadələrə, mifoloji izahatlara tez-tez rast gəlinirdi. Sanki mifologiya ilə həqiqi həyat bir-birinə qarışmış kimiydi. Məhz hz. İsa üçün işlədilən "Allahın oğlu" terminini araşdıran Bibliya mütəxəssisləri də yunan mədəniyyətinin bu terminin yerləşməsindəki təsirinə diqqət çəkirlər. Yunan mifologiyası, saxta tanrıları insanlarla yoldaşlıq edən, sonunda isə birlikdə yeni nəsillər meydana gətirən varlıqlar kimi təsvir edirdi. Məsələn, Makedoniyalı İsgəndər, Zevsin oğlu kimi qəbul edilirdi. Sanders, yunan ənənəsinin o dövrdə imperiya torpaqlarında olduqca geniş yayıldığını ifadə edir və bundan ötrü də, hz. İsa üçün işlədilən "Allahın oğlu" ifadəsinin (Allahı tənzih edirik) bu təsir nəticəsində daha da yayıldığını ifadə edir.(73) Necə ki, tədqiqatçılar tərəfindən, qədim Yunanistandakı Zevs-Hera-Apollon üçlüsü ilə təslis inancı arasında bir çox bənzərliklər ortaya qoyulur. "Təslis" inancı bütpərəst cəmiyyətlərdə olduqca geniş yayılmışdı. Xüsusilə də yunan mədəniyyətində çox sayda saxta "ata tanrı" və "oğul tanrı" vardı. Platon, bu təslis inancını formalaşdırmış və guya tanrılarının "loqos" (söz) adlı bir oğlu və "sofiya" (müdriklik) adlı bir qızı olduğu fikrini müdafiə etmişdi. Platona görə saxta tanrılar olan loqos və sofiya, bir "üçləmə" meydana gətirirdilər. Xristianlıq təslis inancını və bu gün sahib olduğu daha bir çox inanc və tətbiqi, həmin bu yunan mədəniyyətindən və ya digər bütpərəst mədəniyyətlərdən götürdü. Bundan ötrü də, getdikcə hz. İsanın gətirdiyi xalis dini tərk etdi, hz. Musa şəriətinin təməli olan "Tək Tanrı" inancından uzaqlaşdı.

“From Jesus to Christ, The Origins of the New Testament, images of Jesus” (“İsadan Məsihə, Əhdi-Cədidin kökləri, İsanın surətləri”) kitabının müəllifi Paula Fredriksen, İncillərin və İncillərin yazıldığı cəmiyyətlərin yunan olduqlarını vurğuladıqdan sonra bunu qeyd edir:

Xristianlıq ellin aləmində yaranmışdı... İncillərdə işlədilən dil də onları yazanların bələd olduqları dil idi. Bu dil bütpərəst ənənələrini, ellin inanclarını əks etdirirdi. Bundan ötrü də, hz. İsa üçün "Tanrı", "Xilaskar", "Tanrının Oğlu" və "Loqos" kimi ifadələr işlədirdilər. İşlədilən "Davudun Oğlu", "insan övladı", "Tanrının Krallığı" və "Məsih" kimi ifadələrsə İncil müəlliflərinə elə də tanış deyildi. Bu ifadələr İncilləri qələmə alan insanlar tərəfindən, hz. İsanın yaşadığı Fələstin torpaqlarındakı mövcud mədəniyyətdən götürülmüşdü.(74)

Dr. Pol R. Eddi (Paul R. Eddy) isə; "Was Early Christianity Corrupted by Hellenism?" (ilkin xristianlıq ellinizm tərəfindən korlandı mı?) başlıqlı məqaləsində bunları söyləyir:

Babilin vaxtınadək gedib çıxan qədim dünya tarixi boyu, üçlüklər meydana gətirərək, həmin bu bütpərəst tanrılara tapınmaq geniş yayılmışdı. Bu təsir özünü, hz. İsadan əvvəlki və sonrakı əsrlərdə Misirdə, Yunanistanda və Romada da çox göstərirdi. Həvarilərin ölümündən sonra bu cür bütpərəst inanclar xristianlıqda kök salmağa başladı... Platon, üçləməni hazırkı şəklində öyrətməmiş olsa da, onun fəlsəfələri bu doktrina üçün ilkin hazırlıq mahiyyətində idi.[(75)]

Oskar Kulman (Oscar Cullmann) da “The Christology of the New Testament” (Əhdi-Cədidin hz. İsa teologiyası) adlı mühüm əsərində, "Allahın oğlu" ifadəsinin İncil dövründə Şərqdə və ellin mədəniyyətində hansı şəkildə işlədildiyini ətraflı şəkildə araşdırır. Xüsusilə də, Misirdə, Babildə və Assuriyalılarda kralların müqəddəs insanlar hesab edildiklərini və "Allahın oğlu" kimi adlandırıldıqlarını ifadə edir. Yunan dinlərində isə, müqəddəs gücləri olduğuna inanılan hər insan üçün "Allahın oğlu" ifadəsinin işlədildiyinə diqqət çəkir.[(76)] Hz. İsanın göstərdiyi möcüzələr isə onun xalq tərəfindən bu cür adlandırılması üçün kifayət hesab edilir. Varner, hz. İsanın təbliğini alan gentilelərin (Bibliyada qeyri-yəhudilər üçün işlədilən ifadədir. Hz. İsa dövründəki Romalılar üçün işlədilir) dünyagörüşlərinin bu görüşlər çərçivəsində formalaşdığını söyləyir və sözünə belə davam edir (Allahı sitatdakı ifadələrdən tənzih edirik):

Onların Allahın oğlu fikirləri çox tanrılı düşüncə üzərində qurulmuşdu. Bundan ötrü də, bu fikirlərini hz. İsa və həvarilərinin Tək Tanrılı inanclarına çevirmələri olduqca çətindi. Şərq və ellin düşüncələrinin hakim olduğu, dolayısilə kralların və digər müqəddəs insanların Allahın oğlu kimi adlandırıldığı bu bölgədə hz. İsa da Allahın oğlu elan edildi.[(77)]

# İznikdən bu günədək
# təslis inancına qarşı çıxmış xristianlar

Təslis inancı əsrlər boyu xristian aləmində bir çox insan, cəmiyyət və ya məzhəb tərəfindən rədd edildi. Bəzi cəmiyyətlər təslis inancına tamamilə qarşı çıxdılar, bəziləri isə bu yanlış inancın bəzi hissələrini rədd etdilər. Təslis inancını rədd edən cəmiyyətlər tarixin hər dövründə böyük təzyiqlərlə qarşılaşdı. Torpaqlarından sürgün edildilər, aforoz edildilər, diri-diri yandırıldılar, işgəncələrlə öldürüldülər. Lakin təzyiqlər onları tarix səhnəsindən silməyə kifayət etmədi. Təslis inancı əleyhdarlarının çox böyük hissəsi inanclarına sadiq qaldılar və "Allah birdir, təkdir" deməkdən imtina etmədilər. Kitabın əvvəlki hissələrində üzərində dayandığımız arianlar, həmin bu "təslis əleyhdarı" xristianların qabaqcıllarıydılar. Daha sonra da arianların izindən gedən bir çox qrup ortaya çıxdı.

## Təslis əleyhdarları

Ariusdan sonra ortaya çıxan təslis əleyhdarı cərəyanlardan biri İrlandiyada yaradılmış Seltik kilsəsi idi (Celtic Church of Ireland). Bu kilsə, Avropa kontinentindən tamamilə təcrid edilmiş bir halda, "arianlıq" təməlində yaradıldı və inkişaf etdi. Katolik kilsəsinin İrlandiya Seltik kilsəsini rəsmi şəkildə hakimiyyəti altına aldığı 664-cü ilə qədər, təslis inancı İrlandiyaya yad idi.

İrlandiya kilsəsinin Nəsrani təliminə bənzərliyini göstərən əhəmiyyətli bir xüsusiyyəti vardı: Yəhudi qaynaqlarına olan sədaqət. Seltik kilsəsi, "hz. İsanın yəhudi hökmlərinə diqqətlə tabe olduğuna" inanır, bundan ötrü də, Əhdi-Ətiqə böyük əhəmiyyət verirdi.(78) Bu meyil o qədər güclü idi ki, kilsə Romanın hakimiyyəti altına girdikdən sonra belə davam etdi. 754-cü ildə bəzi katolik rahiblər, "İrlandiyalı rahiblərin kilsənin müqəddəs mətnlərinə əhəmiyyət vermədiklərini, kilsə liderlərinin yazılarını rədd etdiklərini və məclislərin qərarlarına diqqət yetirmədiklərini" dilə gətirərək bundan şikayətləndilər.(79) Lakin Seltik kilsəsinin bu müqaviməti də qısa müddət sonra qırıldı. Beləliklə də, katolik kilsəsi dördüncü əsrdə başlayan bir proses nəticəsində bütün dırnaqarası "sapqın"ları müəyyən şəkildə təmizləmiş olurdu. Halbuki təmizlənmiş bu cərəyanlar, hz. İsanı ilahlaşdıran batil təlimi rədd edir, Allaha, Onu tək ilah qəbul edərək iman etməyi təbliğ edirdilər. Katolik kilsəsi bu yolla Qərb dünyasının ən böyük avtoriteti halına gəldi.

## Pravoslavlar və protestantlar

Katolik kilsəsinin qeyd olunan hakimiyyəti, IX əsrdə öz daxilində baş verən parçalanma ilə sarsıldı. Uzun müddətdir ki, Roma kilsəsi ilə ixtilaf aparan Şərq kilsələri (belə ki, bunlar İstanbul, Qüds, Antakya və İskəndəriyə patriarxlarından asılıydılar) Roma katolik kilsəsindən tam şəkildə ayrıldılar. Roma kilsəsi ilə Şərq kilsələri arasındakı bu qarşıdurma əslində siyasi mənşəliydi, Roma imperatorluğunun Qərb və Şərq olmaqla iki hissəyə ayrılmasından sonra ortaya çıxmışdı. Əsrlər boyunca da iki tərəf arasında müxtəlif anlaşmazlıqlar yaranmışdı. Sonunda Roma kilsəsinin Müqəddəs Roma imperiyasının müstəqilliyini qəbul etməsi nəticəsində iki tərəf arasındakı əlaqələr tamamilə kəsildi. İki tərəf arasındakı bir çox fərqdən ən nəzərə çarpanı, Roma kilsəsinin müqəddəs dil olaraq latın dilini Şərq kilsələrinin isə yunan dilini işlətməleriydi.

Şərq kilsələri və ya digər adlarıyla pravoslav kilsələr, Romadan ayrıldıqdan sonra öz aralarında hissələrə bölünə bilmədilər. İstanbuldakı patriarxlıq həmişə daha üstünmüş kimi göründü, lakin digərləri öz aralarında müstəqildilər. Üstəlik, zaman keçdikcə yeni parçalanmalar baş verdi və milli kilsələr meydana gəldi. Erməni, Rum, Bolqar, Serb, Rus kimi xalqlar, müxtəlif dövrlərdə öz milli kilsələrini yaratdılar.

Katolik kilsəsi isə, başqa parçalanmaya məruz qalmadan 16-cı əsrə qədər Avropadakı hakimiyyətini qorudu. 1520-ci illərdə Almaniyada ortaya çıxan Martin Lüter (Martin Luther) adlı bir rahib bu hakimiyyəti sarsıdan insan oldu. Əvvəlcə Lüterin (Luther) sonra isə Kelvin (Calvin) və Svinqli (Zwingli) kimi rahiblərin liderliyi altında formalaşan "protestant" cərəyan, Roma kilsəsinin və Papanın nüfuzuna qarşı böyük üsyan idi. Üsyan böyük olduğu qədər qanlı idi, Avropa bir əsrdən artıq bir müddətdə katoliklərlə protestantların sona çatmayan döyüşlərinə səhnə oldu. "Dini" kimi görünən bu döyüşlərin altında isə, yenə siyasi məqsədlər, Papanın əsarəti altında yaşamağı və ona vergi ödəməyi istəməyən şahzadələrlə, bu hakmiyyəti itirmək istəməyən ətrafların mənfəət qarşıdurmaları yatırdı. İki tərəf arasındakı ən qanlı hesablaşma, 1618-ci ildən 1648-ci ilə qədər fasiləsiz davam edən və buna görə də Otuzillik müharibə kimi tanınan qarşıdurma idi. Avropa əhalisinin üçdə bir hissəsindən çoxunun ölümüylə nəticələnən bu qanlı dövrdən sonra iki tərəf arasında daimi sülh əldə olundu. Otuzillik müharibənin sonunda imzalanan məşhur Vestfaliya sülhü ilə əldə olunan tarazlıq, o vaxtdan indiyədək çox dəyişmədi.

Protestantlar Papanın hakimiyyətini rədd edərkən onun yerinə digər bir nüfuzlu insan qoymamışdılar. Bundan ötrü də, protestantlıq, katoliklikdəki iyerarxiyanın əksinə çox dağınıq və "liberal" din kimi inkişaf etdi. Demək olar ki, hər ölkə özü üçün milli bir kilsə yaratdı. Bunlarla yanaşı, daha bir çox fərqli məzhəb və cərəyan meydana gəldi. Bundan ötrü də, hazırda protestantlığın yüzlərlə növü, yüzlərlə fərqli protestant kilsəsi var. Bunların böyük hissəsi isə, Şimali Avropada və ABŞ-da fəaliyyət göstərir.

Protestantlığın yaranması təslis əleyhdarı kütlələr baxımından da əhəmiyyətli idi. Qeyd etdiyimiz kimi, protestantlar katolik kilsəsinin hakimiyyəti altından çıxdılar. Bu həm iyerarxik, həm də təməl xristianlıq inancları baxımından böyük azadlıq idi. Artıq Bibliyanı özləri oxuyur və onu özləri yenidən şərh edirdilər. Bunun nəticəsində bəzi protestantlar, çox az bir hissəsi də olsa, çox mühüm bir həqiqəti gördülər: Katolik inancının təməlini meydana gətirən təslis inancının Əhdi-Cədiddə bir dayağı yox idi. Hətta bəzi ayələrin bu inancı yalanladığı ortada idi. Bu ayələrdə Allahın "Bir və Tək" olduğu bildirilir, "üçlü birlik" inancına isə Əhdi-Cədidin təməl məntiqində yer verilmirdi.

Əslində bəzi protestantların çox az hissəsi bu nəticəyə gəldilər və təslis inancını rədd etdilər. Beləliklə də, unitarian (tövhidçi) kilsələr meydana gəldi.

## "Tövhid inancını müdafiə edən" xristianlar

Reformasiyadan sonra xristianlar Əhdi-Cədidi, katolik inanclarından müstəqil şəkildə oxumağa başladılar. Bunun nəticəsində də İtaliyada təslis inancının yanlış olduğu nəticəsinə inanan ilk xristian hərəkat ortaya çıxdı. Lelio Sosianus (Lelio Socianus, 1525-1562) və əmisi oğlu Fausto Sosianus (Fausto Socianus, 1539-1604) tərəfindən başladılan hərəkat, banilərinin adından ötrü sosianizm (socianism) olaraq tanındı. Sosianistlər gizli yığıncaqlar yoluyla yayıldılar. “The catholic encyclopedia” bu hərəkatın inancını belə yekunlaşdırır:

(Sosianistlərə görə) təslis inancı deyilən şey yoxdu. Hz. İsa Rəbblə və ya müqəddəs ruhla eyni kökdən gəlmirdi (dolayısilə Tanrı deyildi)... Ölməsi və əzab çəkməsi insanları qurtarmaq üçün deyildi.(80)

Sosianistlər müxtəlif təzyiqlərə məruz qaldılar. Kilsə onları çox keçmədən aforoz etdi. Fausto Sosianus (Fausto Socianus): "Allahdan vəhy alan hz. İsa, həyatının müqəddəs olmasıyla, əlbəttə ki, digər insanlardan fərqli olacaq. İlahi vəzifəyə və İlahi ilhama sahibdi, lakin qətiyyən bir yaradıcı deyildi. Bənzərsiz səlahiyyətlə təchiz edilərək insanlara bir vəzifədən ötrü göndərilmişdi" deyirdi.(81) Təslis inancını rədd edən Sosianus (Socianus), Allahın tək olduğunu, üç varlıqdan danışmağın ağılsızlıq olduğunu müdafiə edirdi. Sosianizm təlimi İngiltərəyə qədər gedib çıxdı. Lakin bu vəziyyət kilsəni çox narahat edirdi. Norveç Yepiskoplar İttifaqı tərəfindən bu narahatlıq belə ifadə edilmişdi:

Xristianlığı korlamasından qorxulan anti-təslisçilər və yeni arianlar tərəfindən azdırılmış Sosian (Socian), xristianların düşüncələrini azdırır.(82)

Eyni dövrdə sosianistlərin fikirlərinə bənzər fikirlər yayan, xüsusilə təslis inancına radikal şəkildə qarşı çıxan İspan Migel Servet (Michael Servetus), fikirlərindən ötrü Kelvin (Calvin) tərəfindən dirəyə bağlanıb yandırılaraq öldürüldü. Yandırılarkən, yazdığı təslis əleyhdarı kitab da sinəsinə asılmışdı. Servet (Servetus), xristianlığın Birinci İznik Kilsə Məclisində təhrif edildiyini müdafiə etmiş və bundan xilas olmaq üçün Birinci İznik Kilsə

Məclisindən əvvəlki qaynaqlara qayıdılmalı olduğunu yazmışdı. 1638-ci ildə sosianistlərə istiqamətli hücumlar başladıldı. Rokowdakı kollecləri bağlanıldı və tövhidi qəbul etmiş bir çox insan diri-diri yandırıldı.

Sosianistlərin mirasını götürən Tövhidçi axını isə 16-cı əsrin sonlarında Transilvaniyada yarandı və sonra da başda Polşa olmaqla Avropanın hər tərəfinə yayıldı. Bir Tövhidçi kilsəsinə məxsus internet saytında, Tövhidçi axınının yaranma proesi belə bildirilir:

İlk dövr xristianları, hz. İsa haqqında müxtəlif inanclara sahibdilər. Bunların arasında hz. İsanın Tanrı olmadığı inancı da vardı. Lakin ata-oğul və müqəddəs ruhla xatırlanan təslis doktrinası zorla qəbul etdirildiyi halda, başqa inanca sahib olanlar azğın elan edildilər. 16-cı əsr xristian humanistləri İncili diqqətlə araşdırdılar və müqəddəs mətnlərdə təslis inancına rast gəlmədilər. İncillərə görə hz. İsanın da təsdiqlədiyi kimi, onlar da Tanrının bir və tək olduğunu qəbul edib təsdiqlədilər. Bundan sonra da unitarianlar (tövhidçilər) adını götürdülər. Unitarianlar, qarşılaşdıqları əzici pravoslav əleyhdarlığına və zülmünə qarşı, öz rasional fikirlərinə uyğun olaraq kilsələr yaratdılar və din mövzularında nəsihətlər verdilər. Hər kəsin din azadlığını dəstəkləyəcək şəkildə davrandılar. İman, Tanrının bir hədiyyəsi (neməti) olduğu üçün, heç kim seçmədiyi bir dini qəbul etməyə zorlanmamalıydı.(83)

Polşalı unitarian (Tövhidçi) rahiblərin dərc etdiyi və Tək Tanrı fikrinin əhəmiyyətlə vurğulandığı “Racovian Catechism” adlı sənəd, cərəyanın ən əhəmiyyətli qaynaqlarından birinə çevrildi. Bu sənəddə kəffarə inancı rədd edilirdi. “Racovian Catechism” adlı sənəddə bunlar qeyd olunurdu:

İsa Məsihə Tanrılıq isnad edənlərin fikri təkcə məntiqə deyil, eyni zamanda Müqəddəs Kitablara da ziddir. Eləcə də, təkcə Atanın deyil, oğlun və müqəddəs ruhun, tək bir Tanrı olan üç fərqli varlıq olduğuna inananlar da böyük səhvliyə yol verirlər. Tanrı... qətiyyən təkdir, buna görə də, üç müstəqil varlıq olaraq yeni bir Tanrı açıqlamasıyla gələnlər tamamilə bununla ziddiyyət təşkil edirlər... Birinci İznik Kilsə Məclisinə qədər keçən müddət ərzində və o dövrdə yaşayanların yazdıqlarına görə, Məclisin çağırılmasından bir müddət sonraya qədər, Ata həqiqi Tanrı kimi bilinir və qəbul edilirdi. Bu fikrə qarşı çıxanlarsa, azğın kimi qiymətləndirilirdilər...(84)

Unitarianlar (tövhidçilər) 18-ci və 19-cu əsrdə xüsusilə də anqlosaks aləmində təsir oyatdılar. Əvvəlcə İngiltərədə sonra isə ABŞ-da unitarian kilsələr yaradıldı. Təkcə xristianların deyil, bütün insanların Allaha iman etdikləri təqdirdə nicat tapacaqlarına inanan bu insanlar özlərini universalist kimi qələmə verdilər. Bir-birlərindən müstəqil şəkildə meydana gələn unitarian və universalist kilsələri 1961-ci ildə birləşdi. “The New Catholic Encyclopedia” unitarian kilsələrin ortaq inanclarını belə yekunlaşdırır:

(Unitarianlara görə) hz. İsa Tanrının yeganə Oğlu və Xilaskar deyildir, lakin yəhudi peyğəmbərləri ənənəsində mövcud olan dini bir liderdir. Dolayısilə "hz. İsa ilə əlaqədar din" (yəni ənənəvi xristianlıq) "hz. İsanın dini" ilə dəyişdirilməlidir. Bibliya ağıl və elm əsasında

araşdırılmalı və qəti dəyişməz bir mənbə kimi deyil, insan tərəfindən yazılmış bir əsər kimi görülməlidir.[85]

Bir sözlə, unitarizmdə hz. İsa həqiqətdə olduğu kimi, yəhudi peyğəmbəri olaraq qəbul edilir, Əhdi-Cədiddə onun üçün işlədilən "oğul" anlayışı isə məcazi mənada başa düşülür. Allahın bir və tək olduğu həqiqəti təsdiqlənir. Bir saytda unitarianların təməl inancları belə təsvir edilir:

Unitarianların təməl inancları; Tanrının vahid olduğu, Tanrını və insanları sevməkdən, əbədi həyata inanmaqdan ibarətdir... Hz. İsanın xatirəsinə hörmət göstərərlər, lakin "Tanrılığı"nı rədd edər və "yanılmaz" olduğunu qəbul etməzlər. Xristianların müqəddəs kitablarını insan təcrübəsinin bir sənədi kimi görər, lakin müəlliflərinin, insan olduqları üçün, səhv edə biləcəklərini irəli sürərlər... Tanrının hər dövrdə insanlara doğru yolu göstərmək üçün peyğəmbərlər göndərdiyini qəbul edərlər. İsa Məsihi də bunların ən üstünü kimi görərlər...[86]

Unitarianların hz. İsa haqqındakı düşüncələri öz saytlarında belə ifadə edilir:

O (hz. İsa) bir çox unitarian üçün rəhbər idi və hələ də belədir... Biz, hz. İsanın insani həyatını və təlimlərini böyük yəhudi peyğəmbərlər və alimlər ənənəsinin davamı kimi başa düşürük. O bu ənənəni nə yox etdi, nə də tərk etdi.[87]

Unitarianlar ənənəvi xristian inanclarının bir hissəsini rədd edir, inanclarını gözəl əxlaq, ağıl, sağlam fikir və Allahın vahidliyi üzərində qururlar. Saytlarında inanclarını belə ifadə edirlər:

Biz əvvəlcə Allahın vahidliyinə, yalnız və yalnız tək bir Allah olduğuna inanırıq. Hər hansı bir insan faydasız fəlsəfəylə bizim başımızı qarışdırmasın deyə bu həqiqətə sonsuz əhəmiyyət veririk və özümüzü diqqətli olmaq məcburiyyətində hiss edirik. Tək bir Allahın olduğu mövzusu bizə olduqca açıq görünür. Bizim anladığımız şey tək bir varlıq, tək bir ağıl, tək bir fiziki varlıq, tək bir ağıllı vəkil olduğudur, belə ki, O heç nədən yaranmamışdır, sonsuz mükəmməlliyə malikdir və hakimiyyət Ona məxsusdur. Biz təslis doktrinasına qarşı çıxırıq...[88]

Lakin bunu da ifadə etmək lazımdır ki, bu gün unitarizm adı altında müdafiə olunan görüşlərin bir hissəsi də, Allaha və Onun vəhyinə imanla uyğun gəlməyəcək bəzi ünsürlər ehtiva edir. Bəzi unitarianlar, dini hökmlərin və ibadətlərin ortadan qalxdığı bir növ "humanist din" anlayışına sahibdirlər. Bəziləri heç bir möcüzəni qəbul etmir, hətta hz. İsanın atasız dünyaya gəlməsini və göstərdiyi möcüzələri belə rədd edirlər. Bu da Haqqdan sapmağın digər bir növüdür. Bu kitabda isə, unitarianlardan hz. İsa dövründəki həqiqi xristianlığı təmsil edən bir cəmiyyət kimi danışılır, unitarianların təkcə təslis və kəffarə kimi inanclarla əlaqədar fikirlərinə yer verilir. Təslis inancını müdafiə edən cəmiyyətlər arasında

belə bir kütlənin olması, əlbəttə ki, çox əhəmiyyətlidir, lakin belə kütlələrin Quran ayələriylə ziddiyyət təşkil edən müxtəlif batil inanclara sahib olduğu da əsla unudulmamalıdır.

## Yehovanın şahidləri

Xristian aləmində təslis inancını rədd edən bir çox kütlədən biri də Yehovanın Şahidləridir. Yehovanın Şahidləri ənənəvi xristianlığın bir çox şeyini qəbul etmələrinə baxmayaraq, təslis inancını rədd etmələrindən ötrü xristian sayılmırlar. Halbuki Yehovanın Şahidlərinin yəhudi və xristianlığın dini və mədəni təlimlərindən ortaya çıxdığı məlumdur.

Yehovanın Şahidlərinə görə xristianlıqdakı təslis inancı, Bibliyada olan bir inanc deyil. Onlar, insanların təslis düşüncəsi ön fikrinə sahib olmadan Tövrat və İncili başdan sona oxuyacaqları təqdirdə, qətiyyən belə bir düşüncəyə sahib olmayacaqlarını söyləyirlər. Kitab boyunca üzərində dayandığımız kimi, təslis inancının xristianlığa hz. İsadan sonra daxil edildiyi fikrini müdafiə edərlər. Yehovanın Şahidlərinin tək Tanrı anlayışı baxımından yəhudilərlə bənzərliyi olsa da, hz. İsa haqqındakı inancları onları yəhudilikdən qoparar. Yehovanın Şahidləri özlərinin həqiqi xristian olduqlarını, digərlərinin səhvliyə yol verdiklərini vurğulayar və belə deyərlər:

Tanrı haqqında Bibliyanın təlimi və onun hədəfləri açıq, başa düşülməsi asan və ağlabatandır, lakin xristianlıqda kilsələrin təlimləri belə deyildir, daha pisi Bibliyaya ziddir. Xristianlıq aləminin təslis inancı, Tanrını bir Tanrıda üç əsrarəngiz şey kimi təsvir edir, lakin bu təlim Bibliyada yoxdur.[90]

Yehovanın Şahidlərinin 2001-ci il üçün verdiyi statistikaya görə təxminən 6 milyon Yehova Şahidi yaşayır.

## Unitarian cərəyanının güclənməsində İslam dininin təsiri

Unitarian kilsənin güc qazanma prosesini araşdırdığımız vaxt, qarşımıza çox maraqlı bir əlaqə çıxır: Osmanlı imperatorluğunun bu cərəyanın güclənməsindəki təsiri.

Əvvəlki hissədə də üzərində dayandığımız kimi, 16-cı və 17-ci əsrlərdə Osmanlı torpağı olan Transilvaniya, tövhid inanclarının çox gücləndiyi bir bölgə olmuşdu. Florida unitarian kilsəsindən rahib Cek Donovanın (Jack Donovan) "Islam, US and Yeats' Dilemma" (İslam, ABŞ və Yeytsın dilemması) adlı vəzində bu hadisə belə vurğulanır:

Polşa, Macaristan və Transilvaniyadakı bəzi resformist protestant xristianlar bir inanc təməli olaraq "Allah birdir" deməyə başladılar: "Saxta tanrılar yoxdur, Allah vardır". Xristianlıqdakı təməl inanclara zidd olan bu düşüncə məhz o vaxtlar ortaya çıxmışdı. Ölümə

meydan oxuyan ifadə haradan gəlirdi? Protestantlıq 1520-ci və 1530-cu illərdə çox gənc və təslis tərəfdarı olduğu vaxt, müsəlman Osmanlı imperatorluğu Xorvatiya, Macaristan və Transilvanyanı fəth etmişdi.(91)

Osmanlı torpaqlarında xristianlığın içindən meydana çıxan bu tövhid inancını təməl götürən cərəyanın güc qazanmasının səbəbi, bir çox tarixçi və unitarian din xadimi tərəfindən də dilə gətirildiyi kimi, İslam dininin gətirdiyi tolerant mühiti idi. “North Unitarian Universalist” kilsəsindən (“Şimal Universalist unitarian” kilsəsi) Susan Ritchie, "The Promise of Postmodernism for Unitarian Universalist Theology" (postmodernizmin beynəlxalq unitarian teologiyasına vədləri) başlıqlı vəzində bu mühiti belə vurğulayır:

Çox sayda mötədil beynəlxalq tarixçi, Osmanlıların siyasi himayəsinin, protestantlığın inkişafına imkan verdiyini qəbul etməklə kifayətlənməz, eyni zamanda Osmanlı rəhbərliyinin yerli ənənələr və dinlər barəsindəki tolerantlığına bağlı olaraq müəyyən təsirlər də göstərdiyini qəbul edər.(92)

İslam dinindəki güclü tövhid inancı, təslis inancını rədd edən xristianlar üçün çox böyük zəmanət idi. Tolerantlığın hakim olduğu Osmanlı torpaqlarında düşüncələrini rahatlıqla dilə gətirə bildilər, öz kilsələrini yaratdılar və xristian tövhid ənənəsini çox gücləndirdilər.

İslam dini ilə unitarian kilsəsi arasındakı əlaqə əsrlərdir ki, tədqiqatçıların böyük diqqətini çəkmişdir. Məsələn, Aleksandr Şandor Unqvarinin (Alexander Sándor Unghváry), “The Hungarian Protestant Reformation in the Sixteenth Century under the Ottoman Impact” (16-cı əsrdə Osmanlıların təsiri altındakı Macar protestant reformasiyası) adlı kitabında bu mövzu araşdırılır. Unqvari (Unghváry), kitabın əvvəlki hissələrində üzərində dayandığımız tövhid inancı müdafiəçisi Servetin (Servetus) İslam dininə verdiyi əhəmiyyətin üzərində dayanır.(93) Maturen Veyser de La-Kroz (Mathurin Veyssiére de la Croze) də sosianizm və İslam əlaqəsini təməl götürdüyü əsərində, Transilvaniya unitarianlarının, unitarizm və Quranda öyrədilən Allahın vahidliyi arasında bənzərlik olduğunu qəbul etdiklərini iddia edir.(94)

Unitarian din xadimi Cek Donovan (Jack Donovan) isə, bir vəzində bu mövzulara diqqət çəkir:

İki İslami təlim yayılmışdı və çox diqqət çəkmişdi. Birincisi hər gün məscid minarələrindən xalqa oxunan azandakı "Allah birdir, saxta tanrılar yoxdur, Allah vardır. Allahdan başqa ilah yoxdur" ifadələri, ikincisi isə, Quranın açıq-aydın tələbi olan və hz. Məhəmmədin xüsusilə vurğuladığı xüsus olan, "bütün dinlərə göstərilən tolerantlıq"dır, çünki hər din Allaha verilən bir cavabdır... Bu təlimlər hz. İsanın İncilinə uyğunlaşdırıldıqda 16-cı əsr unitarizmini əldə edərsiniz. Mənim düşüncəm ənənəmizin İslama 450 illik borcu olmasıdır... (Əlavə haşiyə: “Donovan, “Islam, US, and Yeats' Dilemma””)

17 və 18-ci əsrdə yaşamış Avropalı sosianistlər, İslamı xristian kilsəsindəki dini təhriflərin çoxunu düzəldən "saf monoteizm" (təkallahlılıq) olaraq ucaltmaqdan çəkinməmişdilər. Andrey Remsi (Andrew Ramsey) 1727-ci ildə sosianizmdən, "ideal İslam"dan qaynaqlanan möhtəşəm bir din kimi bəhs etmişdi. Henri Stab (Henry Stubbe), Con Toland (John Toland), Artur Beri (Arthur Bury), Uilyam Fekete (William Fekete) və Stiven Nay (Stephen Nye) da eyni şəkildə İslama qarşı müsbət dünyagörüşünə sahib olan sosianist müəlliflərdilər. Bu müəlliflər teoloji İslamı (xüsusilə də anqlikan pravoslavlığında xoşagəlməz hesab etdikləri ən qədim xristianlıqdan imtina etmələri) aydınlıq gətirmə üsulu hesab etmişdilər.[95]

Toronto unitarian kilsəsindən Mark D. Morison-Rid (Mark D. Morrison-Reed) isə "The Islamic Connection" (İslami əlaqə) adlı vəzində İslam dinini belə izah edir:

Hyuston Smit (Houston Smith), "İslamın gətirdiyi yeniliyin, bütləri dini mühitdən götürmək və hər kəs üçün bütün diqqəti, görünməyən tək bir İlahi Varlıq olan Allaha yönəltmək olduğunu" yazmışdı. İslam xristianlıqdan fərqli olaraq təkzibedilməz şəkildə təkallahlı dindir və yəhudilikdən fərqli olaraq tək xalqla məhdudlaşdırılmamışdır. İslam dinini bizim dinimizlə əlaqələndirməyə bu yolla başlaya bilərik: Allahın vahidliyini anlamaq məsələsində ortaq tarixi təməli paylaşdığımızı qəbul etmək.

Xristianlıq və İslam arasında mədəni baxımdan bir körpü yaranmasını təmin edən şey orta əsrlərdəki İslam tolerantlığıdır. Bu ispan renessansı bizim intellektual atamız kimi irəli sürdüyümüz bir insanda, belə ki, Migel Servetdə (Michael Servetus) təsir oyatmışdı. Servet (Servetus) 1511-ci ildə Şimali İspaniyada dünyaya gəlmişdir. Servetin (Servetus) həyatına təsir edən incəliklərin bir hissəsini bilməyimizə baxmayaraq, fikirlərinin necə meydana gəldiyini və ya "təslisin yanılmaları" adlı kitabını 1531-ci ildə nəşr etməsində sürətləndirici faktorun nə olduğunu tam olaraq bilmirik... İslam, Qərbdə Servetin (Servetus) fikirlərinin yüksəlməsinə töhfə verən siyasi və intellektual şərtləri meydana gətirməklə yanaşı, eyni zamanda unitarizmin Avropanın şərqində yaranmasını və yayılmasını təmin edən siyasi şərtləri meydana gətirmişdi... Müəyyən mənada biz İslama çox şey borcluyuq. İslamı yad və qavranılmaz bir şey kimi görməkdən imtina etməliyik. Əksinə yalnız tarixi baxımdan əlaqəli olduğumuzu deyil, eyni zamanda bəzi ortaq dəyərləri də bölüşdüyümüzü görməyimizin vaxtıdır.[96]

**Müxtəlif unitarian kilsələrindən din xadimlərinin verdikləri bu açıqlamalar İslam torpaqlarında yaşanılan tolerant mühiti və bu iki haqq dinin sahib olduğu ortaq dəyərləri gözlər önünə sərir.**

# Nəticə

Kitab boyunca göstərdiyimiz həqiqət, hz. İsanın gətirdiyi dinin, "Allaha, Onu tək ilah qəbul edərək iman etməyi tələb edən haqq din" olmasıdır. Lakin bu mübarək insanın təbliğ etdiyi şeylər, onun Allah Qatına alınmasından sonra, əslindən uzaqlaşdırılmış, həqiqi İsəviliyin yerində isə, "təslis və kəffarə kimi" batil fəlsəfələri əsas götürən yeni bir inanc yaradılmışdır və bu inanc insanlara "heç düşünmədən, sorğu-sual etmədən, araşdırmadan" qəbul edilməli olan "mütləq bir qanun" kimi təqdim edilmişdir.

Lakin insanlar məclislərdə "səs çoxluğuyla" qəbul edilən bu yanlış inancları artıq sorğu-sual etməyə başlayıblar. Keçmişdə təslis inancı haqqında şübhələrini dilə gətirənlər, inkvizisiya məhkəmələrinə çıxarılır, ölüm cəzasına məhkum edildiyi halda, artıq bu mübahisələr cinayət olmaqdan kənara çıxmışdır. Əsrlər boyunca barəsində danışılmayan, müzakirə aparılmayan təslis inancının, xristianların müqəddəs mətnlərində mövcud olmadığı, bu inancın hz. İsadan 3 əsr sonra xristianlığa daxil olduğu hər mühitdə dilə gətirilməyə başlanılmışdır. Kitab boyunca da nümunələrini gördüyümüz müxtəlif ilahiyyatçılar, yazıçılar, tədqiqatçılar insanlara həqiqi xristianlıqdan danışırlar. Təslis inancını rədd edən müxtəlif müstəqil kilsələr də dünyanın hər tərəfində insanlara təslis inancı haqqındakı həqiqətləri vəz edirlər. Bu prosesin son illərdə daha da sürətlənməsinin isə, çox mühüm bir səbəbi var: Xristianlığın bütün yanlış inanclarından təmizlənib əslinə qayıdacağı vaxt yaxınlaşmışdır.

Yaşadığımız Axırzaman, bütün iman sahibləri üçün çox müqəddəs və müjdəli zamandır. Çünki, Rəbbimiz iki min il aradan sonra, Axırzamanda elçisini yenidən dünyaya göndərəcəyini müjdələmişdir. Bu elçi, hz. İsadır. Bu xüsusilə də xristianlar üçün çox mühüm müjdədir. Çünki iki min ildən indiyədək əslindən uzaqlaşan xristianlığı əslinə qaytara biləcək yeganə insan hz. İsadır. Xristianlıq hz. İsa vasitəsilə "həqiqi İsəvilik", hz. İsaya tabe olanlarsa "həqiqi İsəvilər" olacaqlar.

Quran ayələrində hz. İsanın yer üzünə ikinci dəfə gəlməsi müxtəlif əlamətlərlə bizə bildirilir. Peyğəmbərimiz (s.ə.v)-in də: "...Vallah, mütləq və mütləq Məryəm oğlu İsa enəcək, özü də, ədalətli bir hakim, ədalətli bir hökmdar olaraq..." (Sahih-i Müslim bi Şerhin-Nevevi, II cild, səh.192) kimi bir çox hədisində hz. İsanın gəldiyi vaxt edəcəyi şeylər və o dövrün xüsusiyyətləri müxtəlif nümunələrlə bildirilir. Hədislərdə bildirildiyinə görə, hz. İsa gəldikdə; İsəviliyi əslinə qaytardıqdan sonra dünya üzərində hakim olan inkarçı sistemi yox edəcək və bundan sonra insanlar dəstə-dəstə din əxlaqını yaşamağa üz tutacaqlar. Həqiqi din əxlaqının yaşanması insanlara həm mənəvi, həm maddi cəhətdən rahatlıq bəxş edəcək. Dünyadakı bütün qarşıdurma və müharibələr sona çatacaq, bütün anlaşmazlıqlar sakit üsullarla həll olunacaq. Əxlaq pozuntularından qaynaqlanan narahatlıq və qorxuların yerini

əmin-amanlıq alacaq. Ədalət bütün dünyaya hakim olacaq, insanlar dünyanın harasına getsələr, yenə də gözəllik, zənginlik və bərəkətlə qarşılaşacaqlar.

Bütün iman edənlər kimi bizim də arzumuz, Rəbbimizin bizə hz. İsayla qarşılaşma şərəfini bəxş etməsi və onun gəlişindən əvvəlki bu dövrdə, mübarək qonağımızı qarşılamaq üçün ən gözəl hazırlığı görməyimizi bizə nəsib etməsidir. İstəyimiz xristian qardaşlarımızın da İncildə: "...Sizdən göyə alınan bu İsa, göyə getdiyini necə gördünüzsə, eynilə geri gələcəkdir" (Elçilerin İşleri, 1:11) şəklində verilən bu müjdəylə sevinmələri və təslis yanılmasını görüb şərik qoşmadan Allaha üz tutmalarıdır.

# Qeydlər


1. Erwin Roy Gane, *The Arian or Anti-Trinitarian Views Presented in Seventh-day Adventist Literature and the Ellen G. White Answer*, http://www.sdanet.org/atissue/trinity/gane-thesis/index.htm

2. The New Catholic Encyclopedia, XIV cild, səh. 295,

http://www.triumphpro.com/trinity_disproved_2(word6).htm

3. Muhammed Ata'ur Rahim and Ahmad Thomson, *Jesus Prophet of Islam*, Revised Edition, Ta-Ha Publishers Ltd, noyabr 1996, London, səh. 93

4. Fazal Ahmad, "Arius: The Trinity Controversy in the Church", *The Review of Religions*, London, sentyabr 1996

5. Athanas., *Hist. Tr.*; P Johnson. *History of Christianity*, Pelican Books 1976, səh. 89

6. Fazal Ahmad, "Arius: The Trinity Controversy in the Church", *The Review of Religions*

7. "The First Council of Nicaea", *The Catholic Encyclopedia*, copyright © 1913 by the Encyclopedia Press, Inc. Electronic version copyright © 1996 by New Advent, Inc. http://www.newadvent.org/cathen/11044a.htm

8. Michael Baigent, Richard Leigh, Henry Lincoln, *The Messianic Legacy*, Corgi Books, London, 1991. Səh. 66

9. Prof. Dr. Mehmet Aydın, *Müslümanların Hristiyanlara Karşı Yazdığı Reddiyeler ve Tartışma Konuları,* Türkiye Diyanet Vakfı nəşriyyatı, Ankara 1998, səh. 96

10. Mahmut Aydın, *İsa Tanrı mı İnsan mı?, Dinler Arası Diyalog Bağlamında İsa-Mesih'in Konumu Sorunu,* İz nəşriyyat, səh. 47

11. Nəsrani termini, Əhdi-Cədidin “Həvarilərin İşləri” kitabında işlədilir. Burada ənənəpərəst yəhudilər, hz. İsanın tələblərini təsvir etmək üçün "nəsrani təriqəti" deyimindən istifadə edirlər. (24:5) Termin dövrün yəhudi və xristian mənbələrində də işlədilir.

12. Tövratda hz. Musanın belə dediyi yazılmışdır: "Allahınız Rəbb sizə, öz soydaşlarınız arasından mənim kimi bir peyğəmbər göndərəcək. Onun sizə söyləyəcəyi hər sözü dinləyin. O peyğəmbəri dinləməyənlər, Allahın firqəsindən çıxarılıb yox ediləcək". (Tesniye, 18:15)

13. Michael Baigent, Richard Leigh, Henry Lincoln, *The Messianic Legacy*, səh. 136

14. Irenaeus, *Adversus Haereses*, 1:26; Michael Baigent, Richard Leigh, Henry Lincoln, *The Messianic Legacy*, səh. 136

15. Epiphanius. Contra Octoaginta Haereses, xxx, səh. 45; Michael Baigent, Richard Leigh, Henry Lincoln, *The Messianic Legacy*, səh. 137

16. David van Biema, *The Lost Gospels*, *Time*, 22 dekabr 2003

17. Mahmut Aydın, *Yahudi Bir Peygamberden Gentile Tanrıya: İsa'nın Tanrısallaştırılma Süreci,* İslamiyat III (2000), 4-cü buraxılış, səh. 51

18. E. P. Sanders, *The Historical Figure of Jesus*, Penguin Books, İngiltərə, səh. 58-59

19. Mahmut Aydın, *Tarihsel İsa, İmanın Mesih'inden Tarihin İsa'sına,* Ankara Okulu nəşriyyatı, Ankara, 2002, səh. 47-48. Rudolf Bultman, *History of the Synoptic Tradition*, səh.127

20. Mahmut Aydın, *Tarihsel İsa, İmanın Mesih'inden Tarihin İsa'sına,* səh. 51. Rudolf Bultman, *Theology of the New Testament*, I, səh. 51

21. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 63

22. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 63

23. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 64

24. Paula Fredriksen, *From Jesus to Christ, The Origins of the New Testament, Images of Jesus*, Second Edition, Yale University Press, səh. 3

25. Paula Fredriksen, *From Jesus to Christ, The Origins of the New Testament, Images of Jesus*, səh. 5

26. Marcus J. Borg, *The Historical Study of Jesus and Christian Origins*, səh. 144. John Dominic Crossan, *The Birth of Christianity, Discovering what happened in the years immediately after the execution of Jesus*, Harper SanFransisco, 1998, səh. 140

27. Barry, W. Henaut, *Oral Tradition and the Gospels*, səh. 295, 296-297, 299, 304. John Dominic Crossan, *The Birth of Christianity, Discovering what happened in the years immediately after the execution of Jesus*, Harper SanFransisco, 1998, səh. 403

28. Mahmut Aydın, *Yahudi Bir Peygamberden Gentile Tanrıya: İsa'nın Tanrısallaştırılma Süreci*, İslamiyat, III (2000), 4-cü buraxılış, səh. 51

29. Örneğin bkz. Hugh Schonfield. *The Passover Plot. A New Interpretation of the Life and Death of Jesus*. Element Books Limited, London, 1996. səh. 259

30. Lütfi Ekinci, John Gilchrist. *Evet, Kitabı Mukaddes Tanrı Sözüdür: Kitap Ehli'nden Sorulara Yanıtlar*. Müjde nəşriyyatı, İstanbul, 1993. Səh. 240.

http://isamesih.org/doc/kitabi_mukaddes/bolum_7.php3#4

31. John Dominic Crossan & Richard G. Watts, *Who is Jesus? Answers to Your Questions About the Historical Jesus*, Westminster John Knox Press, London, 1996, səh. 3-4

32. Paula Fredriksen, *From Jesus to Christ, The Origins of the New Testament*, Images of Jesus, səh. 8

33. Jim Walker, "Did A Historical Jesus Exist",

http://freethought.mbdojo.com/didjesusexist.html

34. Jim Walker, "Did A Historical Jesus Exist",

http://freethought.mbdojo.com/didjesusexist.html

35. Jim Walker, "Did A Historical Jesus Exist",

http://freethought.mbdojo.com/didjesusexist.html

36. Jim Walker, "Did A Historical Jesus Exist",

http://freethought.mbdojo.com/didjesusexist.html

37. Did A Historical Jesus Exist, Jim Walker, http://freethought.mbdojo.com/didjesusexist.html

38. *Time*, 8 aprel 1996. http://freethought.mbdojo.com/didjesusexist.html

39. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 57

40. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 69

41. Maurice Casey, *From Jewish Prophet to Gentile God, The Origins and Development of New Testament Christology*, James Clarke and Co. Ltd., Cambridge, 1991, səh. 25

42. James Still, "The Gospel of John and the Hellenization of Jesus". http://www.sullivan-county.com/news/mine/john_gospel.htm

43. James Still, "The Gospel of John and the Hellenization of Jesus", http://www.sullivan-county.com/news/mine/john_gospel.htm

44. James Still, "The Gospel of John and the Hellenization of Jesus", http://www.sullivan-county.com/news/mine/john_gospel.htm

45. Thedore Zahn, *The Articles of Apostles' Creed,* 1899, səh. 33-37

46. Duncan Heaster, Jesus Christ and the Trinity, What Does the Bible Say? The Transcript of A Debate, 1988, http://www.carelinks.net/books/dh/dbb/1-1.htm

47. Mahmut Aydın, *İsa Tanrı mı İnsan mı?, Dinler Arası Diyalog Bağlamında İsa-Mesih'in Konumu Sorunu*, İz nəşriyyatı, səh.118, John Hick, *The Rainbow of Faiths*, səh. 95-99

48. Maurice Casey, *From Jewish Prophet to Gentile God, The Origins and Development of New Testament Christology,* səh. 47

49. John Hick, *The Metaphor of God Incarnate, Christology in a Pluralistic Age*, Westminster/John Knox Press, 1993, Önsöz

50. John Hick, *The Metaphor of God Incarnate, Christology in a Pluralistic Age*, səh. 2

51. John Hick, *The Metaphor of God Incarnate, Christology in a Pluralistic Age*, səh. 27

52. "Son of God". *The Catholic Encyclopedia*, copyright © 1913 by the Encyclopedia Press, Inc. Electronic version copyright © 1996 by New Advent, Inc.

http://www.newadvent.org/cathen/14142b.htm

53. Mahmut Aydın, *İsa Tanrı mı İnsan mı?, Dinler Arası Diyalog Bağlamında İsa-Mesih'in Konumu Sorunu,* səh. 123. John Hick, *Jesus and the World Religions*, səh. 175

54. Mahmut Aydın, *İsa Tanrı mı İnsan mı?, Dinler Arası Diyalog Bağlamında İsa-Mesih'in Konumu Sorunu*, s. 123. John Hick, *Jesus and the World Religions*, s. 176

55. Maurice Casey, *From Jewish Prophet to Gentile God, The Origins and Development of New Testament Christology*, səh. 46

56. Maurice Casey, *From Jewish Prophet to Gentile God, The Origins and Development of New Testament Christology*, səh. 52

57. Mahmut Aydın, *Yahudi Bir Peygamberden Gentile Tanrıya: İsa'nın Tanrısallaştırılma Süreci,* İslamiyat III (2000), 4-cü buraxılış, səh. 68

58. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 243

59. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 244-245

60. William C. Varner, "Jesus the Son of God", http://www.foigm.org/IMG/sonofgod.htm

61. Anthony Buzzard, "Who is Jesus? Do the creeds tell us the truth about him?" http://www.mindspring.com/~anthonybuzzard/jesus.htm

62. İslamiyat Dergisi, 15 Ağustos, 2003, Abdullah Şahin'in John Hick ile söyleşisi, http://www.islamiyatdergisi.com/b0704.asp

63. Archpriest Zachariah Butrus, "God is one in the Holy Trinity", http://www.the-good-way.com/eng/article/a06.htm#3.2

64. Kuran-ı Kerim Tefsiri, Elmalılı Muhammed Hamdi Yazır,

http://www.kuranikerim.com/telmalili/araf.htm

*65. Encyclopedia Britannica*, Ultimate Reference Suite DVD 2004, "Logos"

66. Carlos Madrigal, *Üç Tanrı mı Tek Tanrı mı? Tevhit'te Teslis,* Bütün Dünya Kitaplığı, 2002, səh. 29-31

67. John Marsh, *Jesus in his Lifetime,* Sidgwick and Jackson Published, səh. 44-46

68. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 245

69. Paul F. Knitter, *No Other Name? A Critical Survey of Christian Attitudes Toward the World Religions*, American Society of Missiology Series, No. 7, Orbis Books, New York, 2003, səh. 185

70. E. P. Sanders, *The Historical Figure of Jesus*, səh. 58

71. Paul F. Knitter, *No Other Name? A Critical Survey of Christian Attitudes Toward the World Religions*, səh. 184

72. E. P. Sanders, *Jesus in Historical Context*, http://theologytoday.ptsem.edu/oct1993/v50-3-article8.htm

73. E. P. Sanders, *The Historical Figure of Jesu*s, səh. 161

74. Paula Fredriksen, *From Jesus to Christ, The Origins of the New Testament, Images of Jesus,* səh. 18

75. Dr. Paul R. Eddy, *Was Early Christianity Corrupted by 'Hellenism'?*,

http://www.xmark.com/focus/Pages/hellenism.html

76. William C. Varner, "Jesus the Son of God", http://www.foigm.org/IMG/sonofgod.htm

77. William C. Varner, "Jesus the Son of God", http://www.foigm.org/IMG/sonofgod.htm

78. Michael Baigent, Richard Leigh, Henry Lincoln, *The Messianic Legacy*, səh. 157

79. Leslie Hardinge. *The Celtic Church in Britain*. S.P.C.K. for the Church Historical Society, London, 1972. Səh. 37

80. "Socinianism". *The Catholic Encyclopedia*, copyright © 1913 by the Encyclopedia Press, Inc. Electronic version copyright © 1996 by New Advent, Inc.

(http://www.newadvent.org/cathen/14113a.htm)

81. Bir İslam Peygamberi, *Hz. İsa, Muhammed Ata'ur Rahim*, 3-cü nəşr, İnsan nəşriyyatı, səh. 140

82. Bir İslam Peygamberi, *Hz. İsa, Muhammed Ata'ur Rahim*, səh. 139, Anti-Trinitarian Biographies, A. Wallace, Introduction, səh. 79,

83. Unitarian Community Victoria, http://www.anzua.org/ucv/

84. Muhammed Ata'ur Rahim and Ahmad Thomson, *Jesus Prophet of Islam*, səh. 187-188

85. "Unitarians". *The New Catholic Encyclopedia*, http://www.newadvent.org/cathen/15154b.htm

86. "Unitaryenizm", http://dunyadinleri.com/unitaryen.html

87. Unitarian Community Victoria, http://www.anzua.org/ucv/

88. Unitarian Christianity, William Ellery Channing, http://www.uuchristian.org/channing/unitarianchristianity.htm

89. Muhammed Ata'ur Rahim and Ahmad Thomson, *Jesus Prophet of Islam*, səh. 167

90. Yehova Şahitleri rəsmi veb səhifəsi, "Christendom Has Betrayed God and the Bible", http://www.watchtower.org/library/pr/index.htm

91. Jack Donovan, "Islam, US, and Yeats' Dilemma", http://www.uuf.org/Sermon01/011104sIslam,Us,andYeats'Dilemma.htm

92. Susan Ritchie, The Promise of Postmodernism for Unitarian Universalist Theology, Journal of Liberal Religion Summer 2002, http://www.nuuc.org/academic.html

93. Susan Ritchie, The Promise of Postmodernism for Unitarian Universalist Theology, http://www.nuuc.org/academic.html

94. Susan Ritchie, The Promise of Postmodernism for Unitarian Universalist Theology, http://www.nuuc.org/academic.html

95. Ritchie, "The Promise of Postmodernism.

96. Mark D. Morrison-Reed, The Islamic Connection, http://www.firstunitariantoronto.org/Sermons/Th_%20Islamic_Connection.htm

97. Sidney Fox, Klaus Dose, *Molecular Evolution and The Origin of Life*, Marcel Dekker, Nyu-York, 1977, səh. 2.

98. Alexander I. Oparin, *Origin of Life*, Dover Publications, Nyu-York, 1936, 1953 (yeni nəşr), səh.196.

99. "New Evidence on Evolution of Early Atmosphere and Life", *Bulletin of the American Meteorological Society*, 63-cü cild, noyabr 1982, səh. 1328-1330.

100. Stanley Miller, *Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules*, 1986, səh. 7.

101. Jeffrey Bada, *Earth*, fevral 1998, səh. 40.

102. Leslie E. Orgel, "The Origin of Life on Earth", *Scientific American*, 271-ci cild, oktyabr 1994, səh. 78.

103. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, səh. 189.

104. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, səh. 184.

105. B. G. Ranganathan, Origins?, The Banner Of Truth Trust, Pennsylvania, 1988.

106. Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, səh. 179.

107. Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, 87-ci cild, 1976, səh. 133.

108. Douglas J. Futuyma, *Science on Trial*, Pantheon Books, Nyu-York, 1983, səh. 197.

109. Solly Zuckerman, *Beyond The Ivory Tower*, To plinger Publications, Nyu-York, 1970, 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, 258-ci cild, səh. 389.

110. J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", *Scientific American*, dekabr 1992.

111. Alan Walker, *Science*, 207-ci cild, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, J. B. Lipincott Co., Nyu-York, 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, III cild, Cambridge University Press, Cambridge, 1971, səh. 272.

112. *Time*, noyabr 1996.

113. S. J. Gould, *Natural History*, 85-ci cild, 1976, səh. 30.

114. Solly Zuckerman, *Beyond The Ivory Tower*, New York: Toplinger Publications, 1970, səh. 19

115. Richard Lewontin, "The Demon-Haunted World", *The New York Review of Books*, 9 yanvar 1997, səh. 28.

**116. Malcolm Muggeridge, *The End of Christendom*, Grand Rapids: Eerdmans, 1980, səh. 43.**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni

atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə

ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla

beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan

Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Həzrəti İsanın gətirdiyi din, "Allaha, Onu tək ilah qəbul edərək iman gətirməyi tələb edən haqq din"dir. Lakin bu mübarək insanın təbliğ etdiyi şeylər, onun Allah Qatına alınmasından sonra, əslindən uzaqlaşdırılmış, həqiqi İsəviliyin yerində isə, "təslis və kəffarə kimi" batil fəlsəfələri əsas götürən yeni bir inanc yaradılmışdır və bu inanc insanlara "heç düşünmədən, sorğu-sual etmədən, araşdırmadan" qəbul edilməli olan "mütləq qanun" kimi təqdim edilmişdir.

Lakin insanlar məclislərdə "səs çoxluğuyla" qəbul edilən bu yanlış inancları artıq sorğu-sual etməyə başlayıblar. Keçmişdə təslis inancı haqqında şübhələrini dilə gətirənlər, inkvizisiya məhkəmələrinə çıxarılır, ölüm cəzasına məhkum edildiyi halda, artıq bu mübahisələr cinayət olmaqdan kənara çıxmışdır. Əsrlər boyunca barəsində danışılmayan, müzakirə aparılmayan təslis inancının, xristianların müqəddəs mətnlərində mövcud olmadığı, bu inancın hz. İsadan 3 əsr sonra xristianlığa daxil olduğu hər mühitdə dilə gətirilməyə başlanılmışdır.

Bu kitabda, həm xristian qaynaqları, həm də Quran ayələri əsasında həqiqi xristianlığın, tövhid inancını əsas götürən, hənif (Allahın vahid olduğuna iman edən) bir din olduğu göstərilir. Məqsədimiz, Allahın bir çox Quran ayəsində bildirdiyi; "yaxşılığı əmr edib, pislikdən çəkindirmək" əmrinin tələbini yerinə yetirmək və sağlamfikirli İsəvilərin həqiqətləri görmələrinə köməkçi olmaqdır. Xahişimiz isə, bütün İsəvilərin bu yanılmanı görmələri və tövhid inancına uyğun gəlməyən bütün yanlış inanclardan tamamilə imtina etmələridir.